Xalqın qəzeti!
# Xalq qəzeti
№ 169 (30863) 14 avqust 2025-ci il, cümə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# “Kəssə hər kim tökülən qan izini...”



səhifə ⇨ 4

## Təzyiq siyasətindən həqiqət diplomatiyasına keçid

*Vaşinqton Bəyannaməsi İrəvanı geosiyasi dividendlər yoluna çıxarır*



**Son illər Cənubi Qafqazda baş verən proseslər göstərir ki, sülh yalnız siyasi iradə, geosiyasi balans və diplomatik manevrlərlə təmin olunur. Avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması bu həqiqəti bir daha təsdiqlədi. Prosesin ən diqqətçəkən məqamlarından biri isə Ermənistan Baş naziri Nikol Paşinyanın kənar təzyiqlərdən qorunması oldu. İlk baxışdan bu, yalnız şəxsi siyasi mövqenin qorunması kimi görünə bilər, lakin, əslində, söhbət İrəvan üçün strateji dividendlər gətirən, onu həm Rusiya, həm də digər regional güclərin təsirindən müəyyən qədər uzaqlaşdıran geosiyasi manevrdən gedir. Sual yaranır: Paşinyanı qorumaq, əslində, Ermənistanın gələcəyinə hansı yeni imkanları açır və bu, bölgədə güc balansına necə təsir edir?**

ardı səhifə ⇨ 5

## Levon Ter-Petrosyan tərəddüd içindədir



səhifə ⇨ 6

## Vaşinqtonda kimlərin cavabı necə verildi?

*Yaxud anti-Azərbaycan mövqe tutanlar barəsində nekroloq əvəzi*



**Prezident İlham Əliyev Vaşinqtonda ölkəmizin media orqanlarına müsahibəsində maraqlı məqamlara toxundu. Həmin məqamlardan biri də ABŞ-da Azərbaycanla bağlı yanlış təsəvvürlər barədə idi.**

Məlumdur ki, sözügedən təsəvvürlərin bir neçə istiqaməti var. Birincisi, Azərbaycanda, guya, demokratiya yoxdur, söz və ifadə azadlığı boğulur və sair. İkinci istiqamət Azərbaycan Ermənistana qarşı qeyri-konstruktiv mövqe tutur, işğalçılıq niyyəti güdür. Üçüncü istiqamət də ikincinin davamı kimi qiymətləndirilə bilər. O anlamda ki, Azərbaycanın Ermənistana qarşı sərt davranışa üstünlük verdiyini qabardan ABŞ-ın bəzi beyin mərkəzləri və media orqanları hər zaman din amili üzərində dayanırdılar. Təxminən belə: müsəlman Azərbaycanı xristian Ermənistanını əzməyə çalışır. Bu sayaq ermənipərəst motivli anti-Azərbaycan ritorikanın zərərləri nədən ibarətdir, bu barədə söz açacağıq.

Hələlik isə bildirək ki, Azərbaycanın Qarabağdan xristian erməniləri didərgin saldığı kimi son dərəcə sərsəm və aşkar təxribata hesablanmış deyimlərlə də üzləşmişik. İndi isə Tramp Bakı ilə İrəvan arasında sülh vasitəçiliyi etdi. Nəinki etdi, eyni zamanda, dinindən və millətindən asılı olmayaraq, bütövlükdə Cənubi Qafqaz xalqlarını bir araya gətirən nəhəng təşəbbüsün reallaşmasına qol çırmadı. Belə bir durumda ABŞ-da Azərbaycana münasibətdə formalaşmış cəfəng ritorika daşıyıcılarının axırı necə olacaq? Əlbəttə, düşünmürük ki, onlar utanacaqlar. Utanmalarını gözləmirik də. Vurğulamaq istədiyimiz məqam başqadır.

*(ardı 3-cü səhifədə)*

## Şirin su qıtlığı getdikcə kəskinləşir

*Elmi yanaşma və ciddi qənaət problemi yüngülləşdirə bilər*



ardı səhifə ⇨ 9

## “ABŞ platforması”ndan imtina Ermənistana fəlakət gətirər



**Azərbaycan və Ermənistan rəhbərlərinin Vaşinqton görüşləri zamanı əldə edilən nəticələrə verilən reaksiyalar onu göstərir ki, “ABŞ platforması”nı həzm edə bilməyən güc mərkəzləri mövcuddur.**

*(ardı 5-ci səhifədə)*

## Xarici ticarət dövriyyəmiz 6 ayda 24 milyard dollara çatıb

*104 ölkə ilə ixrac, 160 dövlətlə idxal əməliyyatı aparılır*



**Son illər Azərbaycan iqtisadiyyatında baş verən dinamik dəyişikliklər ölkəmizin dünya iqtisadi sisteminə daha fəal inteqrasiya olunmasına və ixrac imkanlarının əhəmiyyətli dərəcədə genişlənməsinə əlverişli şərait yaradıb. Xüsusilə də qeyri – neft sektorunun inkişafı və rəqabət qabiliyyətli məhsulların istehsalı istiqamətində həyata keçirilən kompleks layihələr özəl bölmənin sürətli inkişafına güclü təkan verib.**

*(ardı 7-ci səhifədə)*

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülh bəyannaməsinin uğurla imzalanması münasibətilə Sizə Albaniya xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram. Bu sənədin imzalanması iki ölkə arasında əməkdaşlığa və qarşılıqlı anlaşmaya yol açan tarixi bir mərhələdir. Sizin tərəfinizdən, eləcə də Amerika Birləşmiş Ştatları tərəfindən nümayiş etdirilən davamlı qətiyyəti və sadiqliyi yüksək dəyərləndiririk.

Fürsətdən istifadə edərək bir daha təsdiq edirəm ki, Albaniya Azərbaycanla dostluğa, qarşılıqlı hörmətə və ortaq maraqlara əsaslanan, davamlı şəkildə inkişaf edən tərəfdaşlığa böyük əhəmiyyət verir.

Əminəm ki, Sizin müdrik rəhbərliyinizlə ölkələrimiz arasında əlaqələr bundan sonra da inkişaf edəcək və Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və töhfələri daha da artacaqdır.

Cənab Prezident, sülh prosesinin davamlı uğuru və dost Azərbaycan xalqının firavanlığı ilə bağlı ən xoş arzularımı və Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Bayram BEQAY,***
***Albaniya Respublikasının Prezidenti***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Sizin 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilmiş görüşünüzün yekunlarına dair Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla tarixi Birgə Bəyannamənin imzalanması münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Zati-alinizin müasir tarixə həkk olunmuş qətiyyətli və hüquqauyğun addımları Asiyada uzun müddət davam etmiş daha bir münaqişənin həll olunmasını təmin etdi.

Azərbaycanın əldə etdiyi bu əlamətdar nailiyyət ölkənizin regional və qlobal sülh və təhlükəsizliyin təşviqinə dönməz sadiqliyini bir daha nümayiş etdirdi.

Zati-alinizin strateji rəhbərliyi altında Azərbaycanın səyləri Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) əhatə etdiyi geniş regionun tranzit və nəqliyyat potensialının reallaşması ilə dayanıqlı əlaqəliliyə, mədəniyyətlərarası dialoqun təşviqinə, iqlim dəyişikliyi ilə bağlı çağırışlarla mübarizəyə və AQEM-in vasitəçilik, münaqişələrin həlli və münaqişədən sonra bərpa qabiliyyətlərinin gücləndirilməsinə mühüm töhfə verir.

Zati-aliləri, Azərbaycana və xalqınıza davamlı sülh və firavanlıq arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Kayrat SARIBAY,***
***Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi***

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 may tarixli 97 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin investisiya əməliyyatlarının aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 may tarixli 97 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 965 (Cild I) ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin investisiya əməliyyatlarının aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4.2-ci bənddə "3.3.1-ci və 3.3.2-ci yarımbəndləri" sözləri "3.3.2-ci yarımbəndi" sözləri ilə əvəz edilsin.

**2.** 5.3-cü bənddə "50" rəqəmləri "5" rəqəmi ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 avqust 2025-ci il**

## "Konstitusiya və Suverenlik İli"nə həsr olunan tədbir



**Fövqəladə Hallar Nazirliyinin Aran Regional Mərkəzində "Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda konfrans keçirilib.**

Məclisdə çıxış edənlər "Konstitusiya və Suverenlik İli"nin elan olunmasının əhəmiyyətindən bəhs edərək bildiriblər ki, 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanılmış Vətən müharibəsində qazanılmış tarixi Zəfər və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib. Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi respublikamızın bütün ərazilərində bərqərar olub. Prezident İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycanda Dövlət Suverenliyi Günü elan edilib. 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması müasir Azərbaycan dövlətçiliyinin inkişafında mühüm əhəmiyyət kəsb edən bir hadisədir.

## İsveçrədə Azərbaycan əleyhinə qətnamə layihəsi rədd edilib

**Cenevrə kantonunun parlamentinin bir sıra ermənipərəst üzvü tərəfindən ötən il noyabrın 5-də irəli sürülmüş "Dağlıq Qarabağın ilhaqı və Azərbaycanın siyasi məhbuslarının azadlığa buraxılması" adlı 24.321 saylı qətnamə layihəsi Azərbaycanın İsveçrədəki səfirliyinin apardığı məqsədyönlü fəaliyyət nəticəsində avqustun 11-də bu ölkənin parlamentinin yuxarı palatası olan Kantonlar Şurasının Xarici Əlaqələr Komitəsi tərəfindən rədd edilib. Yeni qərar layihəsi 5 əleyhinə, 4 lehinə və 3 bitərəf səslə komitənin gündəliyindən çıxarılıb.**

Qeyd edək ki, İsveçrə parlamentinin yuxarı palatasının Xarici Əlaqələr Komitəsinin mətbuat məlumatında Cenevrə kantonal parlamentinin təxribat xarakterli məlum təşəbbüsünün birtərəfli olduğu, yalnız Azərbaycan tərəfinə tələblər irəli sürdüyü vurğulanıb və bu cür yanaşmaya etiraz ifadə olunub.

## Pakistan Prezidentinin Azərbaycan xalqına təbriki

**Pakistan Azərbaycan ilə qarşılıqlı etimad, ortaq dəyərlər və ümumi arzular əsasında qardaşlıq əlaqələrini dərinləşdirmək niyyətində olduğunu bir daha təsdiq edib.**



Bu barədə Pakistan Prezidenti Asif Əli Zərdari Azərbaycanın bu ölkədəki səfiri Xəzər Fərhadov ilə görüşü zamanı deyib.

Prezident Zərdari Azərbaycan xalqını və Prezidentini Ermənistan ilə imzalanan tarixi sülh razılaşması sənədi münasibətilə təbrik edib. O bildirib ki, razılaşma regionda davamlı sülh, stabillik və inkişafa gətirib çıxaracaq. O cümlədən qeyd olunub ki, Pakistan münaqişələrin qarşılıqlı hörmət və anlayış əsasında dialoq və sülh yolu ilə həll olunmasının tərəfdarıdır.

Prezident, həmçinin Hindistanın qeyri-qanuni işğalı altında olan Cammu və Kəşmirdə xalqın ədalətli işinə verdiyi davamlı dəstəyə görə xüsusilə İƏT Əlaqə Qrupunun dəyərli üzvü kimi Azərbaycana təşəkkür edib.

## "907-ci düzəliş" ləğv edilməyə məhkum idi






**Beynəlxalq Avrasiya Mətbuat Fondunda (BAMF) təcrübə proqramı keçən ABŞ tədqiqatçısı Lilan Spriqz Azərbaycanla bağlı bir sıra mühüm mövzularda, o cümlədən ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi "Azadlığa Dəstək Aktı"nın 907-ci düzəlişi ilə bağlı ətraflı tədqiqat aparıb.**

BAMF-dan XQ-yə bildirildi ki, o apardığı araşdırmanın yekununda düzəlişin Azərbaycanın maraqlarına və regiondakı sülh prosesinə mənfi təsirlərini diqqət mərkəzinə çəkib. Tədqiqatda qeyd edilir ki, 1992-ci ildə ABŞ Konqresi tərəfindən qəbul olunan "907-ci düzəliş" Azərbaycana qarşı açıq ayrı-seçkilik nümayiş etdirib və onu "Azadlığa Dəstək Aktı" çərçivəsində yardımlardan məhrum edən yeganə postsovet dövləti edib. Lilan Spriqz qeyd edir ki, bu qərar Birləşmiş Ştatların münaqişə tərəflərinə neytral münasibət göstərmək öhdəliyinə ziddir və ABŞ-ın vasitəçilik rolunu ciddi şəkildə şübhə altına alır.

Araşdırmada Qarabağ münaqişəsinin tarixi, Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası və Ermənistan tərəfindən aparılan etnik təmizləmə siyasəti də geniş əksini tapıb. Müəllif qeyd edir ki, 907-ci bənd təkcə Azərbaycanın hüquqlarını pozmayıb, həm də Ermənistanın maraqlarına birtərəfli üstünlük verərək, sülh imkanlarını da daraldıb.

Lilan Spriqz, eyni zamanda, ABŞ-da fəaliyyət göstərən erməni lobbi qruplarının bu qərarın qəbuluna təsirini vurğulayıb. O bildirib ki, Azərbaycan icmasının həmin dövrdə zəif təmsil olunması ölkənin mövqeyini beynəlxalq arenada daha da çətinləşdirib.

ABŞ tədqiqatçısı zamanı qabaqlayaraq öz ölkəsinə 907-ci düzəlişə yenidən baxmasının vacibliyini anlatmağa çalışıb. Müəllif göstərib ki, bu addım iki ölkə arasında münasibətlərin inkişafına və regionda davamlı sülhə töhfə verə bilər.

Xatırladaq ki, Lilan Spriqz araşdırmaçı, beynəlxalq hüquq və münasibətlər üzrə mütəxəssisdir, hazırda Vaşinqtonda yerləşən bir neçə analitik mərkəz və akademik qurumlarla əməkdaşlıq edir. Onun tədqiqatlarında regionun geosiyasi reallıqları, tarixi kontekst və beynəlxalq hüququn rolu xüsusi yer tutur.

2025-ci ilin iyul ayından etibarən tədqiqatçı BAMF-dakı təcrübə proqramı çərçivəsində, "BMT-nin Qarabağla bağlı 4 qətnaməsi", "Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyəti" və "Azərbaycanın mina problemi: onun miqyası və təhdidlər" kimi mövzularda araşdırmalar apararaq bir sıra analitik materiallar, elmi tövsiyələr hazırlayıb.

***Hazırladı: T.RÜSTƏMLİ***
***XQ***

## Keniya Senatının üzvləri Azərbaycan səfirliyində



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun cari ilin iyununda Keniyaya rəsmi səfərinin nəticələrindən biri kimi iki ölkənin parlamentləri arasında əməkdaşlığın daha da gücləndirilməsi ilkin olaraq razılaşdırılıb. Bu məsələ Keniyanın ikipalatalı qanunvericilik orqanları Milli Assambleyanın sədri Moses Vetanq'ula və Senatın sədri Amason Ceffa Kinqi ilə görüşlərdə müzakirə edilib.**

Azərbaycan Milli Məclisi ilə Keniya Senatı arasında dostluq qrupunda iştirak edəcəyi ehtimal olunan Keniya Senatının üzvləri Stevart Madzayo, Tabitha Mutinda və Hamida Kibvana Azərbaycanın bu ölkədəki səfirliyini ziyarət ediblər.

Səfir Sultan Hacıyev senatorları ulu öndər Heydər Əliyevin siyasi kursuna əsaslanan inkişaf yolu və azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işləri haqqında məlumatlandırıb. Görüşdə ötən həftə Vaşinqtonda imzalanan Birgə Bəyannamənin həm Azərbaycan ilə Ermənistan arasında, həm də ümumilikdə regionda sülh və inkişaf üçün tarixi əhəmiyyəti barədə danışılıb.

Sonda tərəflər Azərbaycanın Milli Məclisi ilə Keniyanın Senatı arasında yaradılacaq əməkdaşlığın ölkələr arasında sürətlə inkişaf edən əlaqələrin dinamikasına müsbət töhfə verəcəyinə ümidvar olduqlarını ifadə ediblər.

***XQ***

## Ölkəmiz Amsterdamda keçiriləcək sərgi-konfransda təmsil olunacaq

**Azərbaycan Respublikasının Kosmik Agentliyi – "Azərkosmos" bu il sentyabrın 12-dək 15-dək Niderlandın paytaxtı Amsterdamda keçirilən "IBC 2025" beynəlxalq sərgi-konfransında iştirak edəcək.**




"IBC 2025" beynəlxalq sərgi çərçivəsində 14 zalda innovasiyaları əks etdirən stendlər qurulacaq.

"Gələcəyin formalaşması" devizi altında keçiriləm "IBC 2025" beynəlxalq sərgisində dünyanın aparıcı brendlərindən tutmuş sürətlə inkişaf edən startaplara qədər 1000-dən çox şirkət təmsil olunacaq. "IBC 2025"də dünyanın hər tərəfindən gəlmiş şirkət sərgi iştirakçıları və məruzəçilər yenilikləri nümayiş etdirəcəklər.

Qeyd edək ki, 2024-cü ildə tədbirdə 170 ölkədən 45 min 85 ziyarətçi iştirak edib. 1350-dən çox eksponentin cəlb olunduğu sərgi 46 min kvadratmetr sahəni əhatə edib. "IBC 2024" beynəlxalq sərgi-konfransında "Azərkosmos" qlobal peyk operatoru "ABS" şirkəti ilə əməkdaşlığa başlayıb.

# Vaşinqtonda kimlərin cavabı necə verildi?

(əvvəli 1-ci səhifədə)



Əlqərəz, Prezident İlham Əliyev müsahibəsində bildirdi ki, Azərbaycan Prezident Trampın saxta xəbər daşıyıcıları adlandırdığı bəzi media orqanlarında iblis donunda təqdim olunurdu. Dövlətimizin başçısı həmin media orqanlarının adlarını da çəkdi. Söhbət "Washington Post", "New York Times", "Newsweek" və sair kütləvi informasiya vasitələrindən gedir: "...media qurumları mütəmadi olaraq Azərbaycan haqqında şayiələr yayır, bizə hücum edir, təhqiramiz yazılar dərc edir və əslində, Amerika ictimai rəyini çaşdırırdılar. Bunu əsasən bu gün erməni maraqlarına uyğun fəaliyyət göstərən erməni lobbi qruplarının nümayəndələri ediblər. Bu gün baş verənlərə sevinmək əvəzinə, onlar çox məyus olurlar, çünki onların maraqları tamamilə fərqlidir"

Göründüyü kimi, dövlətimizin başçısı müsahibəsində çox vacib məqama toxundu. Məlumdur ki, indiyədək dünyanın müxtəlif ölkələrindəki, o cümlədən ABŞ-dakı erməni lobbi və diaspor təşkilatları anti-Azərbaycan fəaliyyətə üstünlük verib. Yeri gəlmişkən, Prezident Trampın avqustun 8-də ləğv etdiyi "Azadlığı Müdafiə Aktına" 907-ci düzəliş də bilavasitə onların "əməlinin" nəticəsidir. Bu düzəliş həm Birləşmiş Ştatların ölkəmizə qarşı ədalətsiz yanaşmasının, bir növ, rəmzi olmuşdu, həm də özündə regionda əbədi düşmənçilik məntiqini daşımızdı. Bəs bu düşmənçilik Ermənistana nə qazandırdı? Ümumiyyətlə, nə isə qazandırdımı? Ona görə də Prezident İlham Əliyev ABŞ-dakı erməni lobbi və diaspor təşkilatlarını nəzərdə tutaraq vurğuladı: "Onlar işğala görə məsuliyyət daşıyanlardır, çünki onların ideyaları, məsləhətləri, pulları və Ermənistanın müxtəlif hökumətlərinə təsirləri Ermənistanın özü üçün dağıdıcı rol oynayıb. Əgər onlar, belə qruplar olmasaydı, Ermənistan daha çox inkişaf etmiş, möhkəm, müstəqil sistemə malik ölkə olardı. Amma onlar, sadəcə, vaxt itirdilər, torpaqlarımızı işğal edərək vaxt itirdilər və sonda bu işğalı əbədi saxlaya bilmədilər, əslində isə özlərini inkişafdan 30 il geri atdılar".

Deməli, Azərbaycanla bağlı ABŞ-da yayılan mənfi fikirlər və ölkəmizi gözdən salmaq cəhdləri yekun nəticədə Ermənistanın ziyanına işləyən amilə çevrilib və bunu hazırda daha yaxşı görmək, mövcud istiqamətdə yekun qənaətə gəlmək mümkündür. Halbuki, Azərbaycanla bağlı şayiə və yalanların ölkəmizi tanıyanlar üçün tamamilə qərəzli səslendiyini dilə gətirən dövlətimizin başçısının bildirdiyi kimi, ölkəmiz etnik və dini müxtəlifliyi ilə məşhur olan nadir məmləkətlərdəndir: "Bütün dini obyektlər dövlət tərəfindən qorunur. Azərbaycanda heç vaxt qarşıdurma, hətta etnik, dini fərqlər zəminində anlaşılmazlıq olmayıb. Əksinə, bu gün Azərbaycan multikulturalizmin mərkəzlərindən biridir. Burada müxtəlif dini və etnik qrupların nümayəndələri bir ailə kimi yaşayırlar. Məncə, bu gün baş verənlər hələ də ya reallığı bilməyən, ya da bilərəkdən yanlış təsəvvürlər yaratmağa çalışanlara tutarlı cavab olacaq".

Tam əminliklə deyə bilərik ki, istər Prezident İlham Əliyevin Prezident Donald Tramp tərəfindən ABŞ-a dəvət edilməsi, istər dövlətimizin başçısının işgüzar səfəri çərçivəsində Birləşmiş Ştatlarla ölkəmizin münasibətlərinin dərinləşməsinə yönəlmiş sazişlərin imzalanması, istərsə də cənab Trampın Prezident İlham Əliyevə yüksək səviyyəli münasibəti ABŞ-dakı anti-Azərbaycan mahiyyətli ermənipərəst qüvvələrin illərdir uydurduqları tezislərin tamamilə absurd səciyyə daşıdığını bir daha sübuta yetirdi. Onlar bu günlərdə, sanki, soyuq duş almış oldular.

Yazının əvvəlində Azərbaycana qarşı son illərdəki qərəzli münasibətin bir tezisini diqqətə çatdırdıq. Söhbət Azərbaycanın, guya, Ermənistanı işğal etmək istəməsinə dair zaman-zaman dövriyyəyə buraxılmış fikirlərdən gedir. Halbuki, ölkəmiz öz haqqını – Zəngəzur dəhlizini istəyib. O dəhliz ki, hazırda TRIPP abreviaturalı Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu adını alıb. Əlbəttə, bu marşrutun ölkəmiz üçün önəmi Naxçıvana maneəsiz yoldur və Ermənistan rəhbərliyi uzun müddət ona əngəl törədirdi. Baş nazir Nikol Paşinyanın "Dünyanın kəsişməsi" və ya "Sülhün kəsişməsi" adlanan təşəbbüsü var idi ki, Zəngəzur dəhlizinə alternativ kimi meydana çıxmış bu layihə Ermənistanı beynəlxalq marşrut xabının mərkəzi fiqurуna çevirməyi hədəfləyirdi. Bu yerdə Prezident İlham Əliyevin Baş nazir Paşinyana nələri bildirdiyinin üzərində dayanaq: "Mən Ermənistanın Baş naziri ilə görüşlərin birində demişdim ki, Ermənistanın tranzit ölkə olmaq şansı yaranacaq. Dedim ki, siz tranzit ölkə olmağın mənasını bilmirsiniz. Siz tranzit ölkə deyilsiniz və yalnız Azərbaycan sayəsində tranzit ölkə ola bilərsiniz. Azərbaycansız tranzit ölkə olmaq mümkün deyil və siz tranzit ölkə olmağın üstünlüyünü görəcəksiniz. Biz daha güclü tranzit ölkə olmağa çalışırıq. Biz istəyirik ki, ərazimizdən keçən dəhlizlər daha çox yükdaşıma qabiliyyətinə malik olsun. Bu, pul gətirir, iş yerləri açır və siyasi imkanlar vəd edir. Söhbət Ermənistanın uzun illər özünü məhrum etdiyi imkanlardan gedir. Beləliklə, bu nəqliyyat marşrutu – qısaltması TRIPP kimi səslənən "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" daha bir tarixi nailiyyət olacaq. Amma yenə də, daha əvvəl qeyd etdiyim kimi, vaxt itirməməliyik. Biz bu işlərlə mümkün qədər tez məşğul olmalıyıq. Birləşmiş Ştatlar bu marşrutu idarə edəcək və ümidvaram ki, regiondakı bütün xalqların xeyrinə bu əlaqə xətlərini qurmaq üçün həmin mühüm vəzifələri öz üzərinə götürəcək investorlar tapılacaq".

Tam aydındır ki, Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin zaman-zaman nümayiş etdirdiyi prinsipiallıq və qətiyyət təkcə Azərbaycana fayda məqsədi güdməyib. Dövlətimizin başçısı bütün beynəlxalq platformalarda, eləcə də daxili auditoriya önündə hər zaman ölkəmizin təşəbbüslərinin, bütövlükdə, regiona mənfəət kazusunu qabardıb. Ermənistan isə həm illər boyu, həm də son beş ildə bu mənfəətdən məhrum duruma düşüb. Ölkənin məhrumiyyətində, belə demək mümkünsə, ABŞ-ın da öz dəst-xətti olub. Söhbət Trampdan əvvəlki Co Bayden administrasiyasının yolverilməz fəaliyyətindən gedir. Yeri gəlmişkən, cənab Tramp Azərbaycan və Ermənistan liderləri ilə mətbuata birgə bəyanatında Birləşmiş Ştatların sabiq administrasiyanın Bakı–İrəvan normallaşmasına yanaşmasını da məsxərə predmetinə çevirdi: "Ayaq üstə yuxulayan Co Bayden də bu məsələ ilə məşğul olmağa çalışıb, ancaq nəticəsi necə olub bəllidir. O, yəqin ki, bu işə 12 dəqiqə vaxt sərf edib".

Prezident İlham Əliyev isə ölkəmizin media orqanlarına Vaşinqtonda verdiyi müsahibədə bildirdi ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqəsi ətrafında şayiələr və təxribatların əsassızlığını Birləşmiş Ştatların əvvəlki rəhbərliyinə bildirmək cəhdləri səmərəsiz alınırdı: "Bunun yalan məlumat olduğu barədə bütün cavablarımız nəticə vermirdi, çünki bu yanlış təsəvvür Vaşinqton da daxil olmaqla, artıq yaranmışdı. Bu azərbaycanofobiyanın hərəkətverici qüvvəsi Bayden administrasiyası idi və biz bunu dəqiq bilirik. Çünki bir çox hallarda avropalı tərəfdaşlarımızla söhbətlərdə onlar bizə bu məlumatın Baydenin komandasından gəldiyini deyirdilər. Onlar Azərbaycanın guya aqressiv niyyətləri barədə qəsdən şayiələr yayırdılar. Hətta Prezident Trampın administrasiyasının ilk aylarında bəzi dövlət qurumlarında köhnə komandanın hələ də çalışan nümayəndələrindən gələn belə yalanlar olub".

Bəli, bu günlərdə "Human Rights Watch", "Freedom House", USAID, "Azadlıq" radiosu kimi qurumların da Azərbaycan əleyhinə "fəaliyyətinin" cəfəng mahiyyət daşıdığı təsdiqini tapır. Eləcə də Ermənistan rəhbərliyinin onlara inanaraq, əslində, illüziya qurduğu da həmçinin. Bu günlərdə səsimiz eşidilir. Prezident İlham Əliyevin bildirdikləri fikrimizin sübutudur: "Bu gün baş verənlərin nəticəsində isə Prezident Trampın şahidliyi ilə Ermənistanın Baş nazirinin şəxsən imzaladığı birgə bəyannamədə Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz keçidlə bağlı mövqeyimizi dəqiq əks etdirən müddəa var. Sənəddə bu, Ermənistanın suverenliyinə hörmət prinsipi ilə qeyd olunub. Beləliklə, biz istəyirdik ki, Azərbaycanın bir hissəsindən digər hissəsinə maneəsiz giriş əldə edək. Yeri gəlmişkən, bu, həm də Ermənistanın 2020-ci il noyabrın 10-da imza atdığı öhdəlik idi, lakin beş il ərzində heç bir irəliləyiş olmamışdı. Ərazidə heç bir iş aparılmırdı. Bu illər ərzində biz dəmir yolunu az qala Ermənistan sərhədinə çatdırmışıq. Təxminən bir ildən az vaxt lazımdır, sürətlə işləsək, bəlkə də altı aya onu tamamilə Ermənistan sərhədinə çatdırarıq".

Maraqlı vəziyyət yaranıb. Dünyanın dörd bir yanından Azərbaycana və Ermənistana ölkələrin sülhə gəldiklərinə dair təbrik mesaj və teleqramları yağmaqdadır. Təbrik edənlər sırasında dövlətimizin başçısının yuxarıdakı iqtibasda diqqətə çatdırdığı reallığı işğalçılıq kimi qiymətləndirənlər də var. Deməli, hazırkı reallıq Prezident İlham Əliyevin də vurğuladığı kimi, Bayden administrasiyasının yetişdirdiyi bütün anti-Azərbaycan rəvayətlərə, onun sərəncamındakı siyasi infrastruktura – mediaya, QHT-lərə, USAID-ə və bəzi korrupsioner siyasətçilərə cavabdır. Elə isə dövlətimizin başçısının aşağıdakı fikirlərini şərhsiz təqdim edərək yazımızı tamamlayaq: "Bugünkü hadisə korrupsiyaya görə dəmir barmaqlıqlar arxasında olan Menendez kimiləri tamamilə sıradan çıxarır. Yaxud Adam Şiff. Mən gələndə öyrəndim ki, Merilend prokuroru Adam Şiffə qarşı ipoteka saxtakarlığına görə cinayət işi açıb. Bilirsiniz, bu adamlar mütəmadi olaraq Azərbaycana hücum edirdilər - Menendez, Şiff, Peloni, Pelosi, Şermann, Marki, Kristofer Smit və başqaları. Bütün bu insanlar Azərbaycana nifrət edirlər – bilmirəm niyə, yəqin ki, Ermənistan lobbisi buna görə onlara pul ödəyirdi. Onlar Azərbaycanın əleyhinə mütəmadi olaraq fəaliyyət göstərən bir qrup ciddi siyasətçi idi. Bu gün Azərbaycan ilə Ermənistan arasında imzalananlar bizim niyyətlərimizi açıq şəkildə nümayiş etdirir – göstərir ki, biz sülh istəyirik, amma biz əlaqələrin qurulmasını da istəyirik. Biz ölkəmizin iki hissəsi arasında təhlükəsiz keçidlə inteqrasiyanı istəyirik, bu da daha geniş region, Ermənistanın özü üçün də çoxlu imkanlar vəd edəcək".

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Minasyanın korrupsiya dosyesi

## *Serj Sarkisyanın kürəkəni qabaqdangəlmişlik edir*



**Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın böyük qızı Anuşun əri, ölkənin Müqəddəs Taxt-Tacdakı sabiq (2013–2018) fövqəladə və səlahiyyətli səfiri Mikael Minasyan baş nazir Nikol Paşinyanı avqustun 8-də Vaşinqtonda imzaladığı sənədlərə görə tənqid edib. O, bununla bağlı fikirlərini sosial şəbəkə hesabında yazıb. Minasyan bildirib ki, həmin sənədlər Ermənistanın maraqlarına zidd məqamları özündə ehtiva edir və ölkənin suverenliyini zəiflədə bilər. O, Paşinyanı xarici təzyiqlər qarşısında (?) güzəştə getməkdə təqsirləndirib. Sabiq səfirin fikrincə, bu addım gələcəkdə Ermənistan üçün ciddi siyasi və təhlükəsizlik riskləri yarada bilər.**

Minasyan yazıb: "Cəmi üç gün əvvəl Ermənistan baş naziri iki mühüm sənəd imzaladı. O, Ermənistanın strateji əhəmiyyətli ərazisini ABŞ-a güzəştə getdi. Bununla belə detallar dəqiqləşdirilmədi və müzakirə olunmadı. O, ATƏT-in Minsk qrupundan imtina etməklə, Naxçıvana maneəsiz keçidi təmin etməklə Azərbaycanın bütün tələblərini yerinə yetirdi. Bütün bunları ona görə etdi ki, "sülh" sözü, ən azı, kağız üzərində öz varlığının mənasının və 2021-ci ildə onları yenidən seçən inqilabçıların haqlılığının sübutu olsun. Bu qədər güzəştlər müqabilində heç olmasa "əsirlər"in azad edilməsinə və ələ keçirilən Ermənistan ərazilərinin (?) geri qaytarılmasına nail olmaq mümkün deyildimi? Sözsüz ki, mümkün idi. Amma indiki geosiyasi vəziyyəti nəzərə alsaq, Nikolla bundan artığına nail olmaq çətin idi. O, "Qarabağdan əl çəkək, soyqırımını unudaq və sakit və xoşbəxt yaşayaq" qlobalist ideologiyasının qələbəsini təmin etdi".

Sabiq səfir bildirib ki, zəifləmiş İran, uzaqlaşdırılan Rusiya, gündən-günə hegemonluğunu gücləndirən (?) dominant Azərbaycan və Türkiyə şəraitində məğlubiyyət simvolu (N.Paşinyanı nəzərdə tutur–S.H.) maksimum mümkün olanı əldə etdi. O, hər şeyi güzəştə getdi, lakin mümkün olanı aldı. Təbii ki, bu cür situasiyalarda daha çox geopolitik güzəştlər əldə etmək olardı. Ancaq görünür, Nikolun rəhbərliyi altında mümkün deyilmiş.

Minasyanı erməni xalqının baş verənlərə etinasızlığı da hiddətləndirib. Bildirib ki, bu sövdələşmənin ən mühüm cəhətlərindən biri də erməni xalqının baş verənlərə biganəliyidir: "Qarşısına milli xəyanət və tarixi inkar etmək bahasına sülhün bərqərar olması vəzifəsi qoyulmuş adam alqışsız qaldı. Alqışlar və diqqət Devoyan ailəsinə yönəldi. Kiçik Sofi Devoyanın toyunun kadrlarına sosial şəbəkələrdə baxışların sayını, bəyənmələri (laykları) və taleyüklü məsələyə verilən reaksiyaları müqayisə edin. Rəqəmlərə baxın və ölkənin hara doğru getdiyini anlayacaqsınız. Bu, inqilabın ən böyük bumeranqıdır".

*

Qeyd edək ki, M.Minasyan Ermənistanın keçmiş hakimiyyət elitasının ən korrupsioner fiqurlarından biridir. Onun korrupsiya sxeminin nədən ibarət olduğuna sonda aydınlıq gətirəcəyik. Hələlik isə onu deyək ki, Sarkisyanın hakimiyyətdə olduğu dövrdə müstəqil medianın ironiya ilə "Ermənistanın baş kürəkəni" adlandırdığı Minasyan həm şəxsi səbəblərdən, həm də siyasi baxımdan hazırkı iqtidara qarşı sərt mövqeyi ilə tanınır. Onun sosial şəbəkədə yaydığı son bəyanat da bu xəttin davamıdır. Minasyan Vaşinqtonda imzalanmış sənədlərə görə Paşinyanı kəskin tənqid edir, ümumi xora qoşularaq ittihamlarını "suverenliyin itirilməsi, strateji ərazilərin güzəştə gedilməsi və Azərbaycanın bütün tələblərinin yerinə yetirilməsi" kimi ifadə yükü son dərəcə ağır sözlərlə əsaslandırmağa çalışır.

Onun arqumentlərinin mahiyyətinə baxdıqda bir neçə mühüm məqam ortaya çıxır. Birincisi, o, hadisələrə tamamilə revanşist və necə deyərlər, keçmişə qayıdış prizmasından yanaşır. Onun Paşinyanı Naxçıvana maneəsiz keçidi təmin etmək, ATƏT-in Minsk qrupundan imtina etmək və Qarabağdan əl çəkmək kimi addımlara görə qınaması, əslində, Azərbaycanın 2020-ci ildən sonra regionda formalaşdırdığı reallıqları qəbul etməməkdən qaynaqlanır. Halbuki bu reallıqlar Koçaryan–Sarkisyan cütlüyünün qurub yaratdığı ordunun hərbi məğlubiyyətinin və 30 ilə yaxın davam edən işğal siyasətinin iflasının nəticəsidir. Minasyan kimi şəxslər isə hələ də köhnə dəst-xətti davam etdirərək Ermənistan cəmiyyətini revanşizmə sürükləmək niyyətindədirlər.

Digər tərəfdən Minasyanın iddialarında da ciddi ziddiyyətlər var. O, bir tərəfdən Paşinyanı "bütün tələbləri yerinə yetirməkdə" ittiham edir, digər tərəfdən "indiki geosiyasi şəraitdə bundan artığına nail olmaq çətin idi" deyərək faktiki olaraq bu addımların qaçılmaz olduğunu etiraf edir. Bu, onun tənqidlərinin siyasi möhtəkirlik məqsədi daşıdığını göstərir. Başqa sözlə, Minasyan reallığı qəbul etsə də, ictimaiyyət qarşısında bunu fərqli şəkildə təqdim etməklə həm Paşinyanı zəiflətmək, həm də özünün və ətrafının revanşist mövqeyini gücləndirmək istəyir.

Onun "Azərbaycan və Türkiyənin dominant mövqeyi", "İranın zəifləməsi" və "Rusiyanın uzaqlaşdırılması" kimi yarlıqları da təsadüfi deyil. Bu yanaşma ilə o, Ermənistanın gələcək taleyini hələ də xarici güclərin kölgəsində görən köhnə siyasi düşüncəni təkrar edir. Əslində, bu cür mövqe Ermənistanın müstəqil qərar vermək qabiliyyətinə qarşı bir növ etimadsızlıq ifadəsidir. Minasyan açıq şəkildə "daha çox geosiyasi güzəşt əldə etmək olardı" deyərkən də faktiki olaraq Ermənistanın gələcəyini yenidən hansısa himayədar dövlətlərin siyasi bazarlığına bağlamaq niyyətini ortaya qoyur. Onun hayları "etinasızlıqda və biganəlikdə" ittiham etməsi də maraqlıdır. O, sosial şəbəkələrdə bir toyun fotolarına olan maraqla öz təbirincə desək, taleyüklü məsələyə verilən reaksiyanı müqayisə edir. Halbuki bu müqayisə sadəlövh populizm nümunəsindən başqa bir şey deyil. Bu cür ittihamlar cəmiyyətdə yalnız qütbləşməni artırır.

Sabiq diplomat hiylegərlik edərək bu açıqlama ilə bir neçə istiqamətdə məqsədlər güdür. Bu məqsədlər Paşinyanı "milli xəyanətkar" kimi təqdim edərək siyasi mövqeyini zəiflətmək, cəmiyyətdə müharibə yolu ilə itirilənləri geri qaytarmaq kimi illüziyanı yenidən canlandırmaq və keçmiş hakimiyyətin siyasi iddialarını möhkəmləndirmək üçün xarici güclərin dəstəyi zərurətini önə çıxarmaq daxildir. Ancaq Ermənistan cəmiyyəti daha bu cür bəyanatları ciddiyə almır. Haylar başa düşürlər ki, belə yanaşmalar Ermənistanı konstruktiv diplomatiyadan uzaqlaşdırır və regionda sülh prosesinə zərbə vurur. Başa düşürlər ki, sülh yalnız kağız üzərində deyil, reallıqda bərqərar olmalıdır və bu, kompromiss yanaşma tələb edir. Minasyan isə kompromisi zəiflik, güzəşti isə xəyanət kimi təqdim etməklə əslində Ermənistanı yenidən təcridə aparan xətti müdafiə edir. Nəticə etibarilə Minasyanın açıqlamaları həm ideoloji, həm də praktiki baxımdan keçmişin təkrarından başqa bir şey vəd etmir. O, nə real alternativ plan təqdim edir, nə də daha yaxşı nəticənin hansı yolla əldə ediləcəyini izah edir. Beləliklə, bu tənqidlər Ermənistan siyasətində köhnə və uğursuz yanaşmaların təzə pafosla təqdim olunmasından ibarətdir. Əslində isə İkinci Qarabağ müharibəsindən sonra formalaşan yeni geosiyasi şəraitdə Ermənistanın qarşısında duran yeganə yol uzunmüddətli sülh və qarşılıqlı əməkdaşlıqdır.

*

Minasyana yönəlmiş korrupsiya ittihamlarına gəldikdə isə qeyd etməliyik ki, S.Sarkisyanın hakimiyyəti dövründə nüfuzlu və imtiyazlı mövqeyə sahib olan Mikael uzun illər Ermənistanın diplomatik və iqtisadi sahələrində əsas fiqurlardan biri kimi çıxış edib. Onun karyera yüksəlişi birbaşa qayınatasının adı ilə bağlıdır. 2007-ci ildə Ermənistan baş nazirinin köməkçisi olan Minasyan bu vəzifəni 2008-ci ilə qədər icra edib. Sarkisyan prezident seçilən kimi Minaksyan da iş yerini Prezident Administrasiyasına dəyişib. 2008-ci ildən 2011-ci il noyabrın 3-dək S.Sarkisyanın administrasiyası rəhbərinin birinci müavini olub.

Hakimiyyət dəyişikliyindən sonra, yəni 2018-ci ildə Paşinyan hökumətinin korrupsiyaya qarşı kampaniyası çərçivəsində Minasyan haqqında bir sıra ciddi ittihamlar səslənidirilib. Ermənistan İstintaq Komitəsi onu çirkli pulların yuyulması, qanunsuz sahibkarlıq fəaliyyəti, gəlirlərini gizlətmək, habelə vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə böyük həcmdə əmlak əldə etməkdə ittiham etdi. İstintaq materiallarında Minasyanın böyük həcmdə daşınmaz əmlak və kommersiya aktivlərini ailə üzvlərinin və yaxın tərəfdarlarının adına rəsmiləşdirdiyi, ölkədən külli miqdarda vəsait çıxardığı iddia olunur. 2020-ci ilin mayında İrəvan məhkəməsi onun barəsində həbs qərarı çıxarıb. Lakin Minasyan ölkədən kənarda olduğuna görə bu qərar icra edilməyib. Daha sonra onun adı beynəlxalq axtarış siyahısına salınıb. İstintaq materiallarında göstərilir ki, Minasyan öz cinayət əməlləri ilə dövlətə 350 milyon dollar məbləğində ziyan vurub. İttiham aktında onun fəaliyyətində çirkli pulların yuyulması əməliyyatlarının xarici banklar vasitəsilə həyata keçirildiyi qeyd olunur. Bu baxımdan Ermənistan ictimai rəyində Minasyanın adı illərdir ki, "Sarkisyan hakimiyyətinin korrupsiyası" sözü ilə sinonim kimi çəkilib. Onun diplomatik fəaliyyəti dövründə əldə etdiyi böyük sərvət, xüsusilə də xaricdəki bahalı daşınmaz əmlakları, keçmiş hakimiyyətin ümumi korrupsiya mirasının simvollarından biridir. Bu səbəbdən Ermənistan cəmiyyətinin böyük əksəriyyəti hesab edir ki, Minasyan dövlət maraqlarını deyil, özünün və Sarkisyan ailəsinin siyasi revanşını düşünür.

***Səxavət HƏMİD***
***XQ***

# “Kəssə hər kim tökülən qan izini…”

*Avrasiyanın xəritəsinə “Tramp yolu” termini düşdüsə, Nobelçilər siyahısına nə üçün Donald Tramp adı düşməsin?*



**Avqustun 8-də Vaşinqtondan gələn xəbərləri eşidəndə öncə 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə dövlət televiziyasının ekranının titrlərində davamlı olaraq təkrar edilən “Bir azdan Prezident İlham Əliyevin xalqa müraciəti yayımlanacaq” anonsunu xatırladım. Həmin gecə cənab Ali Baş Komandan elan etdi ki… müharibə bitdi. O sevincin miqyasını dilə gətirmək mümkün olmasa da, başqa bir məqamı dilə gətirə bilirəm. Evimizdə telefon olan 25 ildə ilk dəfə idi ki, gecəyarısı telefonumuz susmurdu. Elə bil o gecə heç kəs yatmamışdı…**

Ötən həftənin sonunda cənab Donald Trampın təşəbbüsü və qətiyyəti ilə Vaşinqtonda imzalanan sənədlərin mahiyyətinə varınca, xüsusən, “bir daha Azərbaycan və Ermənistan arasında müharibə olmayacaq” tezisini eşidəndə yadıma düşən növbəti məqam müharibənin zərərdidələri haqqında bildiklərim oldu.

Uşaq olanda elə bilirdim ki, müharibədə ancaq hərbçilər iştirak edir, əsgər və zabitlər ölürlər. Bu fikirlər gördüyüm filmlərin təəssüratı əsasında yaranırdı. Sonra tarix müəllimimiz danışdı ki, dünyanın hər yerində, istənilən müharibəni ideoloqlar düşünüb hazırlayır, siyasətçilər başlayır, hərbçilər qırılır, həlak edilir, lakin bütün ölkələrdə əsas müharibə zərərdidəsi qadın və uşaqlar olur. Əsgər öz vəzifəsini yerinə yetirərkən həlak olursa, adı tarixə yazılır, vəssalam. Atası, qardaşı, əri, oğlu həlak olan qadın isə min dəfə ölür, dirilir. Həlak olmuş hərbçinin övladları da bir ömürlük iztirabda qalırlar. Yəni, cənab Trampın bu addımı təkcə hərbi, siyasi, diplomatik və ya iqtisadi baxımdan önəm kəsb etmir. Burada çox böyük mənəvi əhəmiyyət kəsb edən məqamlar da var.

Çəkinmədən deyə bilərəm ki, bu qərardan ən çox “xeyir görən” azərbaycanlı və erməni qadınlar olacaq. Robert Koçaryan və Serj Sarkisyanın əli ilə öldürülmüş yüzlərlə azərbaycanlı körpənin ruhu şad olub-olmayacağını bilmirəm. Çünki o yaşdakı cocuqların ruhunun olub-olmadığını da bilmirəm. Bildiyim odur ki, daha azərbaycanlı körpələr erməni gülləsindən, mərmisindən, minasından ölməyəcəklər. Bu, bizim üçün sıradan bir xəbər deyil. Bu, cənab Donald Trampın da dediyi kimi, çox vacib bir sənəddir.

ABŞ Prezidenti xatırlatdı ki, bu ölkələr uzun illər ərzində – 35 il müharibə şəraitində olublar. İndi isə onlar dostdur və bundan sonra uzun müddət dost qalacaqlar: “Bu gün Ağ Evdə Ermənistan ilə Azərbaycan arasında sülh sammitində hər kəsi qəbul etməkdən böyük şərəf duyuram. Mən böyük insanların bir araya toplanmasından böyük zövq alıram və burada məhz bu baş verir. İki uzaqgörən lider – Prezident Əliyev və Baş nazir Paşinyanı Vaşinqtona səfər edərək bu mühüm bəyannamənin imzalanması münasibətilə təbrik edirəm. Bu, çox vacib bir sənəddir”.

Vaşinqtonda həm ABŞ, həm də Azərbaycan prezidentləri bir neçə dəfə xatırlatdılar ki, Ermənistan və Azərbaycan 35 ildən artıq müharibə şəraitində olub. Bu münaqişə uzun illər ərzində insanlara əziyyət və məhrumiyyət gətirmişdir. Cənab Tramp daha konkret olaraq söylədi ki, bir çox ölkələr, həmçinin Avropa İttifaqı, Rusiya bu münaqişənin həlli üzərində gərgin çalışıb, lakin buna nail ola bilməyib: “Ayaq üstə yuxulayan Co Bayden də bu məsələ ilə məşğul olmağa çalışıb, ancaq nəticəsi necə olub, bəllidir. O, yəqin ki, bu işə 12 dəqiqə vaxt sərf edib”.

Bəli, Vaşinqtonda imzalanan üçtərəfli sənədlə bizim regionda sülhün bərpası mümkün olacaq. Ancaq daha xoş xəbərlərdən biri də odur ki, Vaşinqtonda imzalanan digər sənədlə qalib Azərbaycan dövlətinin beş ilə yaxın müddətdə nail olmağa çalışdığı Zəngəzur dəhlizinin (indi ona Tramp yolu, Tramp körpüsü, Tramp marşrutu kimi müxtəlif adlar verilərək bu mühüm layihənin memarının adı Cənubi Qafqazda əbədiləşdirilir) taleyi də birmənalı olaraq həll edildi. ABŞ Prezidenti xüsusi olaraq qeyd etdi ki, mənim üçün böyük şərəf doğuran məqam bu bəyanatda TRIPP, yəni, “Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu”nun öz əksini tapmasıdır: “Bu xüsusi tranzit ərazi vasitəsilə Azərbaycan Ermənistanın suverenliyinə qəti şəkildə hörmət çərçivəsində özünün Naxçıvan bölgəsinə tam çıxış əldə edəcək. Yəni, bunun nəticəsində hər iki tərəf üçün xüsusi əhəmiyyət daşıyan bu ərazidə birgə əməkdaşlıq mümkün olacaq”.

Kütləvi informasiya vasitələri bu xəbərləri yayan kimi qardaş Türkiyədən əks-sədalar gəldi: “Cənab Rəcəb Tayyib Ərdoğanın reallaşdırmağa çalışdığı Turan layihəsinə ABŞ Prezidentindən mükəmməl hədiyyə!”. Türk mətbuatı yazdı ki, Ankaradan və ya İstanbuldan yola düşən dəmir yolu qatarları Naxçıvandan və Zəngəzurdan keçərək dəniz üzərindən Türkistana gedəcəklər”.

Bu məsələlərə Azərbaycan Prezidentinin münasibətinə gəlincə isə dövlət başçımız öncə Azərbaycan – ABŞ tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin indiki vəziyyəti barədə danışmağa üstünlük verdi: “Bu gün biz Azərbaycan ilə ABŞ arasında ikitərəfli, dövlətlərarası münasibətlərimizdə yeni tarix yazırıq. Biz strateji tərəfdaşlıq yoluna qədəm qoyuruq və bir neçə ay ərzində Strateji Tərəfdaşlıq Xartiyası işlənib hazırlanacaq. Bu isə Azərbaycan üçün tarixi nailiyyətdir. Çünki dünyanın ən qüdrətli ölkəsi ilə strateji tərəfdaşlıq münasibətlərinə malik olmaq həm fürsətdir, həm də məsuliyyət. Bu strateji tərəfdaşlıq formatı bir çox vacib sahələri əhatə edir – qarşılıqlı sərmayə, ticarət, enerji, bağlılıq, tranzit, süni intellekt, müdafiə sahəsində kontraktlar və terrorizmlə mübarizə. Bugünədək bu sahələrdə əməkdaşlığımız olub və ümid edirəm ki, gələcəkdə də fəal əməkdaşlığımız olacaqdır”.

Dövlət başçımız xüsusi olaraq vurğuladı ki, “Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu” yeni bağlantı əlaqələri yaradacaq, sədləri aradan qaldıracaq və sərmayələr, firavanlıq, sabitlik sayəsində çoxsaylı ölkələr üçün bağlantı imkanları yaradacaq: “Prezident Tramp Qafqaza sülh gətirir və biz buna görə ona minnətdarıq. Əminəm ki, Ermənistan ilə Azərbaycan sülhün əldə olunması üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlarımız da barışacaqlar. Biz qarşıdurma və qan tökülməsi səhifəsini çevirəcəyik, uşaqlarımız üçün işıqlı və təhlükəsiz gələcək təmin edəcəyik. Mən çox şadam ki, biz bu gün yeni, gözəl tarix yazırıq”!

Liderlərin Vaşinqton görüşü, aparılan müzakirələr və imzalanan sənədlər barədə danışarkən Ermənistanın indiki dövlət başçısının qətiyyətini də unutmaq olmaz. Çünki o, ağzındakı qanı qurumağa qoymayan – yəni daim terror və təxribatla məşğul olan “Daşnaksütyun”la da mübarizədədir, qarğa – quzğundan heç nə ilə fərqlənməyən keşişlərlə də, Xocalı soyqırımı başda olmaqla çoxsaylı vəhşiliklərə imza atmış Robert Koçaryan–Serj Sarkisyan tandemi, “Artsax” separatçıları ilə də, Fransa başda olmaqla bütün Avropaya səpələnmiş diaspor qurumları ilə də, lap elə ABŞ-da fəaliyyət göstərən Amerika Erməniləri Milli Komitəsi ilə də. Yəni, ona bir çox tərəfdən təzyiq göstərilsə də, çoxunun bəyənmədiyi Nikol Paşinyan xalqının və “real Ermənistan” dövlətinin sabahı naminə rəsmi Bakının və Vaşinqtonun təklifləri ilə razılaşaraq erməni tarixinə düşməyi bacardı.

Sonda xatırladaq ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan avqustun 11-də Ankarada hökumətin iclasının yekunlarına dair brifinqdə dedi ki, Azərbaycan torpaqlarının uzunmüddətli erməni işğalından azad edilməsi ilə regionun inkişafında yeni mərhələ başlayıb. O, Azərbaycanla bağlı məhdudiyyətlərin aradan qaldırılmasını da alqışlayıb: “Türkiyə tərəfinin məmnunluğunu qardaşım, Azərbaycan Prezidenti İlham Əliyevə çatdırdım. Türkiyənin hər zaman Azərbaycanın yanında olacağını vurğuladım”. Dövlət başçısı Ermənistan Baş naziri Nikol Paşinyanla söhbətində də bu mövzunu müzakirə etdiyini bildirib.

Türkiyə liderinin fikrincə, regionda sülh mühitinin formalaşması ilə avtomobil və dəmir yolu əlaqələri bərpa olunacaq, sərhəd-keçid məntəqələri açılacaq, azad ticarətə maneələr aradan qaldırılacaq ki, bu da bütün region dövlətlərinin maraqlarına cavab verir.

… Nəhayət, Prezident İlham Əliyev iki-üç il əvvəl “Biz İrəvana, Göyçəyə, Zəngəzura da gedəcəyik” – deyəndə Emmanuel Makron başda olmaqla çoxsaylı bədxahlarımız vay-şivən qaldırırdılar ki, İlham Əliyev Ermənistanı təhdid edir. O zaman dövlət başçımız həmin qaragüruhçulara cavab vermişdi ki, biz Zəngəzura tankla, topla yox, qatarla, avtomobillə gedəcəyik!

Buyurun, bu da sizə qatarla, avtobusla gedəcəyimiz Zəngəzur dəhlizi – Tramp yolu!

***İttifaq MİRZƏBƏYLİ***

**Mən heç bir iş görməmiş, lakin mükafat almış şəxslərlə bağlı Nobel Sülh Mükafatının çox müəmmalı qərarlarının tarixinə varmaq istəməzdim. Lakin Prezident Tramp altı ay ərzində möcüzə yaratdı. Bir sözlə, düşünürəm ki, erməni həmkarım da dəstəkləyəcək. Auditoriyanın reaksiyasından hesab edirəm ki, biz qayıdan kimi birgə məktubun hazırlanması üzərində razılığa gələcəyik. Ümid edirəm ki, mən, həmçinin Prezidentin mükafatlandırma mərasiminə qoşulacağam.**

**Azərbaycan Prezidenti İlham Əliyevin Ağ Evdə mətbuata verdiyi bəyanatdan**
**Vaşinqton, 8 avqust 2025-ci il.**

# Zəmanəmizin ən uzun münaqişəsi sona yetir

**Prezident İlham Əliyevin müdrik rəhbərliyi, böyük uzaqgörənliyi, səbir və əzmi ilə ölkəmiz bir-birinin ardınca tarixi uğurlar əldə edir. Dövlətimizin başçısının avqustun 8-də ABŞ-a səfərinin nəticələri də Vətən müharibəsində qazandığımız şanlı Zəfərin məntiqi davamı kimi xüsusi diqqət çəkir.**

Bu səfər ABŞ-la tarixən mövcud olan münasibətləri ən yüksək səviyyəyə qaldırdı, ölkəmizin rəhbərinin təşəbbüsü ilə Ermənistanla aparılan sülh danışıqlarının uğurla yekunlaşacağının qarantı oldu. Dünya ictimaiyyəti, Azərbaycanın uğurlarına sevinən dost və qardaş ölkələrin rəhbərləri bu səfərdə əldə edilən nəticələri Qafqazda sülhün bərqərar olması və yeni dünya nizamı prosesində önəmli addımlardan biri kimi dəyərləndirdilər. Dövlətimizin başçısının müdrik siyasəti və qətiyyəti ilə Zəngəzur dəhlizi (Tramp yolu) layihəsi dünyanın ən böyük gücünün – ABŞ-ın xoş məramı ilə reallığa çevrildi. Bu marşrut təkcə Azərbaycanı Naxçıvanla deyil, bütün Türk dünyasını bir-biri ilə bağlayacaq Qərbi Şərqə qovuşduracaq.

Qeyd edim ki, səfər çərçivəsində Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsini şərtləndirən Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə İşçi Qrupunun yaradılması haqqında iki ölkə hökuməti arasında Anlaşma Memorandumu imzalandı. Eyni zamanda, Azərbaycan və Ermənistan liderlərinin ABŞ-a səfəri çərçivəsində imzaladıqları sülh sazişinin paraflanması barədə Birgə Bəyannamə regionun gələcək təhlükəsizlik və əməkdaşlıq arxitekturasını müəyyənləşdirdi.

Birgə Bəyannamə Cənubi Qafqazda onilliklərdən bəri davam edən gərginlik dövrünün başa çatması istiqamətində ən ciddi siyasi addımlardan biri kimi diqqət çəkir. Bəyannamə həm diplomatik mətn, həm də siyasi mesaj olaraq tərəflərin uzunmüddətli sülh və əməkdaşlıq iradəsini təsdiq edir. Bu sənədin imzalanması Azərbaycan və Ermənistanın müstəqillik tarixində əldə edilən nadir diplomatik uğurdur. Onun məzmununda yalnız hərbi – siyasi məsələlər deyil, həm də iqtisadi inteqrasiya, kommunikasiya xətləri, sərhədin qarşılıqlı tanınması və humanitar əməkdaşlıqla bağlı müddəalar diqqət çəkir. Bu isə Birgə Bəyannamənin sülh razılaşmasından daha geniş bir siyasi yol xəritəsi olduğunu göstərir.

Qeyd edim ki, Bəyannamədə tərəflərin uzunmüddətli sülh və əməkdaşlıq iradəsi təsdiqlənib, müddəalar gələcəyə yönəlib, qarşılıqlı suverenlik və ərazi bütövlüyünün tanınması açıq şəkildə bəyan edilib. Sənədin siyasi mesajı isə regiondan kənar güclərə ünvanlanıb. Burada Cənubi Qafqaz ölkələrinin öz gələcəklərinə dair qərarları müstəqil şəkildə qəbul edə bilməsi və üçüncü tərəflərin təsirini minimuma endirmək niyyəti də açıq şəkildə ifadə olunub.

Sülh prosesi təkcə iki ölkə arasında münasibətlərin normallaşmasını deyil, eyni zamanda, regionun beynəlxalq iqtisadi sistemə daha səmərəli inteqrasiyasını sürətləndirəcək. Bu baxımdan Birgə Bəyannamə Avropa İttifaqı, Rusiya, Türkiyə, İran və digər maraqlı tərəflər üçün də yeni əməkdaşlıq platforması formalaşdıracaq.

Sənəddə nəzərdə tutulan iqtisadi əməkdaşlıq tədbirləri arasında sərhəd bölgələrində birgə sənaye zonalarının yaradılması, logistika mərkəzlərinin təşkili, kənd təsərrüfatı məhsullarının qarşılıqlı ticarəti və enerji layihələrində tərəfdaşlıq da var. Bu addımlar Ermənistanın bərbad vəziyyətə düşmüş iqtisadiyyatı üçün yeni nəfəs olacaq. Azərbaycan isə tranzit və ixrac imkanlarını daha da genişləndirərək regional iqtisadi lider mövqeyini möhkəmləndirəcək. ABŞ-ın vasitəçilik rolu isə investorların inamını daha da artıracaq, riskləri azaldacaq və uzunmüddətli maliyyə axınını gerçəkləşdirəcək.



Ümumiyyətlə, Azərbaycan və Ermənistan liderlərinin ABŞ-da imzaladıqları Birgə Bəyannamə Cənubi Qafqazın gələcəyini dəyişəcək strateji bir sənəddir. Bəyannamənin prinsipləri regionda uzun illər davam edən gərginlik dövrünü başa çatdırmaqla yanaşı, iqtisadi inkişaf, siyasi sabitlik və humanitar əməkdaşlıq üçün geniş perspektivlər açır. Tarix göstərir ki, sülh yalnız imzalanmış sənədlərlə deyil, onların icrası ilə gerçəyə çevrilir. Bu baxımdan qarşıdakı illərdə atılacaq addımlar Cənubi Qafqazın dinc sabahını müəyyənləşdirəcək. Ermənistanın verdiyi vədlərə sadiq qalması ilə razılaşmalar təkcə iki ölkə arasında deyil, bütün regionda sabitliyin və sülhün yaranması ilə nəticələnəcək.

Cənubi Qafqaz Avropa ilə Asiya arasında strateji yerləşməsi, enerji resursları və nəqliyyat dəhlizləri ilə qlobal iqtisadiyyat üçün əhəmiyyətli bir məkandır. Münaqişələrin sona çatması, Tramp yolu və digər kommunikasiya xətlərinin açılması həm Azərbaycan, həm Ermənistan, həm də qonşu ölkələrə yeni imkanlar yaratmaq nəzərdə tutulur. Başqa sözlə, “Tramp Rifah və Sülh Marşrutu”nun açılması və dövlətlərin suverenliyinə hörmət prinsipi əsasında maneəsiz əlaqələrin qurulması xüsusi əhəmiyyət daşıyacaq. Azərbaycan üçün bu, Naxçıvanla quru yolunun bərpası, Ermənistan üçün isə beynəlxalq ticarət marşrutlarına çıxış imkanının genişlənməsi deməkdir. Beləliklə, adıçəkilən dəhlizin açılması təkcə siyasi hədəf deyil, həm də iqtisadi – logistik önəm daşıyan məsələdir. ABŞ-ın burada tərəfdaş və investisiya mərkəzi kimi rolu isə layihəyə geosiyasi dəyər gətirir.

Sonda önəmli bir məqamı da xatırlatmağı zəruri bilirəm. Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton səfərində ABŞ Prezidenti Tramp sülhü prioritet istiqamət kimi dəyərləndirərək tarixi razılaşmalara nail oldu. Ümumiyyətlə, son zamanlar gerçəkləşən sülh razılaşmaları Donald Trampın bəşəri xidmətləridir.

***Vaqif ŞADLİNSKİ,***
***Azərbaycan Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü, Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri, Əməkdar elm xadimi, professor***

# Estoniya nəşri də Vaşinqton görüşlərindən yazdı

**Estoniyanın “Business-M” biznes və informasiya portalında Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə ABŞ-a işgüzar səfərinin yekunlarına həsr olunmuş “Azərbaycan və ABŞ: Strateji tərəfdaşlığın yeni mərhələsi” sərlövhəli məqalə dərc olunub.**

Məşhur onlayn nəşrin materialında Prezident Donald Tramp ilə səfər çərçivəsində keçirilmiş görüşlər, “Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın hazırlanması məqsədilə Strateji İşçi Qrupun yaradılmasına dair Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında imzalanmış Anlaşma Memorandumu” barədə geniş məlumat təqdim olunub.

Nəşr qeyd edir ki, Strateji İşçi Qrupunun yaradılması ikitərəfli praktiki əməkdaşlığın institusional bazasının yaradılması üçün xüsusi əhəmiyyət kəsb edir.

***XQ***

# Təzyiq siyasətindən həqiqət diplomatiyasına keçid

(əvvəli 1-ci səhifədə)

Vaşinqtonda baş verən parafianma prosesi, əslində, yalnız diplomatik prosedur deyil, bölgənin strateji arxitekturasında yeni mərhələnin başlanğıcıdır. Burada üç istiqamət – ABŞ-ın dəyişən yanaşmasının, Azərbaycanın ardıcıl və prinsipal siyasətinin, Ermənistan rəhbərliyinin isə öz siyasi mövqeyini qorumaq üçün atdığı addımların – eyni nöqtədə toqquşması müşahidə olunur. Bu, təsadüfi bir kəsişmə deyil; hər bir aktorun uzunmüddətli strategiyası, mövcud geosiyasi vəziyyətin doğurduğu zərurətlər və qarşılıqlı ehtiyaclar bu prosesi qaçılmaz edib.

Vaşinqton faktoru ilə başlasaq, ABŞ-ın Cənubi Qafqaz siyasətində uzun müddət dominant olan normativ təzyiq yanaşmasının – yəni tərəfləri "məcburi güzəşt" formatına çəkən preskriptiv diplomatiyanın (təlimat verən) – artıq effektiv olmadığını anladığını görürük. 2020-ci ildən sonrakı reallıq, xüsusilə Azərbaycanın 44 günlük müharibədən sonra əldə etdiyi strateji üstünlük Qərbin istədiyi nəticələri klassik vasitələrlə almaq imkanlarını məhdudlaşdırdı. Beləliklə, Vaşinqton üçün "faktlarla işləyən vasitəçilik" – yəni mövcud güc balansını nəzərə alan, tərəflərin real qırmızı xətlərini qəbul edən və prosesə siyasi zəmanət gətirən model – daha rasional seçimə çevrildi. ABŞ bu dəfə prosesə "hakim" kimi deyil, "fasilitator" (vasitəçi) kimi daxil oldu, bu da həm onun reputasiyasına, həm də nəticə əldə etmə ehtimalına müsbət təsir göstərdi.





Azərbaycan faktoru isə tamamilə başqa bir məntiq üzərində qurulub. Prezident İlham Əliyevin 2020-dən bəri yürütdüyü "şərtli realizm" xətti – yəni sülhün yalnız Azərbaycanın suverenlik prinsiplərinə, sərhədlərinin tanınmasına və Ermənistanın konstitusiyasındakı ərazi iddialarının ləğvinə əsaslanacağı yanaşması – Vaşinqton parafianmasının hüquqi və siyasi nüvəsini təşkil etdi. Rəsmi Bakının mövqeyi heç vaxt dəyişmədi, nə beynəlxalq təzyiqlər, nə də media kampaniyaları ondan güzəşt qopara bilmədi. Məhz bu prinsipiallıq prosesin uğurla nəticələnməsinin əsas sütunu oldu və Vaşinqtonun da qəbul etdiyi reallıq məhz bundan ibarət idi.

İrəvan faktoru isə daha mürəkkəbdir. Paşinyan üçün bu parafianma, sadəcə, sülh prosesində irəliləyiş deyil, həm də kənar təzyiqlərə qarşı qalxan funksiyasını daşıyır. Ermənistanın daxilində radikal müxalifət, xaricdə isə xüsusən Moskvanın təzyiqləri Paşinyanın manevr imkanlarını məhdudlaşdırırdı. Vaşinqtonun prosesi öz siyasi "çətiri" altına alması Paşinyana daxili auditoriya qarşısında belə izah imkanı yaradır: "Biz təkbaşına deyil, beynəlxalq öhdəliklər çərçivəsində dəyişiklik edirik". Bunlar həm də ona Kremlin birbaşa təsirini neytrallaşdırmaq, Qarabağ və Zəngəzur məsələlərində Rusiya vasitəçiliyindən asılılığı minimuma endirmək fürsəti verir.

Sual yaranır: Niyə məhz indi və niyə Vaşinqton? Cavab çoxqatlıdır. Birincisi, 2020-ci ildən sonrakı hərbi-siyasi reallıq artıq dəyişməz fakt kimi beynəlxalq arenada qəbul olunur. İkincisi, enerji və nəqliyyat dəhlizlərinin şaxələndirilməsi, xüsusən Orta Dəhliz layihəsi Qərb üçün Cənubi Qafqazı strateji prioritetə çevirib. Üçüncüsü, ABŞ və Qərb Rusiya təsirini məhdudlaşdırmaq üçün Ermənistana siyasi dəstək verərək onu öz orbitinə yaxınlaşdırmaq istəyir. Bütün bunların fonunda Vaşinqtonda parafianma həm Azərbaycanın prinsipial mövqeyinin qəbul edilməsi, həm də Ermənistanın geosiyasi istiqamətdə mühüm dönüş nöqtəsi oldu.

Beləliklə, 8 avqust görüşü bölgədə oyun qaydalarının dəyişməsinin rəsmi təsdiqi idi. ABŞ üçün bu, reallıqla uzlaşma; Azərbaycan üçün prinsipial mövqeyin beynəlxalq legitimləşdirilməsi; Ermənistan üçün isə daxili və xarici təzyiqlərdən müəyyən dərəcədə qorunma deməkdir. Prosesin uğuru həm də tərəflərin bundan sonrakı addımlarında həmin reallığa və öhdəliklərə sadiq qalmasından asılı olacaq.

Ermənistan üçün bu prosesin ən mühüm dividendlərindən biri, şübhəsiz ki, kənar təzyiqlərin, xüsusilə də Moskvanın siyasi və strateji basqısının zəifləməsidir. İllərdir Ermənistanın xarici siyasət vektoru böyük ölçüdə Rusiyaya bağlı olub. Hərbi təhlükəsizlikdən tutmuş enerji infrastrukturuna, hətta informasiya mühitinə qədər bir çox sahədə Moskva təsiri hökm sürürdü. 2020-ci ildən sonra, xüsusən 2023-cü ilin payızında Qarabağda Azərbaycanın suverenliyini bərpa etməsindən sonra, bu təsir daha çox siyasi şantaj və daxili sabitliyi sarsıtmaq cəhdlərinə çevrildi. Paşinyan üçün belə bir şəraitdə Qərbin, xüsusilə ABŞ-ın siyasi zəmanətini qazanmaq həm daxildəki siyasi rəqiblərə, həm də Rusiya təsirinə qarşı mühüm balans aləti idi.

İkinci dividend Ermənistanın regional nəqliyyat və iqtisadi layihələrdə mövqeyinin potensial olaraq yenidən formalaşdırılması ilə bağlıdır. Zəngəzur dəhlizi və Qarabağ məsələsində Rusiya vasitəçiliyindən uzaqlaşmaq İrəvana iki üstünlük verir: birincisi, danışıqların Vaşinqton formatına daşınması ilə Kremlin təsir imkanları məhdudlaşır; ikincisi, Ermənistan öz iqtisadi tranzit mövqeyini daha çox Qərb və beynəlxalq maliyyə institutlarının dəstəyi ilə formalaşdırmaq şansı qazanır. Məhz bu amil də uzunmüddətli perspektivdə Ermənistanın iqtisadi asılılıq balansını dəyişdirə bilər.

Üçüncü dividend isə daxili siyasi menecmentlə bağlıdır. Paşinyan parafianmanı daxildə "təkbaşına edilən güzəşt" kimi deyil, beynəlxalq zəmanət çərçivəsində atılan strateji addım kimi təqdim edə bilir. Bu da ona siyasi məsuliyyəti bölüşdürmək və müxalifətin "xəyanət" arqumentini zəiflətmək imkanı verir. Əslində, bu, Ermənistan siyasətində ilk dəfə olaraq liderin xarici formatı daxili siyasi toxunulmazlıq üçün istifadə etməsidir.

Sual yaranır: Bütün bunlar Paşinyanın mövqeyini möhkəmləndirsə də, Ermənistan üçün real təhlükəsizlik təminatı yaradırmı? Cavab odur ki, qısamüddətli perspektivdə bu, müəyyən təhlükəsizlik tamponu yarada bilər. Lakin uzunmüddətli təhlükəsizlik yalnız regional qonşularla, xüsusən də Azərbaycanla davamlı sülhün qurulması və iqtisadi inteqrasiyanın inkişafı ilə mümkün olacaq. ABŞ və Qərb siyasi zəmanət verə bilər, amma real təhlükəsizlik bölgənin özündə formalaşmalıdır.

8 avqust parafianması Azərbaycan üçün yalnız diplomatik qələbə deyil, həm də uzunmüddətli strateji üstünlüyün təsdiqi idi. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın siyasəti illərdir ardıcıl və prinsipial şəkildə formalaşır: suverenlik və ərazi bütövlüyü kompromisə getməz, sülh yalnız bu şərtlər əsasında mümkündür. Vaşinqton formatında sənədin parafianması bu xəttin beynəlxalq səviyyədə legitimləşdirilməsi deməkdir. Artıq Azərbaycan yalnız faktiki gücünü deyil, həm də hüquqi və diplomatik üstünlüyünü bütün regional və qlobal aktorlar qarşısında təsdiqləyib.

Region üçün bu parafianmanın ən mühüm nəticəsi güc balansının dəyişməsidir. Azərbaycanın hərbi, iqtisadi və diplomatik üstünlükləri ilə Paşinyanın Qərb zəmanətini birləşdirən bu mexanizm Rusiya və digər xarici aktorların regiondakı təsir imkanlarını məhdudlaşdırır. Artıq Qarabağ və Zəngəzur məsələləri Azərbaycanın suverenliyinə uyğun şəkildə həll olunur, bununla da uzunmüddətli sabitliyin hüquqi bazası möhkəmlənir.

Bəs bu qələbə yalnız Azərbaycanın üstünlüyü deməkdirmi, yoxsa regional sabitlik üçün də imkan yaradır? Cavab odur ki, həm Azərbaycanın maraqları təmin olunur, həm də sülh üçün institusional zəmin yaradılır. Sülh yalnız hüquqi, siyasi və geosiyasi reallıqlara əsaslanmalıdır.

Eyni zamanda, bu parafianma Azərbaycanın diplomatik qətiyyətinin və strateji uzaqgörənliyinin nümayişidir. Beynəlxalq təzyiqlər, media kampaniyaları və müxtəlif sanksiya hədələri nəticəsiz qaldı. Prezident İlham Əliyev bir addım belə geri çəkilmədi və nəticədə Vaşinqtonda əldə olunan razılaşma Azərbaycanın prinsipial mövqeyini təsdiqləyən diplomatik uğura çevrildi.

Beləliklə, 8 avqust parafianması oyun qaydalarının dəyişməsini, Azərbaycanın regional lider mövqeyini və bölgədə sülhün hüquqi, siyasi və strateji zəminini möhkəmləndirən bir hadisə kimi qiymətləndirilə bilər. Paşinyan üçün bu, siyasi qorunma və strateji manevr imkanları deməkdirsə, Azərbaycan üçün prinsipial və diplomatik qələbə, region üçün isə uzunmüddətli sabitliyin başlanğıcıdır. Siyasət reallıqları artıq yeni mərhələyə keçib: oyun qaydaları dəyişdi və bütün aktorlar buna uyğun hərəkət etməyə məcburdur.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# "ABŞ platforması"ndan imtina Ermənistana fəlakət gətirər



*Müşfiq ƏLƏSGƏRLİ,*
*XQ-nin media eksperti*

(əvvəli 1-ci səhifədə)

Bu mərkəzlər iki ölkə arasında sülh sazişinin parafianmasına, ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Birgə Bəyannamənin imzalanmasına, məxsusi olaraq "Beynəlxalq sülh və rifah naminə Tramp marşrutu!" adı altında "Zəngəzur dəhlizi"nin açılmasına qarşıdırlar. Onlar Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsini, kommunikasiyaların bərpasını, nəqliyyat dəhlizlərinin açılmasını özlərinin Cənubi Qafqazda təsir rıçaqlarının itirilməsi kimi dəyərləndirir, həm dolayısı ilə, həm də birbaşa mesajlar verərək kommunikasiya xətləri üzrə razılaşmanın əleyhinə çıxırlar. Bu azmış kimi, Azərbaycanı və Ermənistanı təhdid edərək geri addım atmalarına nail olmaq istəyirlər.

Təhdid ruhlu mesajlar İranın və Rusiyanın fərqli strukturları tərəfindən son üç gün ərzində daha intensiv şəkildə verilir. Məsələn, Rusiya Dövlət Dumasının deputatı Andrey Qurulev Azərbaycan mallarının Rusiyaya idxalına qadağa qoyulması üçün çağırış edib. Yaxud, görüş ərəfəsində Rusiya hərbi qüvvələri tərəfindən Ukraynada SOCAR-a məxsus neft anbarı vurulub. Buna bənzər çoxlu sayda nümunələr göstərir ki, Rusiya Vaşinqton görüşünün tam əleyhinədir, onu həzm edə bilmir.

İran İslam Respublikası da eyni tərzdə davranır. Ölkənin ali liderinin beynəlxalq məsələlər üzrə baş müşaviri Əli Əkbər Vilayəti bəyanatla çıxış edərək bildirib ki, Tehran bütün gücünü və imkanlarını səfərbər edərək, Zəngəzur dəhlizinin (Tramp yolu – TRIPP) açılmasına mane olacaq. Yəni, Vaşinqton görüşünün nəticələrinin ləğv edilməsinə çalışacaq. Vilayəti bu təxribatçı əməli Rusiya ilə razılaşdırılmış halda, birgə icra edəcəklərini vurğulayıb.

## Vaşinqton görüşü Cənubi Qafqazdakı yüz illik streotipləri dağıdır

Qlobal təhlil mərkəzləri qeyd edirlər ki, İran və Rusiyanın Vaşinqton görüşünün nəticələrindən narahatlıq keçirmələrinin ciddi səbəbləri var. Bu baxımdan onlar Vaşinqton görüşünü əlavə fenomen kimi deyil, ümumilikdə, Cənubi Qafqazda cərəyan edən son proseslər fonunda dəyərləndirirlər. Qeyd edirlər ki, 2020-ci il Vətən müharibəsindən sonra Cənubi Qafqaz regionunda yeni reallıqlar yaranıb. Azərbaycan müharibədə qalib gələrək ərazi bütövlüyünü və suverenliyini təmin etdikdən sonra region üzərindən gerçəkləşdirilməsi nəzərdə tutulan hiper layihələr irəli sürüb. Azərbaycanın təşəbbüsü ilə aktuallaşan bu layihələr ölkə sərhədlərini aşır, regional və qlobal xarakter daşıyır. Bu kontekstdə xüsusilə nəqliyyat dəhlizləri, enerji təhlükəsizliyi ilə bağlı layihələr qabardılır. Ermənistanla sülh müqaviləsinin yubanması isə diqqəti hiper layihələrdən yayındırır. Regional və qlobal layihələr deyil, "sülh müqaviləsinin imzalanması" regionun əsas hədəfi kimi saxlanılır. "ABŞ platforması" çərçivəsində sülh prosesinin sürətlənməsi bu bölgə üzərində qurulan regional və qlobal layihələr üçün əlavə dinamika gətirdi.



ABŞ tərəfinin bu məsələyə xüsusi diqqət ayırması Cənubi Qafqazda sabitlik mövzusunun qlobal təhlükəsizlik üçün də mühüm əhəmiyyət daşıdığını göstərdi. Nəsələni bu müstəvidə təqdim edə bilməsi Azərbaycan diplomatiyasının ciddi uğuru kimi şərh olundu. Belə yanaşma həm Ermənistan–Azərbaycan problemini aradan qaldırır, həm də ölkəmizin regional və qlobal proseslərdə iştirakını şərtləndirir.

Vaşinqton görüşünün nəticələri Cənubi Qafqazı "ənənəvi oyunçuların" – "şimal" və "cənub"un nəzarətindən çıxarır, regionu yüz illər ərzində təsir dairəsində saxlayan, inkişafdan geri salan mərkəzlərin təzyiqindən xilas edir. Onların əvəzinə Azərbaycan regionun lideri, söz sahibi kimi mövqeyini gücləndirir. 7-8 avqust görüşlərinin nəticələri bir daha sübut etdi ki, Azərbaycan özünün balanslı və praqmatik xarici siyasət kursu ilə həm qonşu dövlətlərlə, həm də dünya gücləri ilə bərabərhüquqlu əməkdaşlıq qura bilər. Belə davranışı ilə bütün regionun taleyinə sahib çıxır. Bu yeni situasiya Rusiya və İranı qıcıqlandırır.

## İran və Rusiyanın təxribatları hansı nəticələr doğura bilər?

2020-ci ildə və ondan sonra baş verən hadisələr sübut etdi ki, Azərbaycanı heç bir təhdidlə yolundan döndərmək, geri çəkilməyə məcbur etmək mümkün deyil. Azərbaycan özünün bacarıqlı diplomatiyası, praqmatik xarici siyasət kursu və güclü ordusu ilə istənilən təhdidləri dəf etmək iqtidarındadır, milli maraqlarını qorumaq üçün yetərli potensiala malikdir. Amma biz eyni ifadələri Ermənistan barədə işlədə bilmirik. Müşahidə olunan hal budur ki, Ermənistanın hər hansı bir təhdiddən qorunmaq taktikası "bir güc mərkəzindən ayrılıb digər güc mərkəzinə sığınmaq" metoduna əsaslanır. Ölkənin xarici siyasət kursu "himayəçi dövlətin" siyasi konyukturasına görə dəyişir. Bu baxımdan, Ermənistanın indiki təhdidlər qarşısında nə qədər dözə biləcəyi, razılaşmalara nə dərəcədə sadiq qalacağı həssaslıqla izlənilir.

Ermənistanın mövcud hakimiyyəti üçün digər bir təhdid diaspor qurumlarından və daxili müxalifətdən qaynaqlanır. Onlar Ermənistan konstitusiyasının dəyişdirilməsi tələbinin sülh sazişinin şərti kimi gündəmə gətirilməsindən narazıdırlar. Vaşinqton Bəyannaməsi yekun sülh sazişinin imzalanması üçün Ermənistan konstitusiyasının dəyişdirilməsini tələb etməyə zəmin yaradır. Bəyannamədə qeyd edilir ki, "biz Sazişin imzalanmasına və yekun olaraq ratifikasiyası üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olduğunu qəbul edirik". Bu bənd konstitusiyanı dəyişmək üçün Ermənistanın üzərinə öhdəliklər qoyur. Daxili müxalifət və diaspor qurumları isə bu fakta istinad edərək hərəkətlənir, Nikol Paşinyan hakimiyyətini təhdid edirlər.

Ermənistan hakimiyyəti mövcud təhdidlər qarşısında boyun əyib yekun sülh sazişini imzalamaqdan yayınacaqmı? Yoxsa, özündə güc tapıb prosesi davam etdirəcək? Təhlillər göstərir ki, prosesi yubatmaq, yekun sülh sazişinin imzalanmasını gecikdirmək, yaxud Vaşinqtonda üzərinə götürdüyü öhdəliklərdən yayınmaq Ermənistan hakimiyyəti üçün ağır nəticələr vəd edir. Azərbaycanla uzun müddətli münaqişə vəziyyətində olması Ermənistanı bütün beynəlxalq layihələrdən təcrid edib, iqtisadiyyatını tükədib, hərbi potensialını məhv edib. Əhali sayı son 30 il müddətində 20 faizə qədər azalmış Ermənistanın bundan sonra da münaqişə vəziyyətində qalması onun insan resurslarının tamamilə tükənməsinə yol aça bilər. Əlavə olaraq, bu ölkənin sülh sazişindən yayınması ABŞ-a, şəxsən Prezident Trampa qarşı hörmətsizlik olar ki, bu da ağır nəticələr doğura bilər. Bütün bunlar onu deməyə əsas yaradır ki, Ermənistan yekun sülh sazişi imzalamaq üçün nə qədər tez addımlar atsa, bir o qədər xeyrinə olacaq.

# Tarixi dəyişən sülh konsepsiyası Azərbaycanın dövlət siyasəti kimi



**III MƏQALƏ**

## Sülh kurs və məqsəd kimi

Azərbaycan təcrübəsi göstərdi ki, dövlət üçün sülh kurs (konsepsiya, fəaliyyət proqramı) və bəyan edilmiş məqsəd aspektlərində bir-birindən fərqlənirlər. Dövlət sülhü özünün konseptual fəaliyyət predmeti kimi bəyan edə bilər. Bu zaman sözdə onun başlıca məqsədinin sülh olduğu təəssüratı yaranar. Bəs Azərbaycana qarşı olan təcrübədə nə gördük: Ermənistan bir müddət ortaya belə bir ideya atdı ki, Azərbaycanı sülhə məcbur etmək lazımdır.

Bu termini ruslardan götürmüşdülər. 2008-ci ildə Rusiya Gürcüstanın iki bölgəsini nəzarətə götürəndən sonra, hayların "baş analitikləri" eyni məcburiyyət üsulunu Azərbaycana da tətbiq etməyin "elmi və politoloji əsaslarını" qondarmağa başladılar. Niyə ermənilərin bu addımına istehza ilə yanaşırıq? Çünki "sülhə məcburetmə" sözdə universal ola bilər, lakin o gerçək vəziyyətə tam uyğun olanda konkret siyasi anlam alır. Başqa hallarda spekulyasiya, manipulyasiya, reallığı tərsinə təqdim etmə cəhdi və bu səbəbdən qlobal miqyasda qeyri-etik düşüncə tərzi və davranışdır!

Ermənilərin sülhə konseptual aspektdə qondarma yanaşması ilə praktiki müstəvidə "sülh əsas məqsəddir" devizləri arasındakı ziddiyyəti buradan aydın görmək olar. Deməli, konsepsiya kimi müxtəlif "sülh" qondara, praktikada əsas məqsədinin də sülh olduğunu bəyan edə bilərsən. Lakin bunların heç biri real sülhü təmin etmək məsələsi deyildir. Onlar şüurları manipulyasiya etmək üçün, spekulyativ tezislər ortaya atmaqla özünün haqsız mövqeyini haqlı göstərmək cəhdi, daha dərin və geniş anlamda isə tarixə, ədalətə, dünyaya, mədəniyyətə, sivil düşüncə tərzinə şər-böhtan atmaq deməkdir. Əgər bu kimi yalançı sülh konsepsiyaları və məqsədləri reallaşsa, bəşəriyyəti qaçılmaz ölüm gözləyir.

Bizcə, bu mövzuya aid II məqalənin sonunda ifadə etdiyimiz "biz ABŞ-ın prezidentini buna görə alqışlayırıq, lakin məsələnin mahiyyəti bunda deyil", fikrinin mənasını vurğuladığımız qısa müqayisədən anlamaq olar. Yəni real olaraq sülhə və ədalətə sadiq olan dövlət davamlı siyasi-diplomatik və praktiki fəaliyyəti ilə bunu hər an nümayiş etdirməlidir. Başqasının böyük zəhmət və ruhani, mənəvi, hərbi, liderlik fədakarlığının bəhrələrini mənimsəmək sülhsevərlik deyildir. Praqmatik düşüncədir və o, hər zaman dəyişə bilər! Yəni "mənə indi sərf etmir" "arqumenti" bu cür yanaşmada arxa plana atılmamışdır! Məncə, dövlət və cəmiyyət olaraq nəzərə almalıyıq!

Buradan Azərbaycan liderinin sülh konsepsiyasının əsl mənası və dünya üçün əhəmiyyəti üzərində düşünmək imkanı əldə etmək olur.

## Sülhsevərliyin yeni politoloji anlamı

Bu məqamı aydın dərk etmək üçün qısaca Azərbaycanın 1991-ci ildən başlayaraq düşdüyü geosiyasi vəziyyətə bir də nəzər salaq. Maraqlıdır ki, o dönəmdə Azərbaycanın qarşılaşdığı problemlərin böyük əksəriyyəti daxili reallıqlarla bağlı deyildi. Məsələ bir neçə əsr əvvəl başlamış geosiyasi xarakterli proseslə sıx əlaqədar idi. Böyük imperialist dairələr bütövlükdə türk-müsəlman dövlətçiliyini məhv etmək fonunda xüsusi olaraq Azərbaycan dövlətçiliyini aradan qaldırmaq planlarını addım-addım həyata keçirmişlər. Bunun nəticəsində Azərbaycan yalnız ərazicə parçalanmadı – onun mədəniyyəti, dövlətçilik ənənəsi qırıldı. XX əsrin ikinci onilliyinin sonlarından başlayaraq isə Azərbaycanın müstəqil dövləti olmadı. 70 illik sovet mərhələsində Azərbaycanı ərazicə kiçiltməklə yanaşı, müstəqil dövlətçiliyi haqqında tarixi xatirələri, olmuş ideyaları və siyasi gerçəklikləri belə xalqın yaddaşından silməyə çalışdılar. Bunu isə birbaşa erməni faktorunu dövlətçilik baxımından şişirtməklə etdilər.

Çox düşündürücdür: bu səviyyədə və miqyasda "dövlətçilik meydanında" saysız-hesabsız zülmlər, ədalətsizliklər, qərəzlər, hüquqsuzluqlar və əxlaqsız davranışlar görmüş bir millət müstəqil dövlət qurduğu halda, o hansı anlamda sülhsevər ola bilərdi? Deportasiya olunmuş, alçaldılmış, təhqir edilmiş milyonlarla azərbaycanlı müstəqil dövlət qurduqdan sonra sülh məsələsinə necə reaksiya verə bilərdi? İstənilən xalq (daha erməniləri və ona bənzər kiçik ruhlu yığınağı demirik) ilk olaraq "qisas", "intiqam", "bizə edilənlərin cavabı" deyərdi və bunu dövlət siyasəti səviyyəsinə yüksəldərdi. Ancaq bu seçim dövlətçiliyin işığında müdriklikmi olardı? Məhz burada seçim nöqtəsinin əsas sualı prizmasında Azərbaycan üçün sülhsevərlik məsələsi həyati mahiyyətli idi! Üç yol vardı.

Birincisi, qisas və intiqamı dövlətin identikliyinin mərkəzinə yerləşdirib, növbəti mərhələlərdə savaş, müharibə və ixtilaflar sahəsinə keçmək.

İkincisi, milli maraqlara uyğun ciddi sülh konsepsiyası hazırlayıb, özünü, yerləşdiyi regionu haqsızlıq, ədalətsizlik və müharibələrdən xilas edərək, dünyada sülhün bərqərar olmasına töhfə vermək.

Üçüncüsü, ümumiyyətlə, müstəqil dövlət olmaq iddiasından əl çəkib, son əsrlərdə olduğu kimi, hansısa dövlətin təsiri altında qalmaq.

Tarixi dövlətçilik ənənəsi baxımından bu variantlardan hansınısa seçmək ciddi problem idi. Burada Azərbaycan xalqının müdrikliyi ilə liderin siyasi müdrikliyinin vəhdəti özünü göstərməli idi. Azərbaycan ya tam müstəqillik yolunu, ya başı ixtilaflara qarışan dövlət yolunu, ya da yenidən hansısa ittifaqın tərkibində faciələrini yaşamaqda davam edən sözdə Respublika yolunu seçməli idi.

1991-ci il martın 7-də Ulu öndər Heydər Əliyev faktiki olaraq xalq müdrikliyini siyasi müdrikliyə çox uğurla proyeksiya edən siyasi xadim kimi Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında aşağıdakı fikirləri bəyan etdi: "...mən yeni İttifaqa nail olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Bu, bütün seçicilərimin, deputatı olduğum Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil fikridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. Azərbaycan xalqı artıq bu yola çıxmışdır. O öz tarixini yenidən təhlil edir, yenidən qiymətləndirir, öz milli ənənələrini bərpa edir, milli köklərinə qayıdır. Respublikada aşağıdan, xalq kütlələri tərəfindən başlanmış milli dirçəliş, dövlət dirçəlişi hərəkatı inkişaf edir."

Bu hadisədən iki il 3 ay sonra – 1993-cü il iyunun 15-də Azərbaycan Respublikasının Milli Məclisinin iclasında Heydər Əliyev öz mövqeyini yeni səviyyədə bir daha ifadə etdi. Həmin iclasda Ulu öndər demişdir: "Ömrümün bundan sonrakı hissəsini harda olursa-olsun, yalnız və yalnız Azarbaycan Respublikasının müstəqil dövlət kimi inkisaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir basqa dövlətin əsarəti altına düşməyəcək. Keçmiş Sovetlər ittifaqının bərpa olunması, Azərbaycan Respublikasının da ora daxil olması ehtimalı haqqında bəzi şayiələr, fikirlər gəzir. Bunlar xülyadır. Mən bu fikirləri rədd edirəm və bütün Azərbaycan vətəndaşlarını bu fikirləri rədd etməyə dəvət edirəm".

Deməli, Azərbaycan xalqının tarixi müdrikliyə dayanan sarsılmaz iradəsini əsas tutaraq Heydər Əliyev üçüncü variantı tamamilə istisna etmişdir. Qalırdı ilk iki variant. Onlardan biri konseptual əsasda sülhsevər güclü dövlət quruculuğuna, digəri isə xırda hisslərlə oynayan qisasçı yarımüstəqil dövlət yaratmağa aparırdı. Heydər Əliyev sülhsevər güclü dövlət seçimini tərəddüd göstərmədən etdi.

Azərbaycan xalqının və dövlətçiliyinin müdriklik ənənəsindən çıxış edən Heydər Əliyevin əsas tezislərindən biri belə idi: "siyasətçi heç zaman xırda hisslərə qapılmamalıdır"! Əlbəttə, bu fikir hər şeydən öncə dövlət quruculuğu fəaliyyəti ilə bağlıdır.

Bu qısa təhlildən mühüm nəticə hasil etmək olar. Heydər Əliyev sülhsevərliyin tarixi və siyasi anlamlarını Azərbaycan təcrübəsi əsasında geosiyasi anlamına qədər genişləndirdi və dərinləşdirdi! Ulu öndər praktiki dövlət quruculuğu fəaliyyəti ilə milli, regional və qlobal miqyaslarda sülhsevərliyin vahid kosepsiyasını hazırladı. Bunun beynəlxalq miqyasda rəsmi təsbitini Heydər Əliyev 1994-1995-ci illərdə BMT-dəki çıxışları zamanı dövlət identikliyinin başlıca parametrlərini ifadə edərkən diqqətlərə çatdırdı.

Bunlar nəyi ifadə edir? Onu ifadə edir ki, Azərbaycanın sülh konsepsiyası çox ciddi və dərindən düşünülmüş sülhsevərlik anlayışının yeni politoloji məzmunu üzərində bərqərar olmuşdur. Bu kursun yaradıcısı əsaslı dövlətçilik mövqeyindən çıxış edərək sülhsevərliyin nəzəri anlamı ilə onun praktiki reallaşmasını sistemli fəaliyyət halına gətirmişdir. Məhz buna görədir ki, başqa müstəqil dövlətlər yarımçıq sülhsevərlik nümayiş etdirəndə, ya da ümumiyyətlə, bu sözdən spekulyativ istifadə edəndə Azərbaycan təmkinli və davamlı olaraq real sülh mühiti yaratmaq istiqamətində əlindən gələni edirdi. Azərbaycan Respublikasının indiki uğurlarının təməlində bu aydın konsepsiya, konkret fəaliyyət istiqamətləri və dəqiq strateji hədəflərin müəyyən edilməsi dayanır.

## Sülhyaratma məntiqi və məkanı

Azərbaycan müstəqillik əldə edəndən dünyanın böyük dövlətləri onun sülh məntiqini və onu təminetmənin məkanca miqyasını (coğrafi, siyasi, geosiyasi, hərbi və mədəni anlamlarda) adekvat dərk edə bilmədilər (bəlkə də onun gücünü duyub, qəbul etmədilər). Buna görə də Azərbaycan dövlətinə sülh aspektində həm şübhə, həm də inamsız yanaşdılar.

Çox qəribədir ki, bu emosional təhrif olunmuş mövqe Vətən müharibəsindən sonra daha da artdı. Azərbaycan Prezidenti İlham Əliyevin müharibənin gedişində belə dəfələrlə sülh mesajı verməsinə baxmayaraq, Qərb siyasiləri və KİV nümayəndələrinin fikirləri və davranışlarında hiss edilirdi ki, tam mənası ilə bizim üçün Vətən Savaşının nə demək olduğunu və əsas məqsədin sülh şəraitində qonşularla yaşamaq üçün tam müstəqil olmaq istəyimizi anlaya bilmirlər və ya anlamaq istəmirlər.

Görünür, buna görədir ki, həm müharibənin gedişində addımbaşı Azərbaycana qarşı süni kompromatlar tapmaqla məşğul oldular. Həm də Qələbədən sonra bir neçə il müxtəlif bəhanələrlə Azərbaycanın sülhsevərliyinə ləkə atmağa çalışdılar. Bu o demək idi ki, Azərbaycan rəhbərliyi faktiki olaraq hərbi qələbəsini sülh uğrunda daha gərgin mübarizədə əldə ediləcək zəfərlə tamamlamalı idi. Bu ağır prosesin müxtəlif fraqmentləri sülh konsepsiyasının XXI əsrdə uğurlu olması baxımında olduqca ibrətamizdir.

Biz öyrəndik ki, super güclü dövlət olmaq hələ sülhə real sayğı göstərmək demək deyildir. Çünki ABŞ başda olmaqla Qərbin özünü çox güclü sayan dövlətləri və Rusiya açıq-açığına Azərbaycanın haqlı mövqeyindən çox, Ermənistanın antitarixi, antibəşəri, ədalətsiz və haqsız mövqeyini müdafiə etməyə cəhdlər göstərirlər. Xüsusilə, Fransa o dərəcədə antisülh və ədalətsiz mövqe tutmuşdu ki, "böyük dövlət" anlayışına təhqir kimi görünürdü. Həqiqi mənada "böyük dövlət olmağın mənası nədir?" sualı yaranırdı.

Ancaq onlar dayanmırdılar. Hərb meydanında bir şeyə nail ola bilmədilər və postmüharibə mərhələsinin şantajlarına dərhal başladılar. Azərbaycanın sülh konsepsiyasının reallaşması baxımından bizim üçün burada liderlik kontekstində çox özəl məqamlar mövcuddur. Onların üzərində dayanmaq zəruridir.

Sülh konsepsiyası aspektində həmin təxribatları bir neçə qrupa bölmək olar.

Birincisi, rəsmi siyasi dairələrin süni davranışları. Nümunə: Fransadan bir nazir utanmadan və ərinmədən maşına oturub "Dağlıq Qarabağ ermənilərinə humanitar yardım aparmaq" görüntüsü yaratmaq istədi. Bunu, ümumiyyətlə, Qərbdə "Dağlıq Qrabağda ermənilərin hüquqları pozulur", "onların humanitar vəziyyəti fəlakətlidir" və "ermənilərə Laçın yolunda sərbəst hərəkət etməyə imkan verilmir" kimi qondarma ittihamlar fonunda edirdilər. ABŞ və Aİ də belə düşünürdülər.

Laçın sərhəd zonasında onlara anlatdılar ki, Azərbaycan müstəqil dövlətdir və onun hər hansı ərazisinə humantiar yardımı dövlətin müəyyən etdiyi marşrutla daxil edə bilərsən. Azərbaycan tərəfi Ağdam istiqamətində fransızların yardımı çatdıra biləcəyini dəqiq və hüquqi-diplomatik formada "fransız" qalanlara anlada bildi. Onlar gözlədi-gözlədi və sonra rədd oldular (burada "rədd olmaq" Təbriz ləhcəsində işlənən "getmək" mənasında işlədilmişdir).

İkincisi, Azərbaycanın real sülh niyyətlərinə kölgə salmağa yönəlmiş saxta diplomatiya üsulu. Nümunəsi: Aİ "mülki missiya" uydurdu. Onun tərkibi isə dünyanın müxtəlif regionlarında cinayətlər törətmiş keçmiş gizli servisin üzvləridir. Bununla indi haqlı olaraq istehza ilə "durbin diplomatiyası" adlandırılan və birbaşa iki dövlət arasında sülhün yaranmamasına çalışan antisülh komandası meydana gəldi.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Vaşinqtonda imzalanan Birgə Bəyannamə və sülh sazişinin paraflanması ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonra Cənubi Qafqaz regionunda baş verən ən mühüm hadisədir. Bu tarixi sənəd yalnız münaqişənin sona çatmasını simvolizə etməklə kifayətlənmir, həm də regionda yeni bir dövrün, sabitlik və əməkdaşlıq mühitinin başlanğıcını qoyur. Uzun illər davam edən və saysız-hesabsız insan itkilərinə, dağıntılara və siyasi gərginliyə səbəb olan münaqişə artıq keçmişdə qalır və onun əvəzində qarşılıqlı hörmət və sülhə əsaslanan münasibətlər formalaşmağa başlayır.**

# Levon Ter-Petrosyan tərəddüd içindədir

Vaşinqtonda imzalanan bu sənəd həm də Cənubi Qafqazda təhlükəsizliyin və rifahın təmin olunması üçün vacib addımdır. Minsk qrupunun fəaliyyətinə son verilməsi isə beynəlxalq aləmdəki bir çox ölkələrin qeyri-konstruktiv və faydasız siyasətinin iflasını göstərir. Artıq Zəngəzur dəhlizi də reallığa çevrilir. Eyni zamanda, regionun təbii sərvətlərindən birgə istifadə, enerji təhlükəsizliyi və regional layihələrin həyata keçirilməsi sahəsində yeni tərəfdaşlıqlar qurulur. Əldə olunan bu uğurlara isə Ermənistanda fərqli münasibət var. Hakimiyyət və ona yaxın qüvvələr bunu uğur, strateji qələbə kimi təqdim edir, ölkənin maraqlarına xidmət etdiyini vurğulayırlar. Parlament müxalifəti isə imzalanmış sənədləri Ermənistanın bədənində əmələ gələn "dərin yara" hesab edirlər. Ümumiyyətlə, müxalifət regionun gələcək inkişafı və sabitliyi üçün mühüm rol oynayacaq sənədləri görməzdən gəlirlər.



Maraqlıdır ki, Ermənistanın keçmiş dövlət başçıları ABŞ-ın vasitəçiliyi ilə bağlanmış Ermənistan–Azərbaycan sülh bəyannaməsinə geniş münasibət bildirməkdən çəkinirlər. Məsələn, Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan "İlur" saytının xahişi ilə iki ölkə arasında birgə bəyannaməyə və Zəngəzur dəhlizi ilə bağlı məsələyə münasibət bildirərkən xəsislik edib, geniş şərh verməkdən çəkinib: "Hakimiyyət, təbii ki, bunu ən böyük uğurlarından biri hesab edərək sevinir. Parlament müxalifəti isə sazişdə nəinki müsbət bir şey görmür, əksinə, onun icrasının dağıdıcı nəticələrini proqnozlaşdırır. Mənə ünvanladığınız suala gəlincə, hələlik cavab verməkdən çəkinirəm, çünki əminəm ki, ona yalnız razılıq əldə olunandan sonra cavab veriləcək.

Dost İran rəsmilərinin fərqli (bəlkə də bir-birini tamamlayan) qiymətləndirmələri və xüsusən də Rusiyanın, demək olar ki, tamamilə susması məni hələ də bir qədər çaşdırır. İran diplomatiyası o qədər incədir ki, onu bir anda anlamaq bəzən çətin olur. Lakin öz təcrübəmə əsaslanaraq sizi əmin edə bilərəm ki, ölkəmiz müstəqilliyini bərpa edəndən bəri İran Ermənistana qarşı nəinki narazılıq və ya qınaq ifadə edib, əksinə, bizim bütün müraciətlərimizə müsbət cavab verib. Bir sözlə, mən Ermənistanla İran arasında 30 ildən artıq davam edən münasibətlərdə hər hansı anlaşılmazlıq görməmişəm".

Levon Ter-Petrosyanın Vaşinqtonun vasitəçiliyi ilə aparılan danışıqlara münasibət bildirməkdən çəkinməsi təsadüfi deyil və bir neçə əsas amilə söykənir. Bu amillərə İran və Rusiya ilə münasibətlər, beynəlxalq diplomatiyada dəyişən güc balansı və Ermənistanın daxili-siyasi sabitliyi daxildir. Ter-Petrosyan bu məsələdə ehtiyatlı mövqe sərgiləməklə yalnız öz siyasi gələcəyini qorumağa çalışır.

Qeyd edək ki, İrəvanın regionda ən yaxın tərəfdaşlarından biri olan Tehranla münasibətləri uzun illərdir ki, sabit və qarşılıqlı maraqlar əsasında davam edir. Ermənistan–İran əlaqələri indiyədək ciddi qarşıdurma və ya siyasi narazılıqla müşayiət olunmayıb. Bu da Ermənistan üçün mühüm diplomatik üstünlük hesab olunur. Lakin son zamanlar ABŞ-ın vasitəçiliyi ilə aparılan sülh təşəbbüsləri İran tərəfindən potensial təhdid kimi dəyərləndirilir. Tehran Cənubi Qafqazda öz geosiyasi maraqlarını qorumağa çalışdığı üçün Qərbin bölgədə artan təsirindən narahatdır. Belə bir şəraitdə Ter-Petrosyanın bu təşəbbüslərə açıq dəstək verməsi Tehranla münasibətlərdə gərginliyə səbəb ola bilər.

*

Digər tərəfdən, Rusiya da Ermənistanın tarixən yaxın müttəfiqlərindən biri olub. Təhlükəsizlik sahəsində əməkdaşlıq uzun illər Rusiya–Ermənistan münasibətlərinin əsas dayağını təşkil edib. Amma son illər, xüsusilə də İkinci Qarabağ müharibəsindən sonra bu münasibətlərdə soyuqluq yaranıb. Moskva açıq şəkildə mövqe bildirməsə də, İrəvanın Qərblə yaxınlaşmasına mənfi yanaşır. Rusiya və İranla münasibətlərdə atılacaq hər hansı ehtiyatsız addım Ermənistanı regional təcriddə sürükləyə və geosiyasi mövqeyini zəiflədə bilər. Bu baxımdan, Ter-Petrosyanın açıq və sərt mövqe sərgiləməkdən çəkinməsi, Ermənistanın maraqlarını qorumağa yönəlib. Yəni imzalanmış sənədlərə dəstək verməsi İran və Rusiya tərəfindən birmənalı qarşılanmaya bilər. Əksinə açıqlamalar isə iqtidarın narazılığı ilə qarşılanar. Belə olan halda, ən yaxşısı susmaqdır.

Deməli, Ter-Petrosyanın susqunluğu diplomatik gediş kimi də dəyərləndirilə bilər. O, ölkədəki mövcud gərginlik fonunda "gözləmə" mövqeyini seçməklə, ehtiyatlı və düşünülmüş davranış sərgiləyir. Bu taktika qeyri-müəyyənlik dövrlərində tez-tez istifadə olunan siyasi metoddur. İndiki həssas şəraitdə açıq və birmənalı bəyanatlar vermək Ter-Petrosyanın siyasi mövqeyinə mənfi təsir edə, həm də daxili müxalifətin təzyiqlərini artıra bilər. Bundan əlavə, belə bir addım xarici güclərin də sərt reaksiyasına səbəb olardı.

Diplomatik proseslərin nəticələri hələ tam aydınlaşmadığı üçün Ter-Petrosyan daha dəqiq və əsaslandırılmış mövqe formalaşdırmaq üçün gözləməyi üstün tutur. Bu, həm gələcəkdə çevik qərarlar qəbul etməyə imkan verir, həm də mümkün riskləri önləməyə xidmət edir. O anlayır ki, bəyanatların təsirləri və nəticələri yalnız zamanla ortaya çıxacaq və indiki mərhələdə emosional qərarlardan çəkinmək daha doğrudur.

Beləliklə, Ter-Petrosyan indiki mürəkkəb geosiyasi şəraitdə sükutun ən güclü siyasi mövqe olduğunu anlayır və hadisələrin inkişafını diqqətlə izləyərək, doğru zamanda münasibət bildirməyi üstün tutur. **Bununla bağlı XQ-yə açıqlama verən Türkiyənin Ərciyəs Unuversitetinin ermənişünaslıq bölümü başqanı Qafar Çaxmaqlı dedi:**



Ümumən, erməni cəmiyyətində Azərbaycanla Ermənistan arasında Vaşinqtonda imzalanan Birgə Bəyannamə və sülh sazişinin paraflanması birmənalı qarşılanmır. Ölkənin bəzi siyasi gücləri, o cümlədən hakimiyyət partiyasının tərəfdarları bəyannaməni alqışlayır, amma keçmiş prezidentlərin heç birindən səs çıxmır. Bu qrupun başında da Ter-Petrosyan gəlir. Əslində, Ermənistan cəmiyyəti gözləyirdi ki, Ter-Petrosyan bu məsələyə geniş münasibət bildirsin və Paşinyan hakimiyyətinin hansı yolda olduğunu cəmiyyətə açıqlasın. Bunun hakimiyyət üçün də böyük əhəmiyyəti vardı. Amma Ter-Petrosyan hələ ki, Vaşinqtonda imzilanmış sənədlərə geniş münasibət bildirmir. Dedikləri isə biyanə, yəni, "nə ət yansın, nə şiş" şəkilindədir. Hesab edirəm ki, Ter-Petrosyanın geniş açıqlama verməkdən çəkinməsi hər iki tərəfin diqqətini çəkməməyə hesablanıb. Düşünür ki, indiki şəraitdə neytral mövqe onun üçün daha səmərəlidir.

Ermənistan cəmiyyətində səsiz qalan güclərdən biri də kilsədir. Hətta Ermənistanda deyirlər ki, Roma papası bu məsələyə münasibət bildirdi, iki dövlət arasında münasibətlərin yeni məcraya düşməsini alqşladı. Amma Ecmiədzin kilsəsi hələ də susur və münasibət bildirmir. Təbii ki, münasibət bildirsə də, Paşinyanın atdığı addımların səhv olduğunu deyəcək.

Maraqlıdır ki, müxalifətdə olan siyasətçilər, ekspertlər Zəngəzur dəhlizi ilə bağlı başqa seçənəklərinin də olduğunu deyirdilər. Başqa seçənək nə ola bilərdi? Azərbaycanın qərb hissəsindən Naxçıvana dəhlizin alternativi yoxdur. Gec-tez bu dəhliz açılacaq və bundan Ermənistan da dividentlər əldə edəcək. Region çiçəklənən, inkişaf edən məkana çevriləcək".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Xarici ticarət dövriyyəmiz 6 ayda 24 milyard dollara çatıb

(əvvə)li 1-ci səhifədə

Ölkədə sahibkarlığın inkişafı üçün möhkəm hüquqi baza formalaşdırılıb, iqtisadi sərbəstliyin təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. İslahatların icrası zamanı isə biznes mühitinin liberallaşdırılması, investisiya cəlbediciliyinin artırılması və ixrac proseslərinin daha çevik, şəffaf mexanizmlər üzərində qurulması məsələləri diqqətdə saxlanılıb.

Bütün bunların nətisində reallaşdırılan idxal –ixrac prosesi yüksək göstəricilərlə müşahidə olunub. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin ilk yarısında 104 ölkə ilə ixrac, 160 ölkə ilə idxal əməliyyatları həyata keçirilib. Hesabat dövründə xarici ticarət dövriyyəsi 23 milyard 964 milyon ABŞ dollarına yüksəlib. Ticarət dövriyyəsində 12 milyard 442 milyon dollar (51,9 faiz) ixrac, 11 milyon 522 milyon dollar (48,1 faiz) isə idxal məhsullarında qeydə alınıb, nəticədə 920 milyon dollarlıq müsbət saldo əldə olunub. Qeyd edək ki, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi 9,4 faiz çoxalıb. İlin ötən 7 ayında qeyri – neft – qaz məhsullarının ixracı isə 1 milyard 754 milyon dollara yüksəlib.

İxracın genişlənməsi üçün mühüm şərtlərdən biri olan gömrük prosedurlarının sadələşdirilməsi və ticarət maneələrinin minimuma endirilməsi diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə son illərdə gömrük sistemində köklü dəyişikliklər həyata keçirilib, məsələn, elektron bəyannamə sistemi, “Yaşıl dəhliz” mexanizmi, idxal-ixrac əməliyyatlarında operativliyin artırılması üçün vahid pəncərə prinsipi tətbiq edilib. Nəticədə tranzit daşımalarının optimallaşdırılması və logistika xərclərinin azaldılması, ixracatçılar üçün əlverişli şəraitin yaradılması mümkün olub.

Bununla yanaşı, ticarət infrastrukturunun müasirləşdirilməsi istiqamətində də ciddi addımlar atılıb. Müasir anbar sistemlərinin, sərhəd – keçid məntəqələrində yeni texnoloji avadanlıqların istifadəsi nəticəsində yük axını daha sürətli və təhlükəsiz şəkildə həyata keçirilib.

Yuxarıda sadalanan layihələr sırasında texnoloji modernləşmə və məhsul keyfiyyəti amili də diqqətdə saxlanılıb. Belə ki, Azərbaycan sahibkarlarının beynəlxalq bazarda rəqabət aparmaq üçün yüksək keyfiyyətli məhsul istehsalına xüsusi önəm verilib. Bunun üçün ən müasir texnika və avadanlıqlar ölkəyə gətirilərək istehsalat prosesində tətbiq olunub. Müəssisələrdə texnoloji proseslər tamamilə yenidən qurulub, avtomatlaşdırılmış idarəetmə sistemlərinə və innovativ istehsal metodlarına xüsusi diqqət yetirilib. Bununla da həm məhsulun keyfiyyəti artırılıb, həm də istehsal xərcləri optimallaşdırılaraq rəqabət qabiliyyəti möhkəmləndirilib.

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə uyğun siyasət aparması (daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizə və rəqabətin inkişaf etdirilməsi) da ixracatçılar üçün yeni imkanlar açıb. Bu yanaşma həm yerli sahibkarların mövqeyini möhkəmləndirib, həm də istehlakçıların keyfiyyətli məhsullara əlçatanlığını gerçəkləşdirib. Eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarət gücləndirilib. Dövlət standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahələrində beynəlxalq tələblərə uyğun mexanizmlər tətbiq olunub. Bu islahatlar sayəsində milli istehsalçıların xarici bazarlara daha rahat çıxışı və ixrac coğrafiyasının genişlənməsi reallaşıb.

Ölkənin xarici ticarətində yüksək göstəricilərin əldə olunmasında təbii ki, sadalanan amillərlə yanaşı, digər səbəblər də mühüm rol oynayıb. Məsələn, respublikamız “Ümumiləşdirilmiş Preferensiyalar Sistemi+” Proqramına (“GSP+”) qoşulandan sonra ixrac potensialı nəzərəçarpacaq dərəcədə güclənib, ixrac mallarının çeşidi artıb. Bu, ölkəmizə Avropa İttifaqı (Aİ) bazarlarına güzəştli şərtlərlə ixrac imkanı yaradıb. Belə bir layihənin gerçəkləşdirilməsi həm də ixrac potensialının genişləndirilməsinə və ixrac strukturunun diversifikasiyasına önəmli təsir göstərib. Bütün bunlarla bərabər, ixrac potensialının güclənməsini son illər Vergi Məcəlləsinə edilən düzəlişlər, sənaye məhəllələrinin, texnoparkların, azad iqtisadi zonaların genişləndirilməsi də sürətləndirib.



Azərbaycanın ixrac potensialının gücləndirilməsindən danışarkən bir məqamı da xatırladaq. Qeyd edək ki, biznes ekomühitinin yaxşılaşdırılmasının mühüm qolu iqtisadiyyatın gömrük – vergi tənzimlənməsi sisteminin təkmilləşdirilməsidir. Bu baxımdan ölkəmizdə investisiya mühitinin cəlbediciliyinin artırılması üçün müəyyən layihələrin gerçəkləşdirilməsi ümumi prosesə təkan verir. Bu gün yerli istehsalatda istifadə olunan 300-ə yaxın aralıq malın idxal rüsumundan azad edilməsi yerli istehsalın maya dəyərinin azaldılmasına, yerli malların xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasına müsbət təsir göstərməsi də deyilən fikrin bariz ifadəsidir.

Yeri gəlmişkən, ölkədə ixrac potensialının gücləndirilməsi Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də də qarşıya mühüm vəzifə kimi qoyulub. Belə bir vəzifənin gerçəkləşdirilməsinin əsas şərti kimi davamlı və yüksək iqtisadi artıma nail olunması göstərilib.

Buna görə də Milli Prioritetlərə əsaslanaraq hazırda milli iqtisadiyyat şaxələndirilir, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün qeyri – neft iqtisadiyyatının inkişafı diqqət mərkəzində saxlanılır. İqtisadi artımın qabaqcıl və səmərəli özəl təşəbbüslərə söykənməsi, dövlət və özəl əməkdaşlığın gücləndirilməsi istiqamətində layihələr gerçəkləşdirilir. Bütün bunlarla bərabər, yeniliyə meyilli özəl sektorda fəallıq daha da canlandırılır, qeyri – neft sektorunun maliyyələşməsində bu sahənin payı artırılır.

Beləliklə, ixrac potensialının gücləndirilməsi istiqamətində görülən işlər yalnız iqtisadi göstəricilərə deyil, həm də ölkənin beynəlxalq nüfuzuna müsbət təsir göstərir. Müasir gömrük və ticarət sistemləri, innovativ istehsal texnologiyaları, keyfiyyətə nəzarət mexanizmlərinin gücləndirilməsi və rəqabət mühitinin inkişafı Azərbaycanı regionun mühüm ixrac mərkəzlərindən birinə çevirir.

# Muğan çölü “yaşıl” layihəyə qucaq açıb

## *“Biləsuvar” GES 179 min evi təmiz enerji ilə nurlandıracaq*



**Biləsuvar rayonunda Azərbaycanın ən böyük günəş elektrik Stansiyasının (GES) tikintisinə başlanılıb. Bu münasibətlə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəri Murad Sadıxov, eləcə də Çin Xalq Respublikasının “China Energy Development” şirkətinin layihə rəhbəri Du Ning və Fan Tao əraziyə baş çəkiblər.**

Biləsuvar RİH başçısı F.Qürbətov bu böyük layihənin alternativ enerji mənbələrinin istifadəsinin genişlənəcəyini və ekoloji baxımdan təmiz enerji istehsalının bölgənin dayanıqlı inkişafına mühüm töhfə verəcəyini, eləcə də yerli sakinlər üçün iş imkanının yaradacağını bildirib. “Masdar-Azərbaycan” şirkətinin direktoru M.Sadıqov isə 2024-cü ilin iyununda Prezident İlham Əliyevin iştirakı ilə təməli qoyulmuş bu layihənin Qafqazın ən böyük günəş elektrik stansiyası olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, Azərbaycanda “yaşıl” enerji istehsalına mühüm töhfələr verəcək bu nəhəng GES-in tikintisində dünyanın ən müasir texnologiyalarından istifadə olunacaq.

Diqqətə çatdırılıb ki, layihənin tikinti mərhələsində Çin, Türkiyə, İspaniya və digər ölkələrdən dəvət olunan peşəkar mütəxəssislər yerli komanda ilə birgə çalışır. Bununla yanaşı, layihənin tam gücü ilə icrası zamanı Biləsuvar rayonundan olan 1500 nəfər yerli sakinin müxtəlif işlərə cəlb olunması planlaşdırılır.

Tanışlıq zamanı tərəfdaş şirkətlərin nümayəndələri də layihə barədə məlumat veriblər. Daha sonra Faiq Qürbətov və Murad Sadıxov ilk günəş panelinin dayağını torpağa basdırmaqla işlərə start veriblər.

Xatırladaq ki, Biləsuvar rayonunda 445 meqavat gücündə olacaq günəş elektrik stansiyasının inşası məqsədilə Azərbaycan dövləti ilə Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti arasında müqavilə imzalanıb. 2024-cü il iyunun 4-də, Bakı Enerji Həftəsi çərçivəsində ölkə Prezidenti İlham Əliyev və BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl Cabirin iştirakı ilə layihənin təməli qoyulub.

Stansiyanın inşası məqsədilə dövlət mülkiyyətində olan və Biləsuvar rayonunun inzibati sərhədləri daxilində yerləşən 1454 hektar ərazi ayrılıb. “Masdar”ın törəmə şirkəti olan “Abu Dhabi Future Energy Company” tərəfindən icra edilən layihə ölkəmizdə bərpa olunan enerji istehsalının artırılmasına, enerji balansında təmiz enerji payının yüksəldilməsinə və yaşıl enerji siyasətinin inkişafına mühüm töhfə verəcək. Təkcə onu qeyd etmək kifayətdir ki, “Biləsuvar” Günəş Elektrik Stansiyasında il ərzində 897 milyon kilovat-saat təmiz enerji istehsalı nəzərdə tutulur ki, bu da 179 min evin elektrik enerjisi ilə təchizatına imkan yaradacaq. Eyni zamanda, stansiyanın fəaliyyəti nəticəsində il ərzində 193 milyon kubmetr təbii qaza qənaət olunacaq ki, bu da 367 min ton karbon emissiyasının azaldılması deməkdir. Ümumilikdə isə, stansiyanın fəaliyyətə başlaması Azərbaycanda bərpa olunan enerjinin istehsal gücünü artırmaqla qazla işləyən elektrik stansiyalarını əvəz etməyə və Paris Sazişinə uyğun olaraq karbon qazının azaldılması hədəflərinə nail olmağa kömək edəcək.

Yeri gəlmişkən, Cənubi Qafqazın ən böyük bərpaolunan enerji layihəsinin icrası beynəlxalq maliyyə qurumları tərəfindən də fəal dəstəklənir. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən ilin noyabrında Avropa Yenidənqurma və İnkişaf Bankı 445 meqavatlıq “Biləsuvar Solar SPV” Günəş Elektrik Stansiyası layihəsinin işlənib hazırlanması, tikintisi və istismarı üçün 95 milyon ABŞ dolları məbləğində uzunmüddətli kredit ayırıb. Bütövlükdə, ümumi dəyəri 380 milyon dollar təşkil edən layihənin reallaşdırılmasına bir sıra digər beynəlxalq maliyyə institutları da dəstək verəcək.

Ölkədə tikilən 2 qiqavatlıq bərpaolunan enerji stansiyalarının enerji sistemə inteqrasiyasını dayanıqlı və təhlükəsiz şəkildə həyata keçirmək istiqamətində də mühüm işlər görülür. Bu baxımdan əsas qovşaq yarımstansiyası funksiyasını daşıyacaq “Nəvai” yarımstansiyanın inşasını qeyd etmək olar. “AzərEnerji” tərəfindən tikilən bu yarımstansiya, eləcə də yeni çəkilən 500 və 330 kilovoltluq yüksək gərginlikli xətlər ötürücü sistemdə yeni mərhələnin başlaması kimi dəyərləndirilə bilər.

Layihənin birinci mərhələsində “AzərEnerji”nin daxili imkanları və bir hissəsi dövlət büdcəsi hesabına ayrılan vəsaitlə yeni yarımstansiyanın və onun 330 kilovoltluq tərəfinin, o cümlədən Nəvaidən Abşerona 500 kilovoltluq, “Biləsuvar” və “Bankə” günəş elektrik stansiyalarına 330 kilovoltluq ötürmə xətlərinin tikintisi aparılır. İcra qrafikinə əsasən, 2024-cü ilin sentyabr ayından başlanılan işlərin əsas hissəsi görülüb. Birinci mərhələ üzrə işlərin bu ilin sonuna qədər başa çatdırılması planlaşdırılır. Bununla, “Bankə” və “Biləsuvar” günəş elektrik stansiyalarının enerji sistemə qoşulması öhdəliyi yerinə yetiriləcək.

# ƏDV ödəyicilərinin sayı 5,8 faiz artıb

**2025-ci il avqustun 1-nə fəal vergiödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 2,1 faiz artaraq 823,9 min, fəal ƏDV ödəyicilərinin sayı 5,8 faiz artaraq 55,8 min, fəal təsərrüfat subyektlərinin (obyektlərinin) sayı isə 4,3 faiz artaraq 226,8 min olub.**

Dövlət Vergi Xidmətindən XQ-yə bildirilib ki, həmin müddət ərzində uçotda olan yeni nəsil nəzarət-kassa aparatlarının sayı 111,8 min, qeydiyyatda olan POS-terminalların sayı isə 140,7 min təşkil edib.




# ABŞ-ın rəqəmsal şirkəti Azərbaycana gəlir

**İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin məlumatına görə, yaxın zamanda rəqəmsal transformasiya və informasiya texnologiyaları (İT) sahəsində dünya liderlərindən olan “EPAM Systems” şirkətinin nümayəndəliyi Bakıda fəaliyyətə başlayacaq. Qurum əməliyyat işləri ilə yanaşı, irimiqyaslı rəqəmsallaşma təşəbbüslərinin həyata keçirilməsini nəzərdə tutan innovasiya mərkəzi kimi də müəyyən layihələr həyata keçirəcək.**




Əməkdaşlığın xüsusi istiqaməti süni intellekt sahəsini əhatə edəcək. Belə ki, “EPAM Systems” şirkəti digər ölkələrdə reallaşdırılan layihələrdə öz səmərəliliyini təsdiqləyən qabaqcıl həlləri respublikamızda da tətbiq edəcək. Bildirilir ki, şirkət Azərbaycanda dövlət xidmətlərinin rəqəmsallaşdırılmasında, “mygov” (o cümlədən “mygov biznes”) rəqəmsal xidmətlər ekosisteminin genişləndirilməsində və bu xidmətlərin səmərəliliyinin və əlçatanlığının artırılmasına yönəlmiş texnoloji həllərin tətbiqini diqqətdə saxlayacaq. “EPAM Campus” platforması vasitəsilə yerli İT mütəxəssislərin hazırlanması və texnoloji səriştələrin inkişafı, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi və digər dövlət qurumları ilə birgə layihələrin icrasına xüsusi diqqət ayrılacaq. Əməkdaşlıq çərçivəsində proseslərin avtomatlaşdırılmasını asanlaşdıran, xidmətlərin dəqiqliyini və sürətini artıran, istifadəçi təcrübəsini təkmilləşdirən süni intellekt həllərinin inteqrasiyasına da mühüm önəm veriləcək.

Məlumatda qeyd edilir ki, “EPAM Systems” rəqəmsal platformaların hazırlanması, süni intellekt həllərinin tətbiqi və ümumilikdə, rəqəmsal transformasiya üzrə ixtisaslaşmış dünyanın ən böyük texnologiya şirkətlərindən biridir. 62 mindən artıq mütəxəssisə malik bu şirkət 55-dən çox ölkədə təmsil olunur və “Fortune 500” siyahısına daxil olan dünyanın ən iri korporasiyalarına xidmət göstərir. 2012-ci ildən etibarən “EPAM Systems”in səhmləri Nyu-York Fond Birjasında satılır, şirkət 2021-ci ildən “S&P 500” indeksinə sahibdir. Bu, şirkətin miqyasını və qlobal iqtisadiyyat üçün nə dərəcədə əhəmiyyətli olduğunu sübut edir.

“EPAM Systems”in 2024-cü ildə illik gəliri 4,7 milyard ABŞ dollarını ötüb. Rəqəmsal həllərin dayanıqlığı, çevikliyi və miqyaslana bilməsi şirkətə rəqəmsal iqtisadiyyatın çağırışlarına səmərəli şəkildə uyğunlaşmağa, müştərilərinə sadəcə xidmət deyil, həm də kompleks strateji dəstək təqdim etməyə imkan verir.

Dövlət sektorunun rəqəmsallaşması sahəsində böyük təcrübəyə malik olan “EPAM Systems” indiyədək Avropanın bir sıra ölkələrində, eləcə də Körfəz regionunda layihələr həyata keçirib. Ukraynada “Diia” adlı rəqəmsal xidmətin hazırlanması və yenilənməsində iştirak edib, Birləşmiş Ərəb Əmirliklərində isə “DGE OneHub” platformasını istifadəyə verib. Bu layihələr xidmətlərin rəqəmsallaşdırılmasını, süni intellektin, bulud həllərinin və rəqəmsal platformaların tətbiqini diqqət mərkəzində saxlamaqla yanaşı, sözügedən şirkətin qabaqcıl texnologiyasını da dövlət idarəçiliyinin xüsusiyyətinə uyğunlaşdırıb.

Azərbaycanda son illər rəqəmsal infrastrukturun inkişafı, elektron hökumət və süni intellekt texnologiyalarının tətbiqinin dəstəklənməsi istiqamətində ardıcıl strateji təşəbbüslər həyata keçirilir. Bu səylər, eyni zamanda. “EPAM Systems” kimi qlobal şirkətin respublikamızda nümayəndəlik açma qərarına təsir göstərən vacib faktorlardan olub. Ölkəmizdə rəqəmsallaşma dayanıqlı iqtisadi artımın hərəkətverici qüvvələrindən biri hesab edilir və “EPAM Systems”in ölkəmizdə fəaliyyətə başlaması da bu yanaşmaya olan yüksək etimadın göstəricisidir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

*Mərkəzi Elmi Kitabxana – 100*

# Rəqəmsal bilik xəzinəsinə doğru

**Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illiyinin qeyd edilməsi ilə bağlı imzaladığı sərəncam həyatını bu sahəyə həsr etmiş alimlərə dövlətimizin diqqət və qayğısının bariz nümunəsidir.**



Bu il, eyni zamanda, Azərbaycanın elmi ictimaiyyəti üçün ikiqat əlamətdar ildir. Çünki AMEA-nın 80 illiyi ilə bərabər, Mərkəzi Elmi Kitabxananın (MEK) da 100 yaşı tamam olur. Şanlı tarixlərin qovuşduğu hazırkı vaxtda akademiya hərəkatı kontekstində yeni islahatlar həyata keçirilmişdir. AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin qeyd etdiyi kimi, həyata keçirilən bu işlərdən əsas məqsəd XXI əsrin tələblərinə cavab verən müasir akademiya qurmaqdır. Bundan öncəki əsrlərdə zamana çatmaq, zamanı qabaqlamaq barədə düşünürdüksə, indi bəşəriyyət zamanı idarə etmək, istiqamətləndirmək kimi bir mərhələyə gəlib çatıb. Gedən proseslər göstərir ki, texnoloji və rəqəmsal tərəqqi ənənəvi inkişafı üstələməkdədir.

AMEA-da da bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilməkdədir. Onlardan ən əsası AMEA Rəyasət Heyətində elektron xidmətlərin müasir standartlar səviyyəsinə çatdırılması məqsədilə “Elektron Akademiya” şöbəsinin yaradılmasıdır. Şöbə tərəfindən AMEA-nın elmi nəşrlərinin elektron versiyası hazırlanmış, işıq üzü görən hər bir məqaləyə DOI identifikatoru verilmişdir. Habelə, akademiyanın 3 jurnalının TÜBİTAK-ın DərgiPark bazasına daxil edilməsinə nail olunmuş və milli DərgiPark şəbəkəsi yaradılmışdır. Bundan əlavə, alimlərimizin məqalələrinə edilən istinadları hesablamaq məqsədilə milli istinad sistemi yaradılmışdır.

Akademiyada həyata keçirilən bu islahatlar Mərkəzi Elmi Kitabxanadan da yan keçməmişdir. Bu məqsədlə MEK-də struktur islahatları aparılmışdır. Hədəf “Elektron Kitabxana” konsepsiyası çərçivəsində bilikləri saxlama, qoruma və İKT imkanlarını təminetmə funksiyası ilə yanaşı, bu istiqamətdəki fəaliyyətin elmi-tədqiqat sahəsinə istiqamətləndirilməsidir. Bu mənada MEK-də dövrün tələblərinə uyğun xidmət qurulmuşdur, bu isə kitabxana fondlarında saxlanılan müxtəlif məzmunlu ədəbiyyatın geniş istifadəsinə imkan yaradır. Bu gün oxucular internet vasitəsilə, onlayn şəkildə elektron kitabxana xidmətindən gen-bol yararlanırlar. Rəqəmsallaşdırılan kitablar isə daha uzun müddət mühafizəsinə səbəb olur.

Müasir dövrdə getdikcə inteqrativləşən biliklərin təşkili və sistemləşdirilməsi ən vacib funksiyalardan biri olmaqla yanaşı, bir kitabxananın digərindən üstünlüyünü təmin edir. Kitabxana resurslarının etibarlılığı və sistemləşdirilməsi, məlumatların təkrar istifadəsi, müxtəlif kommunikasiya kanalları vasitəsilə naviqasiya imkanı elm ictimaiyyətinin kitabxanalara olan inam və etibarını daha da artırır. Öndə gedən ölkələrin kitabxana işi sahəsindəki təcrübələrindən faydalanan və yenilikləri öz fəaliyyətində tətbiq edən MEK-də e-kitabxana üçün hazırlanan 51.875 PDF kitabdan 32.345-i sayta yüklənərək oxucuların istifadəsinə verilmişdir. Həmçinin, elektron kataloqa 127 min yeni resurs əlavə olunub ki, bununla da elektron kataloqda resursların sayı 827 minə çatmışdır. “E-kitabxanalara çıxış”, “Elektron bazalara çıxış”, “E-layihələr”, “Audio fayllar”, “Avtoreferatlar”, “Tarixi, coğrafi və nadir xəritələr”, “E-jurnallar”, “E-biblioqrafiyalar”, “E-kitablar” da sayta daxil edilmiş, MEK-in oxucularına dünya səviyyəli elmi resurslardan istifadəni asanlaşdırmağı hədəfləyən kitabxananın keçirdiyi islahatlar nəticəsində xarici elektron kitabxanalara və məlumat bazalarına əlçatanlıq təmin edilmişdir.

Bu saytdan dünyanın 300-ə qədər aparıcı kitabxanasına birbaşa keçid təmin edilmişdir. Buradan 60 adda xarici elmi bazaya giriş imkanı var. Beynəlxalq tərəfdaşlıq çərçivəsində əldə olunan razılaşmaya əsasən, Türkiyənin Sinop Universitetinə məxsus elmi nəşrlərə onlayn giriş imkanının yaradılması və ərazisinə görə Avropanın ən böyük kitabxanası hesab edilən Rami Kitabxanası ilə Qardaş Kitabxanalar Anlaşma Memorandumunun imzalanması bunun bariz nümunəsidir.

Hazırda isə MEK-də rəqəmsallaşma və informasiya-kommunikasiya texnologiyalarının tətbiqi məsələləri kitabxana fəaliyyətinin prioritet istiqaməti hesab edilir. Modern xidmətlər oxuculara 24/7 rejimdə kitabxananın informasiya ehtiyatlarına rahat, operativ əlçatanlığı təmin edir. Kitabxananın bütün oxu zallarında və xidmət sahələrində QR kodlar yapışdırılmışdır ki, oxucular bunun vasitəsilə “mek.az” saytının “Rəylər və təkliflər” səhifəsinə daxil olaraq öz rəy və təkliflərini kitabxana rəhbərliyinə birbaşa göndərə bilirlər. Nəticədə oxucu rəyləri diqqətlə öyrənilir, operativ reaksiya verilir, oxucu ilə əlaqə qurularaq nəticə barədə məlumatlandırılır.

1923-cü ildə Biblioqrafiya bürosu kimi fəaliyyətə başlayan, 1925-ci ildə isə Biblioqrafiya bürosunun işi ilə kitabxana işinin birləşdirilməsi haqqında qərarla hüquqi baxımdan təsis edilən Mərkəzi Elmi Kitabxananın əsas prioriteti dünya kitabxanalarının qabaqcıl iş prinsipindən istifadə etməklə, oxucularına yüksək səviyyəli kitabxana xidmətinin göstərilməsinə nail olmaqdır.

Yubiley ilində görkəmli alimlərin yetişməsində böyük rolu olan, Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə dəyərli töhfələr bəxş edən MEK-də Azərbaycan kitabxanaları arasında ilk dəfə olaraq genişlənmiş və əsaslı “Səsli axtarış” funksiyası tətbiq olunmuşdur. Bu, istifadəçiyə axtarış sorğusunu cihazda səsləndirməyə imkan verən səsin tanınması texnologiyasıdır. Sadə dillə desək, səsli axtarış internetdə axtarış etmək üçün səs əmrindən istifadə etməyə imkan verir. Bu texnologiya istifadəçilərə kitabların axtarışı, resursların rezerv edilməsi və ya ənənəvi üsullarla axtarış əvəzinə şifahi əmrlərdən istifadə etməklə məlumat almaq kimi tapşırıqları yerinə yetirməyə imkan verir. Kitabxanalardakı səsli axtarış sistemləri çox vaxt mövcud kitabxana idarəetmə proqramı, rəqəmsal kataloqlarla inteqrasiya edilir. Kitabxana işçilərinə oxuculara xidmət göstərməkdə və tapşırıqları yerinə yetirməkdə kömək edən bu sistemlərə müxtəlif cihazlar, o cümlədən smartfonlar, ağıllı dinamiklər və xüsusi kitabxana terminalları vasitəsilə daxil olmaq olar.

Süni intellekt əsaslı “Kitabxana bələdçisi”nin yaradılması isə Mərkəzi Elmi Kitabxananın rəqəmsallaşma fəaliyyətində əsaslı dönüş nöqtəsidir. Süni intellekt (AI) və təbii dil emalı (Natural Language Processing) ilə təchiz edilmiş səsli axtarış sistemləri insan nitqini başa düşə və cavab verə bilir, kitabxana ilə qarşılıqlı əlaqəni daha intuitiv edir və istifadəçinin, bir növ, dostuna çevrilir. Kitabxananın işini dəstəkləmək üçün yaradılmış bələdçi tələbələr, tədqiqatçılar, həmçinin geniş ictimaiyyət üçün maraqlıdır. Kitabxana bələdçisi kitabxanadan istifadə haqqında, kitabxananın tarixi, fondları, müasir vəziyyəti və s. mövzularla bağlı oxucu suallarını birbaşa cavablandırır. Bütün bunlar isə onu göstərir ki, bu gün Mərkəzi Elmi Kitabxana oxuculara yüksək səviyyədə xidmət göstərməyə qadirdir və buna nail olur.

Bu yaxınlarda kitabxana tərəfindən İnklüziv xidmət resursları hazırlanaraq oxuculara təqdim edilmişdir ki, burada “Audio resurslar”, “Danışan kitablar”, “Audio teatr” kimi maraq doğuracaq bölmələr öz yerini tapmışdır. Mərkəzi Elmi Kitabxana tərəfindən bütün oxuculara səmərəli kitabxana xidmətinin göstərilməsinə baxmayaraq, digər oxucular üçün əlçatan olan bu xidmətlərdən gözdən əlil oxucular istifadə edə bilmirdilər, çünki inklüziv kitabxana xidmətləri göstərilmirdi. Hazırda isə bu sahədə MEK-də bir sıra tədbirlər həyata keçirilir.

Maraqlı yeniliklərdən biri də budur ki, oxucular MEK-in biblioqrafik xidmət sektorunun əməkdaşları ilə birbaşa onlayn canlı ünsiyyət yarada biləcək, həmçinin girişdə yerləşdirilmiş məlumat-axtarış sistemi vasitəsilə istədikləri resursu müstəqil şəkildə sifariş edə biləcəklər. İstifadəçilər isə “Whatsapp” platforması üzərindən əməkdaşlara kitabxana ilə bağlı sualları verməklə, lazımi informasiyanı əldə edəcəklər. Lazım olan informasiya ilə təmin edilmək məqsədilə oxucuların “Whatsapp” platforması üzərindən kitabxana xidmətlərindən istifadəsinə şərait yaradılması isə qabaqcıl dünya ölkələrində olduğu kimi, Azərbaycanda da bu şəbəkənin akademik məqsədlər üçün istifadə edilə biləcəyini göstərir. Bu yeniliklərin tətbiqi ona görədir ki, oxucular dövrün tələbinə uyğun olaraq vaxt itirmədən, kitabxanaya gəlmədən istənilən yerdən kitabxana xidmətlərindən maksimum şəkildə yararlana bilsinlər.

Mərkəzi Elmi Kitabxana tələbələrin, müəllimlərin, tədqiqatçıların, bir sözlə, bütün oxucuların informasiya ehtiyacını təmin etmək üçün yaradılmış bilik, güc mərkəzi – etibarlı məlumat mərkəzidir və rəhbərlik kitabxananın rəqəmsal informasiya platforması kimi modernləşmə və süni intellekt imkanları vasitəsilə geniş şəkildə fəaliyyəti üçün tədbirlər həyata keçirməkdədir.

Hazırda dünyada təcridi sərhədlər, maneələr yoxdur və müxtəlif ölkələrdə gedən qloballaşma prosesləri, öz növbəsində, müasir kitabxanaların işinə də təsir edir. Qloballaşma dövründə kitabxanalar bilik təminatçıları kimi həlledici rol oynayır və bu rol gündən-günə inkişaf edir, inkişafda isə məkan və zaman məhdudiyyəti aradan qalxıb. Sosial institut olduğuna görə kitabxananın bu dəyişiklikləri qəbul edərək öz fəaliyyətində tətbiq etməsi zəruridir. Qloballaşma və bununla əlaqədar olaraq cəmiyyətdə baş verən proseslər – sosial və siyasi qeyri-sabitlik, təhsil xidmətlərinin inkişafı və savadlılığın yüksəldilməsi, şəhər əhalisinin çoxalması, iqtisadi artım, kompüter texnologiyasının inkişafı və s. dəyişikliklər kitabxananın roluna birbaşa təsir edən amillərdir. Beləliklə, cəmiyyətin inkişafına uyğun olaraq, müasir kitabxanalar məlumat toplamaq, digər kitabxanalarla əlaqə saxlamaq və şəbəkə qurmaq üçün yeni texnologiyalarla təchiz olunur. Bununla da, kitabxanaların cəmiyyətdəki rolu dəyişir, xidmətləri genişlənir.

Elmin inkişafı nəticəsində oxucuların sayının artması kitabxana fəaliyyətinin genişləndirilməsi məsələsinin aktual olduğunu göstərir. Nəzərə almaq lazımdır ki, istənilən dövrdə, inkişaf vəziyyətindən asılı olmayaraq, hər hansı bir kitabxananın əsas məqsədi oxucu sorğusuna müvafiq olaraq, ona “qısa zamanda məlumat vermək”dən ibarətdir. Müasir dövrdə isə cəmiyyətin onurğa sütunu hesab edilən kitabxanalar və kitabxana mütəxəssisləri İKT-nin ən radikal yenilikləri ilə ayaqlaşmağa məcburdurlar, əks halda oxucunu itirə bilərlər. Kitabxanalar cəmiyyətin tərəqqi mənbəyi kimi inkişafına davam etməsi üçün öz fəaliyyətini genişləndirməlidir ki, onların xidmətlərindən istifadə edənlərin sayı artsın.

Təbii ki, kitabxana fəaliyyətinin genişləndirilməsi ifadəsi səslənəndə XXI əsrin çağırışlarına uyğun olaraq yeni informasiya texnologiyalarından istifadə nəzərdə tutulur. Bu yeniliklər isə 100 yaşlı Mərkəzi Elmi Kitabxananın fəaliyyətində uğurla tətbiq edilməkdədir.

***Aytən ƏLİYEVA,***
***AMEA Mərkəzi Elmi Kitabxanasının biblioqrafiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru***

# Azərbaycandan Ukraynaya növbəti humanitar yardım




**Azərbaycan tərəfindən Ukraynaya humanitar yardım məqsədilə nəzərdə tutulmuş elektrik avadanlıqlarından ibarət növbəti yükün ilk hissəsi dünən Sumqayıt Texnologiyalar Parkının ərazisindən yola salınıb. Yardımın göndərilməsi Prezident İlham Əliyevin 2025-ci il 11 avqust tarixli sərəncamına əsasən, Energetika Nazirliyi tərəfindən təmin edilir. Bu barədə jurnalistlərə açıqlamasında Energetika Nazirliyinin mətbuat katibi Cahid Mikayılov bildirib.**

O qeyd edib ki, humanitar yükün tərkibinə, ümumilikdə, 90 min metrə yaxın elektrik kabelləri və naqillər, həmçinin 25 ədəd generator və 7 dəst transformator daxildir. Ukraynada davam edən müharibədən zərər görmüş bölgələrin elektrik enerjisi ilə dayanıqlı təchizatının bərpasına dəstək məqsədilə göndərilən bu avadanlıqların ilk hissəsi – 10 yük avtomobilindən ibarət karvanla yola salınıb. Bildirilib ki, Ukrayna tərəfinin müraciətləri əsasında təşkil edilən və ümumi dəyəri 2 milyon dollar olan sözügedən yardımın növbəti hissəsinin də yaxın günlərdə yola salınması planlaşdırılır.

Qeyd edək ki, Azərbaycan bundan əvvəl də Ukraynaya elektrik təchizatı ilə bağlı humanitar yardımlar göndərib. Hazırkı müharibə şəraiti ilə əlaqədar olaraq, ölkəmizin Ukraynaya göstərdiyi ümumi humanitar dəstək, o cümlədən bərpa və yenidənqurma yönümlü yardımların ümumi dəyəri artıq 44 milyon dolları keçib.

*Replika*

# “Qonorar” əldən niyə getdi!?

**Oxucular elə zənn etməsinlər ki, indi onlara “Maşın” realiti-şousunun incəliklərindən bəhs edəcəyik. Xeyr, burada söhbət sponsorun məşhur telelayihəyə qoyduğu sərmayədən daha böyük maliyyə vəsaitinin aqibətindən gedəcək.**

Bu gün yalnız tənbəl adam Vaşinqtonda ABŞ Prezidentinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan arasında imzalanmış Birgə Bəyannamədən danışmır. Mütərəqqi bəşəriyyətin bir nömrəli mövzusu məhz budur. Həmin Bəyannamə çərçivə sənədi, niyyət protokolu, Azərbaycan və Ermənistanın sülhə doğru bundan sonra hansı istiqamətdə hərəkət edəcəyini müəyyən edən diplomatik mesajdır. Görünən odur ki, bizə yaxın və uzaq ölkələr bunu təqdir edir və hər kəsi xoşbəxt görməyi arzuladıqlarını bildirirlər. Fəqət, bu tarixi günlərdə bayramımızı korlamağa, kefimizə soğan doğramağa cürət edənlər də var. Kimsə, o zarafatda deyildiyi kimi, mütləq qəhvəyi geyinməli və ətrafımızdakıların əhvalını pozmalıdır. Konqresmen Frank Pallone kimi. ABŞ-dakı erməni icmasına uzun müddət lobbiçilik edən və bu “missiyadan” yaxşı qazanan Pallone, Şiff, Pelosi və digər senator və konqresmenlərin “qara günlər”inin yaxınlaşdığını inamla söyləyə bilərik. Bəli, konqresmen Frank Pallone bu dəfə qəhvəyi pencək geyinib. Sözün düzü, əgər o, belə bir hadisə üçün başqa rəng seçsəydi, təəccüblü görünərdi. İntəhası, konqresmen və eyni zamanda, erməni lobbisinin görkəmli nümayəndəsi bu “pulgətirən” rəngə elə ürəkdən bağlanıb ki, ənənəni pozmağa iradəsi çatmayıb.

Beləliklə, konqresmenlər üzlərini sülh elçisi Donald Trampın əyləşdiyi Ağ Evə tutaraq deyirlər ki, Birləşmiş Ştatların “köçkün ermənilərin öz vətənləri Dağlıq Qarabağa təhlükəsiz, ləyaqətli və davamlı qayıtmasını təmin etmək” üçün mənəvi öhdəliyi var. Kökdən düşmüş mahnıdır. Bir il on bir ay bundan əvvəl bütün dünya şahidlik etdi ki, ermənilər Azərbaycanın Qarabağ iqtisadi rayonunu könüllü olaraq tərk etdilər. İndi onların geriyə – Azərbaycana qayıtmasına gəlincə, ...yenə zəruri xatırlatmaya ehtiyac var. Birincisi, hayların dediyiniz qayıdışı 1988-ci ilin sonundan etibarən Ermənistandakı ata-baba torpaqlarından etnik təmizləmə nəticəsində qovulmuş azərbaycanlılar əsrlər boyu yaşadıqları doğma yurdlarına qayıtdıqdan sonra, həm də yalnız fərdi qaydada mümkündür. Amma bu, heç də asan həll olunası məsələ deyil. İzah edim: Misal üçün, vaxtilə Xankəndi şəhərində yaşamış erməni vətəndaşlıq əldə etmək, ona Azərbaycan ərazisində yaşamaq icazəsi verilməsi xahişi ilə respublikasının müvafiq orqanlarına müraciət edir. Həmin müraciətə bizim rəsmi qurumlar diqqətlə, mikroskop altında baxırlar, hayın keçmişini hərtərəfli araşdırırlar. Birinci və İkinci Qarabağ müharibələrində birbaşa və dolayısı ilə iştirakı incələnir. Yəni, siz bu prosedurun vacibliyini başa düşdünüz. Axı, başqa cür ola da bilməz.

Düzünə qalsa, bütün bu pallonelərin, şifflərin və pelosilərin Ermənistan, “Artsax”, ordan könüllü çıxanların geri qayıtması məsələləri heç veclərinə də deyil. Onlar çox gözəl başa düşürlər ki, Azərbaycanla sülh müqaviləsi imzalandıqdan sonra Ermənistan inkişaf edə, dünyaya açıla bilər. Sadaladığımız dayılar və bibilərdən ötrü Ermənistandan çox-çox uzaqlarda yaşayan erməni lobbisinin pulları maraqlıdır. Korrupsioner hay lobbiçilərdən Menendez və siffin artıq “təvazökar hədiyyələrə, silah alverinə, əcnəbi iş adamlarına “çətir” tutduqlarına görə yandıqlarının, həbsə atıldıqlarının şahidi olduq. Gözləyək görək, bu dəfə qalanlardan hansı başıaşağı “hay dərəsinə” yuvarlanacaq. Əgər bu məsələdə çətinlik yaranarsa, bizim müvafiq strukturlarımız ABŞ-ın müvafiq qurumlarına hər cür dəstəyi verməyə hazırdır və buna əmin ola bilərsiniz.

Bir daha haray-qışqırıq salanlara xatırlatmaq əbəsdir ki, o vaxt işğal olunmuş ərazilərdə yaşayan ermənilərə əllərini yuxarı qaldırıb tankdan çıxmaq və növbə ilə, itələşmədən Azərbaycan vətəndaşlığını qəbul etmək fürsəti verilmişdi. Pelosilər isə insan hüquqlarının pozulmasından, hətta etnik təmizləmədən dəm vururlar. Hətta 2023-cü ilin oktyabrında işğaldan azad edilmiş Qarabağa səfər edən BMT-nin faktaraşdırıcı missiyasının hesabatı onlar üçün sübut sayılmır. Çünki onlardan ötrü anlamaq məqsədi yoxdur, ittiham etmək vəzifəsi var. Ona görə də onları heç bir fakt, arqument maraqlandırmır. BMT-nin hesabatından sitat: “Faktaraşdırıcı missiya Xankəndi şəhərində olub, burada əhali və ictimaiyyət nümayəndələri ilə görüşüb, səhiyyə və təhsil sektorlarındakı vəziyyətlə şəxsən tanış olub. Missiya mülki və ictimai infrastruktura, o cümlədən xəstəxanalara, məktəblərə və yaşayış binalarına, habelə mədəni və dini infrastruktura hər hansı ziyanı müşahidə etməyib. Həmkarlarımıza nə yerli əhalidən, nə də başqalarından – mülki əhaliyə qarşı zorakılıq barədə heç bir məlumat daxil olmayıb”. Bundan sonra Kaliforniyadakı erməni diasporasının “yağlı qonorarından“ məhrum olmaq təhlükəsi ilə üzləşmiş senator və konqresmenlərə nəyisə başa salmağa, əks arqument təqdim etməyə nə ehtiyac var?

Yazımızın əvvəlində niyə məhz realiti-şounu yada saldığımızı və sərlövhəyə çıxardığımız mətləbi bizim tok-şouları sevə-sevə izləyən zövqlü və ağıllı tamaşaçımız əla başa düşdü. Burada qüsur axtaracaq bir şey yoxdur.

***İ.HƏSƏNQALA***
***XQ***

# Şirin su qıtlığı getdikcə kəskinləşir

**BMT-nin təsnifatına görə, bir nəfərə düşən illik su miqdarı 1700 kubmetrdən az olan ölkələr su qıtlığı yaşayır. Azərbaycanda isə bu göstərici 1200 kubmetrdən aşağıdır.**






İyulun ortalarından etibarən ölkəmizdə hər il təkrarlanan təhlükəli proses başlayıb: temperatur yüksəlir, yağıntılar olmur və nəticədə su ehtiyatları sürətlə azalır. Avqust ayı isə həm istilərin, həm də su qıtlığının ən pik mərhələsi olur. Son 2 ildə yaz və yay aylarında yağan yağışlar problemi müvəqqəti yumşaltsa da, köklü və davamlı həll hələ də tapılmayıb.

Ona görə də artıq Bakı və digər iri şəhərlərdə suyun qrafiklə verilməsi adi hala çevrilib. Aran və bir sıra dağətəyi rayonlarda, Qobustan, Biləsuvar, Neftçala, Saatlı kimi bölgələrdə kəndlər bəzən günlərlə susuz qalır. Dağlıq ərazilərdə, məsələn Yardımlı, Cəlilabad və Lerik rayonlarında da içməli suya çıxış çox məhduddur.

1980-ci illərdə Azərbaycanın bərpa olunan şirin su ehtiyatları 30,9 milyard kubmetr idisə, hazırda bu göstərici 26 milyard kubmetrə enib. Bu ehtiyatların 13,2 milyard kubmetri transsərhəd çayların, 8,4 milyard kubmetri yeraltı suların, 4,6 milyard kubmetri isə yerli çayların payına düşür.

Ölkədə 8 min 359 çay olsa da, onların əksəriyyəti azsulu və kiçikdir. Quraqlıq illərində transsərhəd suların həcmi daha da azalır və yayda artan tələbatla birlikdə böhran dərinləşir. Bu artıq təkcə ekoloji deyil, həm də milli təhlükəsizlik məsələsidir. AMEA-nın hesablamalarına görə, ölkənin su balansı 34–35 kubkilometr təşkil edir ki, bunun da 72 faizi ölkə hüdudlarından kənarda formalaşır. İsti və quraqlıq dövrlərdə bu göstərici hətta 23 kubkilometrə qədər enir. Hər il 3–4 milyard kubmetr keyfiyyətli içməli və suvarma suyu itirilir.

Kür çayı ölkənin "həyat damarı" sayılsa da, səviyyəsi rekord həddə düşüb. Kür çayında suyunun azalmasının səbəblərini bir neçə yerə ayırmaq olar. Ən başlıca amil Kürün transsərhəd çay olmasıdır. Bu da onu göstərir ki, xarici ölkələrin ərazisində, xüsusilə Türkiyə, Gürcüstan, Ermənistanda Kür və onun qollarından çoxlu miqdarda su götürülür.

İkinci səbəb isə Azərbaycanda suya olan tələbatın dəfələrlə artması, nəzərdə tutulmayan su israfıdır. Əkilən və suvarılan torpaqların sahəsi təxminən 2 milyon hektar civarındadır. Nəzərə alaq ki, 2010-cu ildə Azərbaycanda yalnız 1 milyon hektar ərazi suvarılırdı. Bu, təbii ki, suya olan tələbatın artmasına, Kürdə suyun azalmasına səbəb olur.

Təkcə Kür və Araz deyil, həm də Qusarçay, Qudyalçay, Tərtərçay, Həkəri və Kiş çayı kimi mənbələrdə də suyun səviyyəsi xeyli azalıb. İqlim dəyişikliyi, meşələrin qırılması, çay yataqlarında qanunsuz bəndlərin tikilməsi, suyun qeyri-qanuni yönləndirilməsi və idarəetmədəki səhlənkarlıq bu tənəzzülün əsas səbəbləridir.

Mütəxəssislər bildirirlər ki, problemin həlli təkcə suyun bahalaşdırılması və ya cərimələrlə mümkün deyil, həyata keçirilməli əsas tədbirlər var. Onlar isə aşağıdakılardır:

– Dağ və yarımsəhra zonalarında kiçik və orta həcmli su anbarlarının yaradılması;

– çayların mühafizəsi və qanunsuz bəndlərin, qum-çınqıl hasilatının qarşısının alınması;

– köhnəlmiş su kəmərlərinin yenilənməsi və itkilərin minimuma endirilməsi;

– müasir damcı və digər suvarma sistemlərinin genişləndirilməsi;

– artıq su ehtiyatı olan rayonlardan çatışmayan bölgələrə ötürmə sistemlərinin qurulması;

– təmizlənmiş tullantı sularının qeyri-içməli məqsədlərə yönləndirilməsi;

– Kür və Arazın idarəsində transsərhəd əməkdaşlığın gücləndirilməsi;

– elmi və innovativ texnologiyaların tətbiqi.

Eyni zamanda, paytaxt Bakının ətrafında kifayət qədər yeraltı su ehtiyatı mövcuddur. Lakin bu suların əksəriyyəti Xəzərə axır. Onların istifadəsi həm iqtisadi baxımdan səmərəlidir, həm də dəniz suyunun duzsuzlaşdırılmasından daha sərfəlidir. Bununla yanaşı, duzsuzlaşdırma texnologiyası da perspektivlidir. İsrail təcrübəsində olduğu kimi, Xəzər suyunun kimyəvi və mexaniki təmizlənməsi texniki məqsədlərlə istifadə oluna bilər.

Su böhranı Azərbaycanın qarşısında enerji təhlükəsizliyi qədər, bəlkə də daha ciddi bir problemdir. Əgər bu gün elmi əsaslı və kompleks tədbirlər görülməzsə, yaxın illərdə ölkə daha ağır ekoloji və sosial-iqtisadi fəsadlarla üz-üzə qalacaq. Bu məsələ yalnız dövlətin deyil, hər bir vətəndaşın, icmanın və bütövlükdə cəmiyyətin məsuliyyətidir.

Su təkcə təbii sərvət deyil, həm də milli varlığın və strateji gələcəyin təminatıdır. Ümumdünya Resurslar İnstitutunun məlumatına görə, 36 ölkə artıq yüksək su stressi şəraitində yaşayır və bu o deməkdir ki, suya olan tələbat mövcud ehtiyatları aşır. Dünya əhalisinin sürətli artımı isə bu məhdud resurslara təzyiqi daha da artırır. İqlim dəyişiklikləri bəzi regionlarda ekstremal nəticələr doğurur, bir bölgəyə çoxlu yağış düşür, digəri isə daha da quraqlığa məruz qalır.

BMT-nin hesabatlarında su çatışmazlığının mümkün həll yolları sırasında bəndlər və anbarların yaradılması, yağış sularının toplanması, effektiv su kəmərləri, duzsuzlaşdırma qurğuları, təkrar istifadənin genişləndirilməsi və suyun qənaətli istifadəsi xüsusi yer tutur. Baham adaları, Malta və Maldiv kimi ölkələr bütün su ehtiyaclarını duzsuzlaşdırma ilə qarşılayır. Səudiyyə Ərəbistanı isə 34 milyonluq əhalisinin içməli su ehtiyacını, təxminən, 50 faizini bu üsulla təmin edir. BMT-nin Ətraf Mühit Proqramı bu modelləri yeni çağırışlara cavab olaraq təqdim edir.

***Samir ƏSƏDLİ,***
***siyasi ekspert***

*Qlobal ekoloji fəlakət*

# Xəzər sürətlə kiçilir, canlı aləm sağalmaz zərbə alır

***Yad daxilolmalar da dənizin ekosisteminə təhlükə yaradır***

**Son dövrlərdə Xəzər dənizinin sahilboyu ərazilərində ciddi landşaft və ekoloji dəyişikliklər baş verir. Bu təsir dənizin şimal-şərqində deyil, həm də Azərbaycan ərazisində, Neftçala–Ələt sahillərində də müşahidə olunur.**






Elm və Təhsil Nazirliyi, Coğrafiya İnstitutunun apardığı tədqiqatlar nəticəsində məlum olub ki, Xəzər dənizinin Qoltuq körfəzində su səviyyəsi 15–2 kilometr geri çəkilib. Bu dəyişikliklər ekosistemlər üzərində ciddi fəsadlar yaradır və dənizin sahil bölgəsindəki landşaft strukturlarının yenidən formalaşmasına səbəb olur. Sahil bölgəsindəki ekosistemlərdəki dəyişikliklər suyun keyfiyyətinə də təsir edir. Məsələn, Sara adasının şərqə doğru 2,5 kilometr genişlənməsi, Bala Qızılağac körfəzinin səthinin isə yarıdan çoxunun yosunlarla örtülməsi nəticəsində suyun keyfiyyəti kəskin şəkildə pisləşib. Bu vəziyyət dəniz canlılarının inkişafı üçün əlverişsiz hala gəlib və nəticədə akval ekosistemlərində ciddi pozulmalar baş verib. Yosunların artması suyun oksigen miqdarını azaldıb və sualtı həyatın tənəzzül etməsinə səbəb olub.

Sahilboyu ərazilərdəki geriləmə müxtəlif intensivliklərdə baş verir. Məsələn, Astara şəhərindən Göyşaban məntəqəsinə qədər olan sahil xətti digər bölgələrlə müqayisədə daha zəif geriləyib, burada 40–50 metrdən 200–300 metrə qədər dəyişən bir geri çəkilmə vatr. Lakin ən güclü geriləmə Qızılağac körfəzi rayonunda baş verir. Bu ərazilərdə sahil xətti ildə orta hesabla 250–300 metr geri çəkilərək ətraf mühitin yeni şəraitə uyğunlaşmasına səbəb olub. Nəticədə, kontinental rejimə keçmiş ekosistemlər tədricən ətli-şorangəli və şoranotlu yarımsəhra əraziləri ilə əvəz olunmağa başlayıb. Bu ərazilərdə ekosistemlər ciddi şəkildə dəyişib, yulğunlu və lığvərli bitki örtükləri meydana gəlib.

Yosunlar yalnız Azərbaycan sahillərində artaraq biokütləyə təsir etmir. Bu bəla həm də Xəzərin digər sahilyanı ölkələrində də müşahidə olunur. Artıq Xəzər dənizində bioloji çirklənmə və ekosistemin pozulması, bu ərazinin təbii tarazlığını təhdid edən ciddi bir problemə çevrilib. Narahatlıq doğuran məsələlərdən biri də invaziv fitoplankton növlərinin yayılmasıdır. Xüsusilə, "Ceratium tripos var" adlı dinofit (birhüceyrəli, nadir hallarda çoxhüceyrəli orqanizmlərdir) yosunu son dövrlərdə Xəzər dənizində böyük sürətlə yayılır. Bu yosun Xəzərdə yad orqanizmdir. İlk dəfə Qızıl–Uzen–Melovaya bölgəsində, 10 metr dərinlikdə aşkar olunmuşdu. O dövrün monitorinqində hüceyrə sayı çox aşağı idi. Hər nümunədə yalnız 3-10 hüceyrə mövcud idi. Lakin bu ilin yaz aylarına yaxın yosunun yayılma miqyası və sıxlığı kəskin şəkildə artıb və artıq Orta və Şimali Xəzərdə bu yosunun konsentrasiyası hər nümunədə 200 hüceyrəyə qədər yüksəlib. Həmçinin, bu yosun 520 metr dərinlikdə də müşahidə olunub. Bu göstəricilər, yosunun fəal şəkildə böyüdüyünü və ekosistemin daxilində ciddi dəyişikliklərə səbəb ola biləcəyini göstərir.

Bu yeni tapıntı, ekosistem mütəxəssislərində ciddi narahatlıq doğurur. Çünki "Ceratium tripos var" yosunu iri ölçülərə malikdir və qeyri-yerli mənşəli olduğuna görə, yerli zooplankton növləri tərəfindən qida olaraq istifadə edilmir. Bu vəziyyət, Xəzər dənizindəki təbii qida zəncirinin pozulmasına səbəb olur. Bu cür ekoloji dəyişikliklər tarixi olaraq da presedentə malikdir. Yada salaq ki, 1934-cü ildə Xəzər dənizində yayılmağa başlayan iri ölçülü başqa bir yosun növü də zooplanktonların qidalanmasını çətinləşdirmiş və bu səbəbdən balıq populyasiyalarında ciddi azalma müşahidə olunmuşdu.

Əgər "Ceratium tripos var" yosunun yayılması bu templə davam edərsə, zooplanktonların biokütləsinin azalması qaçılmaz olacaq. Bu da öz növbəsində, xırda balıqların və iri balıq növlərinin balalarının qidalanma ehtiyatlarını məhdudlaşdıracaq. Nəticədə, dəniz ekosistemindəki balans pozulacaq və Xəzər dənizinin sahilindəki balıqçılıq təsərrüfatlarında da iqtisadi itkilər baş verə bilər.

Onu da qeyd edək ki, dinofit yosunların inkişafı əsasən isti mövsümdə sürətlənir, bu da onların yay aylarında daha da genişlənməsi ehtimalını artırır. Mütəxəssislər, yaxın gələcəkdə bu invaziv fitoplankton növünün Xəzər dənizinin plankton sisteminə və ümumilikdə bioloji tarazlığa nə dərəcədə təsir göstərəcəyini müəyyən etmək üçün genişmiqyaslı tədqiqat və monitorinq işlərini davam etdirirlər.

Alimlər bildirirlər ki, Xəzər dənizində baş verən digər bir təhlükə də başqa yad orqanizmlərlə bağlıdır. Belə ki, Volqa–Don kanalı vasitəsilə Azov–Qara dəniz hövzəsindən gələn yad növlər, xüsusən də meduzalar, Xəzər dənizinin canlıları üçün ciddi təhdidlər yaradır. Türkmənistan sahilində bu meduzalar, "Aurelia aurita" və "Mnemiopsis leudyi" növləri çoxalmağa başlayıb və bu, yerli balıqların qida zəncirinə mənfi təsir göstərib. Meduzalar, xüsusilə kilkə ilə qidalanırlar və bu, kilkə populyasiyasının azalmasına səbəb olur. Kilkə ilə qidalanan digər su heyvanlarının sayı da bu azalma ilə birlikdə azalır. Nəticə etibarilə, bu növlərin çoxalması Xəzər dənizində bioloji müxtəlifliyin pozulmasına gətirib çıxarır və yerli növlərin qida mənbələrini azaldır.

Yad orqanizmlərin Xəzər dənizinə daxil olması yalnız bioloji müxtəlifliyi deyil, yuxarıda qeyd etdiyimiz kimi həm də suyun kimyəvi və fiziki xüsusiyyətlərini dəyişdirə bilir. Suyun oksigen səviyyəsini azaldır və nəticədə balıqların və digər dəniz canlılarının kütləvi tələfinə səbəb olur. Bununla yanaşı, belə növlər toksik maddələr istehsal edərək suyun keyfiyyətini pisləşdirir. Bütün bunlar Xəzər dənizindəki ekosistemi ciddi şəkildə təhdid edir.

Xəzər dənizində bu cür ekoloji dəyişikliklərə yol açan başqa bir səbəb də suyun temperaturunun artması və nəticədə oksigen çatışmazlığıdır. Artan istilik, xüsusən də paytaxt yaxınlığındakı dayaz və kurort zonalarında, balıqların kütləvi tələfinə səbəb olur. Araşdırmalar göstərir ki, suyun temperaturunun yüksəlməsi ilə oksigen səviyyəsi normadan aşağı düşüb. Bu ilin yayında, əvvəlki illərlə müqayisədə balıqların tələfi daha erkən başlayıb. Suyun oksigen səviyyəsinin normadan kəskin şəkildə aşağı düşməsi, balıqların tələfinin artmasına səbəb olub. Ölü balıqların sahilboyu yığılması və ətraf mühitə yayılan kəskin qoxular sosial şəbəkələrdə geniş yayılıb. Belə bir hadisə, bu yaxınlarda Türkan sahilində baş vermişdi.

Aydındır ki, yaranmış vəziyyət Xəzər dənizinin ekosistemindəki dəyişikliklərə dair ciddi narahatlıqlara səbəb olur. Mütəxəssislər bildirirlər ki, invaziv yosunların və digər yad növlərin qarşısını almaq, Xəzər dənizinin təbii bioloji müxtəlifliyini qorumaq üçün davamlı monitorinqin və vaxtında elmi müdaxilələrin həyata keçirilməsi vacibdir. Əks halda, Xəzər dənizinin zəngin bioloji müxtəlifliyi və bölgənin iqtisadi rifahı böyük təhlükə altına düşə bilər. Bu, həm də ətraf mühitin davamlı qorunması üçün kompleks tədbirlərin həyata keçirilməsinin vacibliyini önə çıxarır.

***Ə. PÜNHAN***
***XQ***

# Mədəniyyət elmdən güc alır




**Azərbaycan azsaylı ölkələrdəndir ki, burada mədəniyyətin bütün sahələri dövlətin davamlı diqqət və qayğısı ilə əhatə olunur, onun qorunması, inkişafı və sistemli təbliğatına xidmət edən mühüm işlər görülür.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM) də öz fəaliyyətini məhz bu istiqamətdə qurub. 2025-ci ilin ilk yarısında mərkəz tərəfindən paytaxtla yanaşı, bölgələri də əhatə edən diqqətəlayiq silsilə layihə və tədbirlər reallaşdırılaraq tariximizin, elm və incəsənətimizin, sənət və sənətkarlığın peşəkar səviyyədə təbliğinə nail olunub.

Ötən dövr ərzində milli və beynəlxalq əhəmiyyətli əlamətdar tarixi günlər, qan yaddaşı və tanınmış şəxsiyyətlərin yubileyinə həsr olunan tədbirlər keçirilib. Tədbirlərdə mərkəzin əməkdaşları ilə bərabər, müvafiq qurumlardan mütəxəssislərin də iştirakı təmin edilib.

MEMİM-in "Mədəniyyət rüzgarı" layihəsi və bu çərçivədə təşkil olunan "Mədəni irsini qoru" infoturu maraqlı layihələrdəndir. Mərkəzlə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, AMEA-nın Tarix və Etnologiya İnstitutu, Gənclər Fondu və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının birgə dəstəyi ilə həyata keçirilib. Əsas məqsəd tarixi-mədəni irsin mühafizəsi ilə bağlı müxtəlif tədbirlər, bərpa və konservasiya işləri, praktiki biliklərin artırılması, milli kadr potensialının gücləndirilməsinə töhfə verməkdir. Layihə çərçivəsində Bakıdakı Zəngərpalan hamamına və qədim Gəncəyə ekskursiyalar təşkil olunub.

Dövrümüzün sənətkarları sələflərinin yolunu layiqincə davam etdirərək həm öz ustadlarının ənənələrini yaşadır, həm də sənətdə yeni cığırlar açırlar. MEMİM-in belə layihələri sırasında "Sənətkarın dostu" xüsusi maraq doğurur. Layihə gənclərin tanınmış bir mədəniyyət xadiminin sənət dünyasına səyahətini nəzərdə tutur. Bu, estetik zövqün formalaşması və sənətə münasibətin peşəkar səviyyədə inkişafına təkan verir. Cari ilin 6 ayı ərzində xalq artistləri – xoreoqraf Rüfət Xəlilzadə



və bəstəkar Salman Qənbərovla Bakıda, xanəndə-pedaqoqlar Zabit Nəbizadə ilə Qax rayonunda, Mələkxanım Eyubova ilə Şamaxıda, Teyyub Aslanovla Gəncədə maraqlı görüşlər təşkil edilib. Onlar ustad-tələbə münasibətləri, ifaçılığın sirləri barədə fikirlərini bölüşüb, tamaşaçılara unudulmaz sənət zövqü yaşadıblar.

Teatrın cəmiyyətdə təbliğinə də önəm verilir. "Nəsildən nəslə teatr" layihəsi bu baxımdan dəyərli təşəbbüsdür. Əməkdar artist, rejissor, aktyor Nicat Kazımovun iştirakı ilə Bakıda, Xalq artisti, aparıcı səhnə ustası Nurəddin Mehdixanlının iştirakı ilə Gəncədə uğurla gerçəkləşən seminarlar böyük maraqla qarşılanıb.

Mərkəzin teatrla bağlı ötən ildən təşkil etdiyi daha bir layihə "Regionlarda peşəkar teatr dərsləri"dir. Qazax Dövlət Dram Teatrında reallaşan təlimdə rejissor Ceyhun Dadaşov və teatrşünas, MEMİM-in əməkdaşı Dağlar Yusif səhnə sənəti ənənələri və çağdaş teatr estetikası ilə bağlı fikirlərini diqqətə çatdırıblar. Qaxda keçirilən növbəti təlim isə Əməkdar artist, pedaqoq Qasım Nağı və Dağlar Yusifin iştirakı ilə baş tutub.

"Aktyorluğu öyrən" layihəsi də böyük maraqla qarşılanır. MEMİM və Azərbaycan İncəsənət Məktəbinin təşkilatçılığı ilə həyata keçirilən layihənin əsas məqsədi azyaşlı, yeniyetmə və gənclərdə teatr, eləcə də kino sənətinə marağın artırılması, aktyorluq sənəti üzrə ilkin biliklərin onlara öyrədilməsidir. Layihə üzrə Pərvin Nurəliyevanın "Cırtdanino" və Aleksandr Volkovun "Zümrüd şəhərinin sehrbazı" əsərləri əsasında tamaşalar nümayiş olunub.

MEMİM-in diqqətçəkən layihələri sırasında "Ustad dərsləri"nin də xüsusi yeri var. Layihə uşaq musiqi və incəsənət məktəblərində təhsil prosesinin peşəkar səviyyədə qurulması, bu sahədə fəaliyyət göstərən müəllimlərin, eləcə də şagirdlərin bilik səviyyəsinin artırılmasını təmin etməkdən ibarətdir. Layihə üzrə Bakı və Gəncə şəhərlərində, Sabirabad və Siyəzən rayonlarında gerçəkləşən ustad dərsləri tanınmış ifaçı və pedaqoqlar tərəfindən aparılıb. Üzeyir Hacıbəylinin Ev-Muzeyində keçirilən ustad dərsi xüsusilə əlamətdar olub. MEMİM və "Mədəni Əlaqələrin İnkişafına Dəstək" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən ustad dərsində italyan pianoçu Elena Chiaveqato da iştirak edib.

"Ustad dərsləri" layihəsi ilə yanaşı, MEMİM tərəfindən müxtəlif sahələri əhatə edən təlim kursları da təşkil olunur. Buna misal olaraq, kitabxana və muzey əməkdaşları üçün Bakıda və Gəncədə keçirilən təlimləri qeyd edə bilərik.

İlin əvvəlindən MEMİM-in əməkdaşları uşaq musiqi və incəsənət məktəbləri üçün tədris proqramlarının hazırlanmasında da iştirak edib, bu məktəblərin müəllimlərinin peşə, səriştə və bacarıqlarının ölçülməsi məqsədilə həyata keçirilən attestasiya prosesinə də yaxından dəstək veriblər.

MEMİM-in dəstəyi və tərəfdaşlığı ilə Beynəlxalq Muğam Mərkəzində "Milli mənəvi dəyərlərimiz Qərbi Azərbaycan qaynaqlarında", Azərbaycan Bəstəkarlar İttifaqında "Heydər Əliyev və Azərbaycan mədəniyyəti", Gəncə Dövlət Universitetində "Musiqidə milli ənənələrin təcəssümü" mövzularında elmi-praktiki seminarlar keçirilib. Bu və digər tədbirlər MEMİM-in media orqanları və televiziyalarla uğurlu əməkdaşlığı ilə də təmin edib. Layihələr üzrə işlər mətbuatda geniş işıqlandırılıb.

Qarşıda isə mədəniyyətimizin inkişafına xidmət edəcək yeni hədəflər var...

***Sədaət TƏHMİRAZQIZI,***
***MEMİM-in metodiki iş sektorunun mütəxəssisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi***

# Soydaşımızın adı kosmik xəritədə

**Beynəlxalq Astronomiya İttifaqının (BAİ) qərarına əsasən, kiçik planetlərdən birinə məşhur astrofizik alim, fizika-riyaziyyat elmləri namizədi Faiq Musayevin adı verilib.**

Hərəkət zonası Mars və Yupiter planetlərinin arasındakı asteroid qurşağı olan bu kiçik planeti 14 il əvvəl astronomlar Timur Kryaçko və Boris Satovski Zelençuk stansiyasında kəşf ediblər.

Soydaşımız Faiq Musayev 1981-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) fizika fakültəsini bitirdikdən sonra gənc mütəxəssis kimi Kosmik Tədqiqatlar İnstitutunda əmək fəaliyyətinə başlayıb.

Bir il sonra Şamaxı Astrofizika Rəsədxanasında elmi işçi vəzifəsinə işə qəbul edilib. Burada uzun illər elmi fəaliyyətlə məşğul olmuş alim, 1992-ci ildə dünyanın ən məşhur astrofizika mərkəzlərindən biri olan Rusiya Elmlər Akademiyasının (REA) Xüsusi Astrofizika Rəsədxanasında (XAR) dissertasiya işini uğurla müdafiə edərək elmlər namizədi dərəcəsini alıb.



Sonra elə orada elmi fəaliyyətini davam etdirib. Faiq Musayev teleskoplar üçün spesifik elektron işıqqəbuledicilərinin yığılması ilə bağlı böyük təcrübə qazanıb, optik cihazların yığılmasında yüksək dərəcəli eksperimentator-spektroskopist kimi özünü təsdiq edib. Onun Rusiya, Polşa, Bolqarıstan və Türkiyə rəsədxanalarındakı teleskoplar üçün yığdığı cihazlar böyük uğurla sınaqdan keçib və özünü doğruldub. Alimin hazırladığı cihazlarla alınmış yüksək keyfiyyətli müşahidə materialları əsasında müxtəlif müəlliflər maraqlı nəticələr alıblar.

Baş elmi işçi olan soydaşımız Rusiya EA-nın XAR-ında kollektivin dərin hörmətini qazanmışdı. Şamaxı Astrofizika Rəsədxanası ilə əlaqələrin genişləndirilməsində, rəsədxana teleskoplarında qurulan optik cihazların hazırlanmasında da xüsusi xidmətləri olub. Təəssüf ki, Faiq Musayev 4 il əvvəl ağır xəstəlikdən dünyasını dəyişib.

Həmkarları tapılan asteroidə onun adının verməklə xatirəsinə dərin ehtiramlarını ifadə ediblər.

***XQ***

# "Günərzi" Qayğı Mərkəzi

**Masallı rayonunda sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün ölkə rəhbərliyinin dəstəyi sayəsində müasir tələblərə uyğun, nümunəvi yaşayış və reabilitasiya şəraiti yaradılmaqdadır. Yerli rəhbərlik də sağlamlıq imkanları məhdud uşaqları diqqətdə saxlayır.**

Rayon icra hakimiyyətinin başçısı Araz Əhmədov, aparatın əməkdaşları və media nümayəndələri burada ötən il yaradılmış "Günərzi" Qayğı Mərkəzində dövlətin və cəmiyyətin həssas münasibətinə ehtiyac duyan balaca soydaşlarımızı növbəti dəfə ziyarət ediblər.

Sözügedən mərkəz şəhərin Dadva küçəsində fəaliyyət göstərir. Burada aztəminatlı və valideyn himayəsində məhrum olmuş onlarla uşaq gün ərzində isti münasibətlə, mehriban davranışla əhatə edilib. Hər gün saat 8-də mərkəzə gələn balaca fidanlara burada 2 dəfə isti yemək, çay süfrəsi arxasında növbənöv şirniyyat, həbelə meyvə və kompot verilir. Eyni zamanda, mərkəzdə uşaqlar korreksiya, abilitasiya, reabilitasiya və s. xidmətlərlə, psixoloji dəstəklə təmin olunublar. Bayramlarda isə sevinc dolu anlar, maraqlı oyunlar, rəngarəng çıxışlar və unudulmaz sürprizlər yer alır.

Qonaqlar uşaqlar üçün yaradılmış şəraitlə yerində tanış olub, onların sağlamlıq durumu və sosial vəziyyəti ilə yaxından maraqlanıblar. Uşaqların müxtəlif oyuncaqlarla əylənməsi üçün xüsusi yerin ayrılması, yataq otağında temiz, müasir çarpayılar qoyulması, gigiyena qaydalarına ciddi əməl olunması razılıq doğurub. Ra-



yon rəhbərliyi onlara qiymətli hədiyyələr təqdim edib.

Mərkəzin kollektivi göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını ifadə ediblər.

***Ə.ƏLİYEV***
***XQ***

*Əlibaba Abdullayev – 110*

**Ötən əsrdə yaşayıb mədəniyyətimizə töhfə verən çox böyük şəxsiyyətlər var ki, bu gün adlarını çəkmək yada düşmür. Onlardan biri xoreoqraf, Xalq artisti Əlibaba Abdullayevdir. Musiqimizə, onun ayrılmaz qolu olan milli rəqsin inkişafına böyük töhfələr vermiş Əlibaba Abdullayevin bu il 110 yaşı tamam olur.**



# Rəqsi sənətə çevirən sənətkar

Uşaq yaşlarından onun musiqiyə, incəsənətə olan həvəsi Əlibabanı İbrahim Əbilov adına Mədəniyyət Mərkəzinə gətirib. O, buradakı rəqs qrupunun üzvü olub.

1935-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəylinin yaratdığı Azərbaycan Dövlət Filarmoniyasının rəqs ansamblına seçilib və 1 il sonra Bakıda keçirilən I Azərbaycan Xalq Rəqsləri Festivalında çıxışı ilə fərqlənə bilib. Üzeyir bəy öz qeydlərində Əlibaba Abdullayevin musiqinin ritmini dərindən duyduğunu vurğulayaraq əlavə edib ki, onun rəqsləri tamaşaçıda səslənən melodiyanın əyani təsvirini canlandırır.

Tanınmış jurnalist, kinoşünas Aydın Kazımzadənin yazdığına görə, Əlibaba Abdullayevin sənəti Üzeyir Hacıbəylinin müşahidəsi və dəstəyi ilə püxtələşib, inkişaf edib və yaradıcılıq zirvəsinə çatıb. O, 1938-ci il aprelin 5-də Qəmər Almaszadənin rəhbərlik etdiyi ansamblla birlikdə Moskvada keçirilən I Azərbaycan İncəsənət Dekadasında iştirak edərək Böyük Opera və Balet Teatrının səhnəsində "Qaytağı" rəqsi ilə salonu ayağa qaldırıb. Azərbaycan incəsənətinin canlı və möhtəşəm mənzərəsinə rəng qatıb. Beləcə, Əlibaba Abdullayev yaradıcılıq sınaqlarından çıxaraq özünə böyük sənətdə yol açıb.

1941-ci ildə ansamblın rəqs qrupunun rəhbərliyinə irəli çəkilən xoreoqraf həmin ilin payızında İranda sovet qoşunları qarşısında konsertlərdə iştirak edib. İkinci Dünya müharibəsi illərində ön və arxa cəbhədə çıxışları olub. Üzeyir Hacıbəylinin "Vətən və cəbhə" kantatasının hazırlanması məhz Əlibaba Abdullayevə həvalə edilib. O, müharibə illərində "Dədə Qorqud" vətənpərvərlik marşının da rejissoru və mahir ifaçısı olub.

1943-cü ildə Əməkdar artist fəxri adına layiq görülən Əlibaba Abdullayev Səməd Vurğun, Bülbül, Ələsgər Ələkbərov, Qurban Pirimov və başqalarının da daxil olduğu azərbaycanlılardan ibarət 416-cı atıcı diviziyanın hərbi qulluqçuları qarşısında çıxış edib.

Müharibədən sonra bəstəkar Süleyman Ələsgərovdan Cəlil Məmmədquluzadə adına Musiqili Komediya Teatrında işləməklə bağlı dəvət alıb. Burada o, Fikrət Əmirovun "Gözün aydın", Süleyman Ələsgərovun "Beş manatlıq gəlin", Viktor Dolidzenin "Keto və Kote" operettalarının səhnələşdirilən tamaşalarında həm rol ifaçısı, həm də rəqs quruluşçusu kimi çıxışlar edib. 1947-ci ildə Çexoslovakiyada keçirilən I Ümumdünya Gənclər Festivalı ərəfəsində yenidən Azərbaycan Dövlət Filarmoniyasının rəqs kollektivinə qayıdıb. Solist kimi çıxış edib və festival laureatı diplomuna layiq görülüb. 1957-ci ildə Moskvada keçirilən VI Gənclər və Tələbələr Festivalında isə konsert proqramını tərtib edib, eləcə də özünün rejissoru və ifaçısı olduğu rəqslərə quruluş verib. Bu festivalda 4 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıb. Daha 2 il sonra Xalq artisti fəxri adına layiq görülüb.

Əlibaba Abdullayev Azərbaycan Dövlət Musiqili Komediya Teatrının səhnəsində Üzeyir Hacıbəylinin "Arşın mal alan", Süleyman Ələsgərovun "Ulduz", Səid Rüstəmovun "Durna", Soltan Hacıbəyovun "Qızıl gül" əsərlərinin tamaşaları üçün rəqsləri hazırlayıb. Onun yaradıcılığında süjet kompozisiyaları mühüm yer tutub. "Dostluq", "Şənlik", "Neftçilər", "Məhsul" rəqs süitalarının, eləcə də "Ovçular", "Balıqçılar", "Futbolçular" və s. orijinal rəqslərinin səhnələşdirilməsi ilə yanaşı, rəqs ansamblların tamaşalarının kütləvi səhnələrinin quruluşunda da iştirak edib. Naxçıvan, Lənkəran, Gəncə şəhərlərində təkcə peşəkarların deyil, həm də həvəskar incəsənət xadimlərinin iştirakı ilə rəqslər və xoreoqrafik nömrələr nümayiş etdirib.

Bəstəkarlar Üzeyir Hacıbəyli, Süleyman Ələsgərov, Tofiq Quliyev, Cahangir Cahangirovla əməkdaşlığı sayəsində o, tarixi xalq rəqslərini toplayıb, rəqs ritmlərindən istifadə edərək onlar üçün yeni tamaşalar yaradıb. "Ovçular", "Bənövşə", "Bulaq başı", "Bahar", "Ay gözəl", "Qazağı", "Məzəli rəqs", "Qaytağı", "Gəlin tərifi" və "Nağaraçılar" kimi xalq rəqslərinin səhnələşdirilməsi Əlibaba Abdullayevin adı ilə bağlıdır. Qızı Elmira Abdullayevanın xatirələrinə görə, o, daim öz üzərində işləyər, zəruri ədəbiyyatı öyrənər, gecələr



kağız üzərində rəqs tamaşalarının eskizlərini, rəsmlərini yaradar, eyni zamanda öz-özünə mahnı oxuyardı.

Yeri gəlmişkən, Əlibaba Abdullayevin yaxşı səsi olub. Onun Leyla Bədirbəyli və Tutu Həmidova ilə birgə, eləcə də Roza Cəlilova ilə mahnı və rəqs ifalarının səs yazıları Azərbaycan radiosunun "Qızıl fond"unda saxlanılır. Xoreoqraf, aralarında Bədurə Əfqanlı, Reyhan Topçubaşova, Kazım Kazımzadə, Əyyub Fətəliyev və başqalarının da olduğu teatr xadimləri ilə yaradıcı əməkdaşlıq edib, hər rəqs üçün ayrı-ayrılıqda xalq geyimlərinin eskizlərini yaradıb, bu geyimlərin tikilməsində istifadə olunan parçaları da özü seçib.

Rəqsimizin korifeyi kinematoqrafiya sahəsində də çalışıb, "Görüş", "O olmasın, bu olsun", "Əhməd hardadır?", "Sehrli xalat", "Dəli Kür", "Ulduzlar sönmür" kimi bədii filmlərdə həm fərdi, həm də kollektiv rəqsləri canlandırıb. Bir sıra sənədli filmdə də Əlibaba Abdullayevin quruluş verdiyi rəqslərdən istifadə edilib. Aydın Kazımzadə yazır ki, o, rejissor, rəqqas və rəssamlığı özündə birləşdirib və rəqs üçün yaşayıb. İncəsənət İnstitutunda və Bakı Xoreoqrafiya Məktəbində dərs deyib.

Yaradıcılığı boyunca 200-dən artıq rəqsə quruluş verən, tanınmış Azərbaycan xalq rəqqası və xoreoqrafı, Xalq artisti Əlibaba Abdullayev 1980-ci ilin avqustunda vəfat edib. 2015-ci ildə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında onun 100 illik yubileyinə həsr olunan konsert keçirilib. Konsertdə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının, Bakı Xoreoqrafiya Akademiyasının və Azərbaycan Dövlət Uşaq Filarmoniyasının kollektivləri çıxış ediblər.

Bakının "Kubinka" adlanan ərazisində küçələrdən birinə Əlibaba Abdullayevin adı verilib. 1940–1980-ci illərdə yaşadığı və onun adını daşıyan küçədə yerləşən evin divarında barelyefinin əks olunduğu xatirə lövhəsi var. Həyat və yaradıcılığından bəhs edən "Sənəti böyüdən sənətkar" adlı sənədli film çəkilib.

***Ə.DOSTƏLİ***
***XQ***

# Yas süfrələri: ənənə, yoxsa israfın adiləşməsi?



**Azərbaycan cəmiyyətində yas mərasimləri qədimdən bəri kollektiv həmrəylik, mərhəmət və dəstəyin ifadəsi kimi qəbul olunub. Lakin son illər bu mərasimlərin forma və məzmununda ciddi dəyişikliklər müşahidə edilir. Əslində kədərin, hüznün yaşanmalı olduğu bu məqamlar, təəssüf ki, getdikcə təmtəraqlı ziyafət masaları, gözqamaşdıran menyular, bir-birindən baha ətirli yeməklər, çoxsaylı ofisiant və servis xidmətləri ilə müşayiət olunmağa başlayıb. Yas yox, sanki toy təəssüratı yaradan bu süfrələr artıq cəmiyyətdə narahatlıq doğurur.**

## Samux nümunəsi

Samux rayonunda ictimai razılaşma və yerli icra strukturlarının təşəbbüsü ilə yas mərasimlərində yemək verilməsi 5 aydır ki, aradan qaldırılıb, yaxud ciddi şəkildə məhdudlaşdırılıb. Samuxda bu proses dini icmanın dəstəyi, yerli ağsaqqalların rolu və əhalinin anlayışı ilə olduqca sakit və ardıcıl şəkildə aparılıb. İlk olaraq rayon mərkəzində, sonra digər kəndlərdə ehsan süfrələri yığışdırılıb. Yas mərasimində yalnız halva, çay, bəzən də pendir və göyərti qoyulur, vəssalam.

Yas mərasimlərinin 3 günlə məhdudlaşdırılması, sadəcə, çay və xurma ilə kifayətlənilməsi təşəbbüsü rayonda və ətraf bölgələrdə geniş ictimai dəstək qazanıb.

Hazırda bu model Şəmkir, Goranboy, Tovuz və Gədəbəy rayonlarında da tətbiq olunmağa başlayıb. Bəzi yerlərdə məscid imamları cümə xütbələrində bu məsələyə toxunur, rayon icra nümayəndəlikləri və bələdiyyələr maarifləndirmə işləri aparır. Əksər şəhər və rayonlar Samuxdakı kimi hamısı tam əhatə olunmasa da, ayrı-ayrı kənd və qəsəbələrində bu təşəbbüsə qoşulanlar var.

## Qorxu, töhmət və rəqabət

Yas süfrələrinin geniş vüsət almasının bir neçə səbəbi var. Əvvəla, insanlar düşünür ki, yemək verməsələr, qonum-qonşu "xəsislik" kimi başa düşəcək. Burada, necə deyərlər, mənasız bir sosial rəqabət də var. Biri 300 nəfərlik yas verirsə, digəri 500 nəfər çağırmaqla "artıq etdiyi"ni sübut etmək istəyir.

Bəzən kənardan, məhz ətrafdan gələn "bir çayla yola verməzlər" fikirləri də ailələri məcbur edir. Adamın yaxınını itirdiyi bir anda, o, cəmiyyətdən qopur və qərar verməkdə aciz qalır. Bu boşluqdan istifadə edən bəzi "təşkilatçılar" həmin məclisləri gəlir mənbəyinə çevirirlər. Nəticədə ağır dərd yaşayan insanlar, bir də israf və maddi borclarla üz-üzə qalırlar.

## Dini baxış nə deyir?

İslam dini bu məsələdə çox aydın və birmənalı mövqe ortaya qoyur: yası ailə verməməlidir, əksinə, ailəyə yemək aparılmalıdır. Bu, həm Peyğəmbər (s.ə.s) sünnəsində, həm də şiə mənbələrində geniş yer alır. Qafqaz Müsəlmanları İdarəsi (QMİ) dəfələrlə bəyan edib ki, yas süfrələrinin təmtəraqlı şəkildə təşkili dinə ziddir və ailənin vəziyyətinə zərər vurur.

QMİ-nin sədri Hacı Allahşükür Paşazadə bu məsələdə öz çıxışlarında dəfələrlə demişdir: "Yas mərasimlərində israf haramdır. Qardaş acından ölür, sən isə orada 10 növ plov verirsən? Bu, İslam deyil, özfəaliyyətdir."

## Yas süfrələri hansı qiymətə başa gəlir?

Sadə bir orta statistik hesablamaya görə, 300 nəfərlik yas süfrəsi 3 gün boyunca orta hesabla 5000–7000 manat xərc tələb edir. Xüsusi hallarda çadır, servis, ofisiant, menyu bolluğu ilə bu rəqəm 10 min manatı da keçə bilər. Bütün bunlar təqaüd, maaş və ya kreditlə yaşayan bir ailə üçün dözülməz yükdür.

Əlavə olaraq, bu məclislər zamanı xərclənən ərzaq və israf olunan qida bəzən bir neçə ailənin bir aylıq ehtiyacına bərabərdir.

## Ailənin ikiqat itkisi

Bu insanlar bir tərəfdən əzizlərini itirməyin ağrısı ilə qarşılaşırlar. Digər tərəfdən məclisin təşkili, qonaqların qarşılanması, yemək-içməyin keyfiyyəti, çadırların sayı, xidmətçilərin sayı ilə məşğul olmaq məcburiyyətində qalırlar. Bu isə ailəyə əlavə bir ruhi sarsıntı gətirir. Bəzən bu səbəbdən ailə üzvlərində depressiya halları baş verir.

## Bəs biz nə etməliyik?

Yas məclislərində yemək-içməyin verilməsinə dair vahid qərar hazırlanmalı və icra olunmalıdır. Bu qərar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bələdiyyə Assosiasiyaları, QMİ, şəhər və rayon icra strukturları və ictimai təşkilatlar tərəfindən hazırlanmalıdır.

Maarifləndirmə işləri genişləndirilməlidir. Televiziya, mətbuat, sosial media, məktəb və məscidlərdə ardıcıl çağırışlar səslənməlidir. Real nümunələr göstərilməlidir.

Alternativ variantlar irəli sürülməlidir. Məsələn, yemək yerinə Quran oxutmaq, sadə xurma-çayla yola vermək təşviq olunmalı, buna əməl edənlər təqdir edilməlidir.

Nüfuzlu şəxslər və ziyalılar danışmalıdır. Jurnalistlər, müəllimlər, alimlər, din xadimləri bu məsələdə vahid mövqe ortaya qoymalıdır.

## Mərhuma hörmət xatirəsinə ehtiramdır

Böyük alimlərdən biri deyirdi: "Yas yerindəki təmtəraqlı süfrə ölüyə dua gətirmir, sağa borc gətirir".

Biz yas yerini səssizliklə, dua ilə, sadəliklə qoruyub saxlamalıyıq. Bu, həm ölüyə, həm də sağ qalanlara rəhmətdir. Gəlin bir xalq olaraq bu israfkar, mənəvi yük gətirən və bəzən riyakarlıqla müşayiət olunan adətə birdəfəlik son qoyaq.

***Hm let QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
***Əməkdar jurnalist***

**Bəşəriyyət təbiətin minillər boyu dövr edən 4 fəsildən ibarət ritmlərinə – al-əlvan çiçəkli yaza, biçinli-bəhərli yaya, sərin nəfəsli payıza, eləcə də ruhuna hüzur və dinclik gətirən qışa alışmışdı.**

# İnsanın yaratdığı "hibrid fəsil"lər

*Təbiətin ritmləri niyə pozulur?*

Həyatımız təbii olaraq bir-birini əvəz edən bu fəsillərə uyğun nizamlanmışdı. İnsan, həmçinin təqvimdəki bayramlara, əmək və istirahət günlərinə öyrəşmişdi. Təbii ki, ümidlər, xatirələr daim bəşər övladını müşayiət edib.

Lakin indi bizi əhatə edən mühitin nizamı pozulub. Təbiət sanki başqa bir dildə, çoxumuzun anlamadığımız yad dildə danışır. Acı həqiqət budur ki, insanın səbəb olduğu qlobal iqlim dəyişikliyi nəticəsində Yer üzündə yeni "fəsillər" yaranıb – bəzən dumanlı, bəzən zəhərli, bəzən də səssiz və qorxulu fəsillər...



Məsələn, Cənub-Şərqi Asiyada artıq bir neçə ildir ki, "duman fəsli" müşahidə olunur. Son illər havalar bu ərazilərdə çox quraq keçdiyindən meşə yanğınları artıb, nəticədə qalın tüstü həftələrlə göy üzünü bürüyür.

İndoneziyanın Bali adasında isə noyabrdan martadək "zibil fəsli" başlayır – okeanın gətirdiyi min tonlarla plastik tullantı sahilləri bürüyür. Bu, artıq tez-tez təkrar olunan bir hala çevrilib. Amma bunların nə yaza, nə də yaya dəxli var. Bunlar insanın "yaratdığı" və bəlkə də İlahi cəza olaraq ağır fəsadları ilə üzləşdiyi təbiət ritmləridir.

Eyni zamanda, klassik fəsillər də tədricən yoxa çıxır. Araşdırmalar təsdiq edir ki, İngiltərənin şimalında quşların çoxalma dövrü daralır. Alp dağlarında qış aylarında yağan qar azalır. Qütblərə yaxın ərazilərdə qış istiləşir, yay isə "qaynar təndirə" çevrilir.

Təbiətdəki bu anomallığı musiqidə pozulmuş ritm anlamı verən "sinkoplaşmış fəsillər" adlandırırlar. Yaz erkən gəlir, bəzən isə, ümumiyyətlə, itir. Yay ya uzanır, ya da çox gecikir. Qış əvvəlkilərdən daha qısa və fərqli olur. Təbiət bir "ritm qəzası" yaşayır. Ürəkdə aritmiya yarandığı kimi, fəsillərin də təbii ahəngi pozulur.

Bu dəyişikliklər, sadəcə, təbiətə deyil, insan həyatına da ağır təsir göstərir. Şimali Tailandda yağış dövrünün pozulması kənd təsərrüfatında məhsuldarlığı kəskin surətdə azaldır. Bu isə aclıq və maddi itkilər deməkdir.

Rusiyanın paytaxtı Moskvada bu ilin mayında yağan qar da sübut edir ki, təbiət bizi artıq xəbərdar etmir – sadəcə silkələyir. Təbiət deyir ki, mənimlə necə davransanız, adekvat münasibət görəcəksiniz. İnsan övladı çox eqoist və naşükürdür.



Bütün bu proseslərə qarşı cəmiyyət adekvat çıxış yolu axtarmaq zorundadır. Bir çox ekoloqlar təbiətin dilini tapmağı tövsiyə edirlər. Amma bunu etmək o qədər də asan deyil.

Yer kürəsi təkcə saatlarla yox, həm də günəş və ayın ritmləri, yağış və küləyin nəfəsi ilə yaşayır. Vaxt itirmədən həm hökumətlərin, həm də fərdlərin səviyyəsində təbiətlə dost olmağın, onunla harmoniyada yaşamağın yollarını tapmaq vacibdir.

Bəli, ağır fəsadları ilə üz-üzə qaldığımız "yeni fəsillər" insanın əli ilə yaranıb. Bəs onları yenidən sabitləşdirmək üçün insan nə etməlidir? Bu sual hələ də cavabını gözləyir. İnsan təbiətlə vicdanlı davranmalıdır. Yoxsa təbiətin qisasından qurtula bilmərik!

***MH ACIXANLI***
***XQ***

# Avropa Ukraynaya ABŞ-dan artıq yardım edir

**ABŞ və Rusiya prezidentləri Donald Tramp və Vladimir Putinin görüşü ərəfəsində Vaşinqton Kiyevə "praqmatik olmaq" və ordusunun real imkanlarını nəzərə almaq çağırışı edib. "Politico" nəşrinin məlumatına görə, Ağ Ev mümkün sülh sazişi üçün açıq şəkildə "qırmızı xətlər" müəyyənləşdirməkdən imtina edib. Avropa ölkələri isə Trampla görüş ərəfəsində öz şərtlərini təqdim etməyə hazırlaşır. Liderlərin danışıqları avqustun 15-də Alyaskada keçiriləcək.**



Prezident Donald Tramp Rusiya-Ukrayna müharibəsini həll etməyə çalışır. Ağ Ev də anlayır ki, üç ildən artıq davam edən hərbi münaqişəni hamını razı salacaq şəkildə yekunlaşdırmaq asan olmayacaq. Bununla belə, Vaşinqton vəziyyətə soyuqqanlı yanaşmağa və tərəflərin qarşılıqlı güzəştə getməli olacağına işarə edir. Avropa və Ukrayna isə ərazi bütövlüyü məsələsində beynəlxalq hüquqa əsaslanmağın vacibliyini vurğulayır. Rəsmi Kiyev ümumiyyətlə hər hansı bir ərazini güzəştə getməyəcəyini bildirir.

Mütəxəssislər hesab edirlər ki, ABŞ-ın Ukraynaya hərbi yardımı mühüm əhəmiyyət kəsb edir. Lakin son məlumatlar göstərir ki, Avropa da Kiyevə dəstəyini əhəmiyyətli dərəcədə artıraraq bu sahədə Vaşinqtonu geridə qoyub. Kiel Dünya İqtisadiyyatı İnstitutunun araşdırmasına əsasən, Avropa ölkələrinin Ukraynaya ümumi hərbi yardımı 2022-ci ildən bəri ilk dəfə ABŞ-ı üstələyib. Müharibənin başlanğıcından bəri avropalılar Kiyevə 80,5 milyard avro, ABŞ isə 64,6 milyard dollar həcmində hərbi yardım ayırıb. 2025-ci ilin may - iyun aylarında Aİ Kiyevə 10,5 milyard avro ayırıb: Almaniya – 5 milyard, Norveç – 1,5 milyard, Belçika – 1,2 milyard. Bu vəsaitin təxminən 44 faizi əsasən Avropa və Ukrayna müdafiə müəssisələri ilə bağlanmış satınalma müqavilələrinə yönəlib.

"Financial Times" yazır ki, müharibənin başlanğıcından bəri Avropanın müdafiə sənayesində tikinti həcmi üç dəfə artıb. Araşdırılan 150 müəssisədən 88-i Aİ-nin "ASAP" proqramı ilə maliyyələşdirilir. Bu proqram çərçivəsində sursat və raket istehsalını artırmaq üçün 500 milyon avro ayrılıb. Bundan başqa, nəşr qeyd edir ki, Avropanın müdafiə sənayesinin istehsal gücünün artırılması artıq davamlı tendensiyaya çevrilib. Jurnalistlərin təhlilinə görə, müharibənin əvvəlindən bəri hərbi-sənaye obyektlərinin ümumi sahəsi 7 milyon kvadratmetr artıb.

Eyni zamanda, Qərb mətbuatı vurğulayır ki, ən böyük layihə Almaniyanın "Rheinmetall" şirkəti ilə Macarıstan dövlət müdafiə holdinqinin birgə zavodudur. Burada hazırda Lynx KF41 döyüş maşınları üçün 30 millimetrlik sursat istehsal olunur, gələcəkdə isə "Leopard 2" və "Panther" tankları üçün mərmilər də istehsal ediləcək. Mütəxəssislərin fikrincə, Avropa artıq sülh dövrünə xas istehsaldan "uzunmüddətli müharibə" üçün sənaye bazası qurmağa doğru keçid edir. ABŞ isə diqqətini siyasi həll yollarına, o cümlədən kuluar müzakirələrdə səsləndirilən "ərazilərin dəyişdirilməsi" variantına yönəldib.

Aİ, həmçinin Ukraynaya 45 milyard avro həcmində maliyyə yardımı ayırmağı planlaşdırır. Bu vəsaitin böyük hissəsi kredit şəklində veriləcək və dondurulmuş Rusiya aktivlərindən əldə olunan gəlir hesabına ödəniləcək. Avqustun 11-də Aİ Rusiya Mərkəzi Bankının dondurulmuş aktivlərindən 1,6 milyard avro məbləğində yardımın üçüncü tranşını Kiyevə köçürüb. Ümumilikdə, genişmiqyaslı işğal başlayandan bəri Aİ, Kanada, ABŞ və Yaponiya Mərkəzi Bankın, təxminən, 300 milyard avro aktivini dondurub. Lakin Avropa Mərkəzi Bankı onların müsadirəsini qəbuledilməz sayır, çünki bu addım Avropa maliyyə sisteminə etimadı sarsıda bilər.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

"AZAL" öz vebsaytının və mobil tətbiqi üçün "UX/Uİ"-ın dizayn xidmətinin satın alınması məqsədilə

AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" QSC öz vebsaytının və mobil tətbiqi üçün "UX/Uİ"-ın dizayn xidmətinin satın alınması məqsədilə açıq tenderində iştirakçılar veronika.oborskaya@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 8 sentyabr 2025-ci il saat 15.00-dəkdir.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Prosedur üzrə əlaqələndirici şəxs – Veronika Oborskaya, innovativ və marketinq məhsullarının təchizatı şöbəsinin layihə rəhbəri, veronika.oborskaya@azal.az, iş – (+99412) 4972600 daxili 4258.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 169 (30863) 14 avqust 2025-ci il, cümə axşamı

## İDMAN

### “Qarabağ”ın növbəti rəqibi macar komandasıdır



**“Qarabağ”ın UEFA Çempionlar Liqasının pley-off mərhələsindəki rəqibi müəyyənləşib.**

Belə ki, III təsnifat mərhələsində “Ludoqorets”i (Bolqarıstan) mübarizədən kənarlaşdıran (0:0, 3:0) “Ferentsvaroş” (Macarıstan) Liqa mərhələsinə gedən yolda Ağdam təmsilçisinin rəqibi olub.

Xəbər verdiyimiz kimi, III təsnifat mərhələsində Şimali Makedoniyanın “Şkendiya” komandasına iki oyunun nəticəsinə əsasən 6:1 hesabı ilə qalib gələn “Qarabağ” növbəti raunda adlayıb.

Qurban Qurbanovun komandası “Ferentsvaroş”la ilk oyunu avqustun 19-da səfərdə, cavab görüşünü isə avqustun 27-də Tofiq Bəhramov adına Respublika stadionunda keçirəcək.

### Bakıda UEFA B kateqoriyalı məşqçi kursu keçirilir



**Azərbaycan Futbol Federasiyaları Assosiasiyalarının Təhsil və Reabilitasiya Mərkəzində məşqçilər üçün UEFA B kateqoriyalı məşqçi kursunun I mərhələsinə start verilib. AFFA-dan bildirilib ki, 4 gün davam edəcək məşğələlərə təlimatçılar Aslan Kərimov, Osman Rəhimov və Arif Əsədov rəhbərlik edirlər.**

Qeyd edək ki, məşqçi kursunun II modulu 8-11 sentyabr tarixlərində keçiriləcək.

### Paralimpiyaçımız dünya reytinqində liderliyini qoruyub



**Azərbaycanlı paralimpiya çempionu İmaməddin Xəlilov (70 kq) dünya reytinq sıralamasındakı liderliyini qoruyub.**

O, Dünya Parataekvondo Federasiyası tərəfindən açıqlanan yeni reytinq cədvəlində 662,85 xalla liderliyini davam etdirir. Paralimpiya Oyunlarının bürünc medalçısı, ötən ay Avropa Gənclər Paralimpiya Oyunlarında qızıl medal qazanan Sabir Zeynalov (58 kq) isə 356,66 xalla 3-cü pillədə qərarlaşıb.

Amin Şıxalıyev (63 kq) ötən reytinq cədvəli ilə müqayisədə 21,60 xalla iki pillə irəliləyərək 28-ci sıraya yüksəlib. Orxan Cəfərov (80 kq) isə 24,74 xalla 30-cu pillədədir.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Təbiət abidələrimiz*

# Enək İsa bulağına...

*Hər gün gözlərindən öpülən bulaq doğmaların qayıdışına nəğmə oxuyur*



**Şırıl-şırıl deyil, misra-misra axır İsa bulağı, göz yaşı kimi dumduru suyu həzin Qarabağ musiqisinin notları ilə zümzümə edir. Sanki Azərbaycan təbiətinin bu əsrarəngiz incisi yenidən azadlıq şərbətini daddığı, doğmalarına qovuşduğu üçün zəfər mahnıları səsləndirir.**

Sevincindən şirin-şərbət suyu da başındakı illər boyu həsrətilə qovrulmuşların qələbəliyinin hamısına yetəcək qədər gurlaşıb İsa bulağının. Axı, əsasən də yayın qovurucu istisində Qarabağa gələnlərin, ceyran-cüyür oylağı Qırxqız yaylağına çıxanların istisnasız hamısı ürəklərinin təşnələrini söndürmək üçün qalın meşə içindəki bu cənnətə baş çəkirlər...

Bugünkü qələbəliyin içində biz də varıq - işğaldan azad edilmiş müqəddəs torpaqlarımızı görmək arzusu ilk dəfədir reallığa çevrilən dostumu İsa bulağına gətirmişəm. O hər şeyə heyrət və sevgiylə baxır, Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin ruhuna dualar oxuya-oxuya doyunca su içir, mənsə “ev sahibi” kimi sonsuz qürur və xoşbəxtlik duyğusu ilə tarixlər şahidi bulaq haqqında danışıram.

Məlumat verirəm ki, gözəl Şuşamızdan cəmi 2 kilometr aralıda, Şuşa-Laçın yolunun yaxınlığında, dəniz səviyyəsindən, təqribən, 1500 metr hündürlükdə yerləşən İsa bulağı yerli əhalinin məlumatına görə, XVIII əsrdə ilk dəfə onu qalın meşəlikdə üzə çıxarmış İsa adlı əkinçinin adını daşıyır. Şanlı qələbəmizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra bulaq Şuşa şəhəri Dövlət Qoruğu İdarəsi tərəfindən tam bərpa edilib, burada mənfur düşmənin saxta izləri tamamilə silinib. Bulağın özü mərmərdən hazırlanıb, “İsa bulağı” sözləri milli ornamentlə yazılıb.

Yeri gəlmişkən, Şuşa–Laçın yolundan İsa bulağına qədər olan yol da tamamilə yenidən qurulub, təzə asfalt örtüyü çəkilib, xətlənib, yol nişanları qoyulub. Ancaq çoxsaylı ziyarətçi axınını, xüsusilə sərt döngələri nəzərə alsaq, yolun genişləndirilməsi, ən azından döngələrdə 2 deyil, 3 zolaqlı hərəkətin təmin edilməsi çox yaxşı olardı. Bu, yolda təhlükəsiz hərəkət baxımından da vacibdir!

...İsa bulağının üstündə üzərində şəhidlərimizin şəkilləri olan fincanlar qoyulub. Ziyarətçilər hər dəfə həmin fincanlarla su içəndə sanki mistik bir an yaşanır və sözsüz, şəhidlərimizin ruhları da vətən göylərində sevinir, əbədi dinclik tapır. Dostumla bu barədə söhbətimizi yaşlı bir qadının hamıya müraciətlə ucadan dediyi “Görürsünüz, bu gözəllikləri?! Bir vaxtlar biz deyəndə ki, bizim yerlər cənnətdir, inanmayanlar da vardı!..” sözləri kəsir. Bəlkə də haqlıdır.

Bəlkə də görmədikləri üçün bu yerlərin yer üzünün cənnəti olduğunu bilməyənlər az olmayıb. Ancaq əzəli torpaqlarımızın düşmən işğalından azad olunması məqamında bütün xalq hamı bir nəfər kimi müzəffər Ali Baş Komandanımızın ətrafında yumruq kimi birləşdi, igid oğullar gözəlliyindən xəbərsiz yurd yerlərimiz azadlığına qovuşsun deyə, cəsarətlə, tərəddüd etmədən ölümün üstünə yeridilər.

Odur ki, indi Qarabağ təkcə qarabağlıların, Şərqi Zəngəzur təkcə vaxtilə o yerlərdə yaşamış insanların deyil, hamımızın doğma vətənidir. Bütün Azərbaycanındır!

İsa bulağı ilə sağollaşırıq. Yadıma şair Soltan Abbasın sözləri düşür:

**Qışda mülayimdi, yayda buz kimi,**
**Dumantək dərəyə səpilən bulaq.**
**Durudur, təmizdir, saf ürək kimi,**
**Hər gün gözlərindən öpülən bulaq.**

Salamat qal, saf ürək kimi duru, təmiz bulaq. Həmişə beləcə qayğısız ax, gözlərindən öpənlərin çox olsun!

*Mahir RƏSULOĞLU,*
*“XQ”nin Qarabağ müxbiri*

**Şuşa**

# Təbiət alimləri Şərqi Zəngəzurda



**Elm və Təhsil Nazirliyi Dendrologiya İnstitutunun əməkdaşları Şərqi Zəngəzur iqtisadi bölgəsində – Zəngilan və Qubadlı rayonlarında elmi ezamiyyədə olublar.**

İnstitutun alim və mütəxəssisləri Zəngilan rayonu Rəzdərə kəndinin yaxınlığında, Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisində dəniz səviyyəsindən 600-800 metr yüksəklikdə, antropogen mənşəli və qlobal iqlim dəyişkənliyi nəticəsində təbii floranın ayrı-ayrı növlərinin fizioloji xüsusiyyətlərini araşdıraraq inkişaf mərhələlərini tədqiq edib və onlara təsir edən mühit amillərinin parametrləri haqqında məlumat toplayıblar.

Ekspedisiya zamanı laboratoriya əməkdaşları tərəfindən götürülmüş nümunələr üzərində təyin, təhlil və tədqiqatlar laboratoriya şəraitində davam etdirilir.

*XQ*

# Rezidenturaya ixtisas seçimi başlanıb

**Rezidenturaya qəbul olmaq üçün ixtisas seçimi başlanıb. Namizədlər müsabiqədə iştirak etmək üçün artıq dünəndən internet vasitəsilə ixtisas seçimi etməyə başlayıblar. Prosedur avqustun 17-dək davam edəcək.**



Dövlət İmtahan Mərkəzinin (DİM) məlumatına görə, ixtisas seçiminə rezidenturaya qəbul imtahanındakı nəticələri mərkəz tərəfindən müəyyən edilmiş müsabiqə şərtini ödəyən – ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında 50 və daha çox bal toplayan namizədlər buraxılırlar.

Müsabiqəyə buraxılan namizəd bitirdiyi baza ali tibb təhsili istiqamətinə uyğun ixtisasları seçir, sonra onların kodlarını öz elektron ərizəsindəki ixtisas seçimi formasına istədiyi ardıcıllıqla daxil edib təsdiqləyir. Seçilmiş ixtisasların ərizə formasında göstərilən ardıcıllığı müsabiqə zamanı əsas kimi götürülür və namizəd qəbul imtahanında topladığı bala əsasən müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilir.

*XQ*

*HAVA*

# Dəyişkən buludlu, əsasən yağmursuz...



**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gündüz bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Məlumatı Milli Hidrometeorologiya Xidməti verib.**

Havanın temperaturu gecə 22-25, gündüz 29-33 dərəcə isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunu, nisbi rütubət isə gecə 65-75, gündüz 40-45 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman müşahidə ediləcək. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 20-24, gündüz 30-35, dağlarda gecə 12-17, gündüz 18-23 dərəcə isti olacaq.

*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

İsrafil, Mədət və Gəray Qurbanov qardaşları Quba Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Tarıyel İbrahimova həyat yoldaşı

**NARGİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3416
SİFARİŞ 1515
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00